www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 13-14 may 2017-ci il Şənbə № 101 (6715) Qiyməti 60 qəpik

**Xəbər**

**Gənc ər xanımının təhsil haqqını ödəmək üçün 4 qadını soydu**

yazısı səh.14-də

**Gündəm**

## "MTN işi" mübhəm agentləri kölgədən çıxarır - sensasion gəlişmə



Sabiq nazirin, baş redaktorun və Elçin Behbudovun ləğv edilmiş MTN-lə əməkdaşlıq etdiyi məlum olub; Eldar Mahmudovu güclü edən agent şəbəkəsi dosyesinin əlində olmasıdır...

yazısı səh.4-də

## Hökumət iqtisadi böhranın yoxsullaşdırdığı kasıbları qorumaq üçün nə edir?

yazısı səh.3-də

## ABŞ təşkilatlarının ölkədən getməsi Azərbaycanın xeyrinədirmi...

yazısı səh.5-də

## Amerika siyasətinin Trampa qarşı gizli "silahı"

yazısı səh.6-da

## Putin olmasaydı, Rusiya necə olacaqdı?

yazısı səh.9-da

## Əmir Teymurun sirli Yəşim Taxtı

yazısı səh.10-da

## Rusiyanın Qarabağla bağlı əsas hədəfi - Kreml nəyi gözləyir?

yazısı səh.11-də

## Ziya Məmmədovun təyyarəsinin ardından 6 bahalı maşınını da əlindən alıblar

yazısı səh.2-də

## Zamanımız bizə niyə yetmir...

yazısı səh.13-də

## Əl dəyişdikcə əldən düşən Bakı avtovağzalı

yazısı səh.15-də

## Dünya boyunca liderinə fantastik şəkildə pərəstiş edənlər...

yazısı səh.13-də

## İqtidar deputatı Moskvaya danışıqlara göndərdi

# ANTİ-AZƏRBAYCAN QÜVVƏLƏR PUTİNƏ QARŞI

Rusiyanın hərbi çevrələrinin və erməni diasporunun təsiri altında olan dairələr Azərbaycana qarşı addımları davam etdirir; parlamentin komissiya sədri Moskvaya elə bir qərar ərəfəsi getdi ki...




yazısı səh.9-da

## Bakı təhdidlərə qarşı: İran təbliğat savaşında uduzur - yeni gəlişmə

Tehran ənənəvi Ermənistan siyasətini dəyişməyincə, Azərbaycanda ona münasibət dəyişməyəcək; **politoloq:** "Səudiyyə Ərəbistanı ona görə Azərbaycanda İrandan önə keçməyə başlayıb ki..."

yazısı səh.8-də



*Azər Ayxan:*

**"Özümlə söhbət etməyə vaxtım olmur"**

yazısı səh.5-də



*Hikmət Hacızadə:*

**"Rusiya ilə Azərbaycan razılaşsa, Ermənistan isə rayonları qaytarmağa razı olmasa, müharibə olacaq"**

yazısı səh.6-da



*Ramil Osmanlı:*

**"Bəzi ailələrdə evi olmayan oğlana qız vermirlər"**

yazısı səh.7-də

YENİ MÜSAVAT
N 101 (6715) 13 may 2017



## Azər Ayxan - 45

**Bu gün Azərbaycan mətbuatının ünlü simalarından olan Azər Ayxanın 45 yaşı tamam olur. Bu münasibətlə onu ürəkdən təbrik edir, cansağlığı arzulayırıq.**

**"Yeni Müsavat" qəzetinin baş redaktorunun birinci müavini olan Azər Ayxan özünəməxsus qələmi və yazı dəst-xətti ilə milli jurnalistikamızda çoxdan silinməz iz qoymuş, adını milli mətbuat tariximizə yazmağı bacarmış dəyərli həmkarlarımızdandır. Jurnalist təhsili olmasa da, öz fitri istedadı, zəhməti hesabına yetkin bir yazar, publisist kimi formalaşan qələm dostumuz illərdir həm də bacarıqlı redaktor olaraq sıralarımızdadır, "Yeni Müsavat" ailəsinin əvəzsiz üzvlərindəndir.**

**Azəri "Azər Ayxan" imzası ilə tanıdan da öncə onun bu keyfiyyətidir, nəinki baş redaktorumuz Rauf Arifoğlunun qardaşı olmasının verdiyi hansısa üstünlük. Yəni Azər bəy hətta tanınmış media kapitanı olan qardaşının kölgəsinə sığınmayan fədakar, zəhmətkeş bir insandır. Eyni zamanda etibarlı, həssas və səmimi bir dost, yaxşı həmfikir və iş yoldaşıdır. Maraqlı həmsöhbət, yol yoldaşıdır.**

**Azər bəy həmçinin gözəl və qayğıkeş ailə başçısıdır, mehriban atadır. İki övladını milli ruhda, milli kökdə böyüdən əsl ziyalı azərbaycanlı kişisidir.**

**Əziz həmkarımızı bir daha 45 yaşı münasibətilə təbrik edir, ona ən azından daha 45 illik mənalı ömür, yeni yaradıcılıq uğurları, şəxsi həyatında xoşbəxtlik və bol ailə sevincləri, övladlarının xeyrini görməyi arzu edirik.**

**Rauf Arifoğlu və "Yeni Müsavat" ailəsi**

## "Neftin qiymətinin düşməsinə səbəb Trampdır"




**Dünya neft bazarında qiymətlər ABŞ Prezidenti Donald Trampın həyata keçirdiyi siyasət səbəbindən düşə bilər. "Report" "Rambler News Service"ə istinadən xəbər verir ki, bu açıqlama ilə Rusiya Bankının (Mərkəzi Bank) rəhbəri Elvira Nabiullina çıxış edib.**

Baş bankir bildirib ki, Trampın fiskal ekspansiya siyasəti artıq inflyasiya gözləntilərinin və ABŞ dövlət istiqrazlarının gəlirliliyinin artmasına səbəb olub. Bu da öz növbəsində pul-kredit siyasətinin sürətli normallaşmasını, yəni uçot dərəcəsinin sürətlə artırılmasını zəruri edəcək. Nəticədə, dolların məzənnəsi artacaq, neft qiymətləri ucuzlaşacaq və inkişaf etməkdə olan ölkələrdən kapital axını sürətlənəcək.

Xatırladaq ki, ABŞ Federal Ehtiyat Sisteminin (FED) növbəti iclası iyunun 13-14-də keçiriləcək. Hazırda ABŞ-da uçot dərəcəsi 0,75-1% təşkil edir. FED faizlərin bu il 1,25-1,50% səviyyəsinə yüksələcəyini proqnozlaşdırır.


## "Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan**
**"Yeni Müsavat" - 0.60 AZN**
**və bundan əlavə 2500 adda yerli**
**və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.


# Azərbaycandakı rus icması ÜAK-la bağlı müraciət imzaladı

## "Bu qurumun ləğvinə yönəlik səylərin reallaşmasına imkan verməyin!"

**Azərbaycandakı rus icması müraciət qəbul edib. Musavat.com müraciətin mətnini təqdim edir: "Öz sıralarında 120 min rusu - Azərbaycan vətəndaşını birləşdirən Azərbaycanın rus icması artıq uzun müddətdir Ümumrusiya Azərbaycanlıları Konqresi ətrafında yaranan situasiyadan ciddi narahatlıq keçirdiyini bəyan edir.**

Rus icması bu məsələ ilə bağlı öz prinsipial münasibətini artıq 4 aprel 2017-ci il bəyanatı ilə ortaya qoyub. Təəssüf ki, Rusiyadakı müəyyən qüvvələr ÜAK-ın təşkilati fəaliyyətində bəzi-para nöqsanlar axtarıb tapmaqla Rusiyadakı bu ən böyük ictimai qurumun ləğvi üçün zəmin yaratmaq səylərindən əl çəkmirlər.

Ona da şübhə yox ki, bizim həmvətənlərimizə - Rusiyadakı Azərbaycan diasporuna belə bədxah, hörmətsiz münasibət Azərbaycanla Rusiya arasında, Azərbaycan və rus xalqları arasında dostluq əlaqələrinin inkişafı və genişlənməsinə kömək eləmir. Azərbaycanda yaşayan ruslar Azərbaycan xalqının bu ölkədə rus dilinin, rus mədəniyyəti və ənənələrinin qorunub saxlanmasına qayğısını yüksək qiymətləndirirlər. Biz hesab edirik ki, Rusiyada yaşayan və bu ölkənin tamhüquqlu vətəndaşları olan azərbaycanlıların tələb və istəklərinə adekvat münasibət formalaşmalıdır.

Biz ölkələrimiz arasında formalaşan münasibətlərə çox şadıq. Bu münasibətlərin əsasında - çoxəsrlik dostluq və qonşuluq ənənələri, milyonlarla insanın - azərbaycanlı və rusun taleyini özündə ehtiva edən qarşılıqlı maraqlara hörmət durur. Bizim xalqlarımız arasında bu möhkəm və səmimi əlaqələri qeyri-dost qüvvələrin pozmasına imkan vermək olmaz.

Biz, rusiyalı həmvətənlər bizim ölkələrimiz və xalqlarımız arasında münasibətləri yüksək qiymətləndirir və bir daha Rusiyadakı sağlam qüvvələrə müraciət edirik: Rusiyadakı ən iri ictimai təşkilat olan ÜAK-ın ləğvinə yönəlik səylərin reallaşmasına imkan verməyin!"

❑ Musavat.com



## Ziya Məmmədovun təyyarəsinin ardından 6 bahalı maşınını da əlindən alıblar

**Keçmiş nəqliyyat naziri Ziya Məmmədovun şəxsi təyyarəsinin ardından ona məxsus 6 ədəd bahalı avtomobili də əlindən alınıb. "Qafqazinfo" xəbər verir ki, bu barədə jurnalist Fuad Hüseynov məlumat yayıb. O, qeyd edib ki, maşınlar 2 gün öncə müsadirə edilib.**

Belə ki, avtomobillər eks-nazirin Ucarın ata yurdu Qazqumlaq kəndində yerləşən villasının həyətindən Bakı şəhərinə aparılıb. Müsadirə evakuatorlarla, məhkəmə icraçıları tərəfindən həyata keçirilib. Qeyd edilir ki, həmin avtomobillərin üzərinə məhkəmə qərarı ilə həbs qoyulubmuş. Xatırladaq ki, bir neçə gün öncə Z.Məmmədovun təyyarəsinin də ondan alındığı haqda məlumat yayılmışdı, qardaşı Elton Məmmədov isə xəbəri təkzib etməmişdi.Təyyarənin müsadirə olunması ilə bağlı sual ünvanlayan unikal.org əməkdaşına belə demişdi. Sitat: "Sizin şəxsi əmlakınızı kimsə əlinizdən ala bilərmi? Əlbəttə, yox. Qurtardı getdi də! Mən sizdən xahiş edirəm, əlavə nəsə soruşmayın. Bu məsələyə mən münasibət bildirmirəm, ya da bildirmək istəmirəm. Bu qədər".

❑ E.HÜSEYNOV

## Füzuli Məmmədov iki şəhid və iki qazi ailəsinə ev bağışladı

**May ayının 10-da Dünya Azərbaycanlıları Mədəniyyət Fondunun rəhbəri, Avropa Azərbaycanlıları Konqresinin birinci vitse prezidenti Füzuli Məmmədov Bakıda olarkən iki hərbçiyə ev bağışlayıb.**



Xüsusi Təyinatlı Qoşunların üzvləri olan Natiq Mehtiyev Bakı şəhərində, Ülfət Həsənov isə Sumqayıt şəhərində evlə təmin olunublar.

Xatırladaq ki, hər iki hərbçi 2015-cı ildə xüsusi hərbi tapşırığı yerinə yetirərkən böyük qəhrəmanlıq göstərərək, düşmənə ağır zərbə vurublar. Onlar həmin döyüş əməliyyatları zamanı müxtəlif dərəcəli xəsarət alıblar. Natiq Mehtiyev və Ülfət Həsənovun mənzil şəraitinin yaxşılaşdırılması üçün F.Məmmədov öz vəsaiti ilə onlara mənzil alıb bağışlayıb. Bu haqda Natiq Mehdiyev özünün facebook səhfəsində də məlumat paylaşıb.

Teleqraf.com xəbər verir ki, xüsusi təyinatlı gizirlərimiz Natiq Mehdiyev və Ülfət Həsənovun müalicəyə ehtiyac var. Füzuli Məmmədov onların müalicə xərclərini öz üzərinə götürüb.

Təqdimetmə mərasimi Müdafiə Nazirliyində baş tutub. Hər biri 3 otaqlı olan tam təmirli evlər vacib əşyalarla da təmin olunub. Məlumatda o da bildirilir ki, ilin sonuna qədər 6 ailə evlə təmin ediləcək. Ümumlikdə isə 10 ailə evlə təmin olunacaq.

**Qeyd edək Füzuli Məmmədovun iş adamı olaraq nəcib və xeyirxah addımları, digər iş adamlarımızı ümummilli maraqlar istiqamətində həvəsləndirə və onların xoşməramlı təşəbbüsə qoşulub dövlətimizin daha da güclənməsi istiqamətində fəallaşmasına səbəb ola bilər. Diaspor quruculuğu prosesində aktivliyi ilə seçilən Füzuli Məmmədov ümummilli lider Heydər Əliyevin dövlətçilik quruculuğu siyasətində danışıb:** "Heydər Əliyev fenomenal şəxsiyyət idi. Qısa müddət ərzində ölkədə uğurlu dövlətçilik quruculuğu prosesini apararaq, yaranmış hərc-mərcliyə son qoydu. Bu siyasətin nəticəsi olaraq, stabil və dinamik və iqtisadi-siyasi cəhətdən güclənən, sürətlə inkişaf edən Azərbaycan dövləti yarandı. Xaricdə yaşayan soydaşlarımızla əməkdaşlıq və koordinasiya gücləndi. İlk dəfə olaraq 2001-ci ildə Dünya Azərbaycanlılarının I Qurultayı keçirildi. Bu gün Heydər Əliyevin siyasi kursunu cənab Prezident İlham Əliyev uğurla davam etdirir. Cənab prezident 2016-cı ildə Dünya Azərbaycanlılarının IV Qurultayında etdiyi çıxışında xaricdə yaşayan soydaşlarımızı həqiqətlərimizin dünya ictimaiyyətinə çatdırılmasında fəal olmağa çağırdı. Biz də iş adamları kimi cənab prezidentin ətrafında sıx birləşməli və ortaq hərəkət etməliyik".

**Xatırladaq ki, bu ilin fevral ayında Avropa Azərbaycanlıları Konqresinin (AAK) 5-ci qurultayında Füzuli Məmmədov bu nüfuzlu təşkilatın birinci vitse-prezidenti seçilib.**

BAKU 2017
4th Islamic Solidarity Games

## Bakıda IV İslam Həmrəyliyi Oyunlarının rəsmi açılışı oldu

**Mayın 12-də Bakıda IV İslam Həmrəyliyi Oyunlarının rəsmi açılış mərasimi keçirilib.**

Bakı Olimpiya Stadionunda təşkil olunacaq tədbir saat 21:00-da başlayıb.

Təxminən 2 saat davam edəcək mərasimdə Azərbaycan və islam mədəniyyəti tərənnüm edilib. Tədbirdə məşhur simaların iştirak ediblər. Mərasimin sonunda idmançıların paradı və atəşfəşanlıq olub.

Yarışa qatılacaq 54 ölkənin 3000-dən artıq atleti 21 idman növündə 269 dəst medal uğrunda mübarizə aparacaq. Bu növlərdən ikisində əlil idmançılar da qüvvələrini sınayacaqlar. Bunlar paraatletika və paracüdo yarışlarıdır.

İslamiadanın ilk medalları isə açılış mərasiminin ertəsi günü öz sahibini tapacaq. Həmin gün 6 növ üzrə 23 dəst mükafat təqdim olunacaq. Medallar baxımından ən zəngin gün mayın 17-dir. Həmin gün idmançılar 35 dəst medala yiyələnəcəklər.

## Nazirlik məhkəməyə müraciət etdi - bir neçə sayt bağlandı

**Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Elektron Təhlükəsizlik Mərkəzi Azərbaycanda bəzi saytların bloklanması tələbi ilə Səbail Rayon Məhkəməsinə müraciət etmişdi.**

Musavat.com xəbər verir ki, mərkəz azadlıq.org azadlıq.info, azərbaycansaatı.com, meydan.tv saytlarının, "Turan" telekanalının (Turan TV) və "Azərbaycan saatı" teleproqramının girişə blok qoyulmasını istəyirdi.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Elektron Təhlükəsizlik Mərkəzinin adı çəkilən internet resurslara qarşı iddiası məhkəmə baxışına qəbul edildi və baxıldı.

İddia azadlıq.info, azadlıq.org, azərbaycansaatı.com, meydan.tv saytları, Turan" telekanalı (Turan TV) və "Azərbaycan saatı" teleproqramlarına girişin məhdudlaşdırılması ilə bağlı idi.

Məhkəmə iddianı qəbul edib və saytların bloklanması qərarını çıxarıb.

❑ İ.MURADOV

# Hökumət iqtisadi böhranın yoxsullaşdırdığı kasıbları qorumaq üçün nə edir?

**"Manatın məzənnəsinin korreksiyası gec baş verib. Buna görə də iqtisadiyyata mənfi təsirlər çox olub". Bunu Dünya Bankının (DB) Avropa və Mərkəzi Asiya üzrə baş iqtisadçısı Hans Timmer keçirdiyi videokonfransda deyib. O bildirib ki, Azərbaycan iqtisadiyyatı üçün hərtərəfli strategiya lazımdır:**

"Neft gəlirlərinin azalması səbəbindən Azərbaycan alıcılıq qabiliyyətini 25 faiz itirib və bu, milli iqtisadiyyat üçün çox böyük şok yaradıb. Buna görə də, Azərbaycan xüsusilə ixracyönümlü mal və xidmətlər sahəsini inkişaf etdirməlidir. Azərbaycanda məzənnə çevikliyi təmin edilməlidir. Yəni ölkədaxili qiymətlər xarici qiymətlərə uyğunlaşmalıdır. Bank sektorunun sağlamlaşdırılmasını təmin etmək vacibdir. Neftin qiymətinin düşdüyü bir şəraitdə bank sektorunun sağlamlığı vacibdir".

**H.Timmerin vurğuladığı ən önəmli məqam isə yaranmış iqtisadi böhran və inflyasiya səbəbindən vəziyyəti pisləşən aztəminatlı ailələrə dəstək verilməsi olub:** "Amma fiskal tədbirlər gecikdiyindən bəzi çətinliklər qalmaqdadır. Xarici şokun yaratdığı çətinliklərin əhali arasında paylanmasına xüsusi diqqət yetirilməli və əhalinin aztəminatlı hissəsinə dəstək verilməlidir. Azərbaycanda ticarət və startap layihələri sahəsində çox işlər görməlidir".

Qeyd edək ki, Hans Timmerin Azərbaycan iqtisadiyyatı ilə bağlı fikirlərini yerli iqtisadçılar da bölüşürlər. Manatın məzənnəsi ilə bağlı korreksiya tədbirləri vaxtında aparılmadığından hər iki devalvasiyanın nəticələri bu qədər ağır oldu. Lakin bunun qarşılığında yoxsul təbəqənin müdafiəsi üçün heç bir addım atılmadı.

**Milli Məclisin İqtisadi Siyasət, Sənaye və Sahibkarlıq Komitəsinin üzvü, deputat Vahid Əhmədov** da təsdiq etdi ki, yoxsul təbəqənin müdafiəsi üçün bu istiqamətdə hər hansı konkret qərarlar olmayıb: "Ancaq inflyasiyanın qarşısının alınması üçün müəyyən qədər addımlar atılıb. Doğrudur, hazırda qiymət artımları da böyükdür. Elə məhsullar var ki, qiyməti 10-12 faiz yox, 50 faiz artıb. Ancaq hökumətin hər hansı ciddi bir addımını görməmişəm. Pensiya sistemində müəyyən qədər islahatlar gedir. Ancaq 2017-ci ildə sonuncu devalvasiyadan sonra biz dövlət büdcəsini təsdiq edəndə mən orada bəzi məsələlərə baxdım. Sosial layihələrin həyata



**Vahid Əhmədov:** "Yoxsul təbəqənin müdafiəsi üçün atılan addımlar kifayət qədər deyil"



**Natiq Cəfərli:** "Devalvasiyalardan sonra nə minimum əmək haqqı ilə bağlı, nə sosial təminatlarla bağlı artımları və ya kompensasiyaların ödənilməsini görmədik"

keçirilməsinə ayrılan vəsait 2016-cı il səviyyəsində, hətta ondan da artıq saxlanılıb. Belə addımlar atılıb, ancaq əmək haqlarında çox ciddi artımlar yoxdur. Həkimlərin, müəllimlərin maaşlarında çox ciddi artımlar edilib. Devalvasiya ilə əlaqədar olaraq yoxsul təbəqənin müdafiəsi üçün atılan addımlar kifayət qədər deyil.

Xarici təcrübədə bu hallar çoxdur. Bizdə də müəyyən sosial layihələr həyata keçirilir. Ancaq kənd təsərrüfatının inkişafı ilə bağlı ki, vəsait çox xərclənir. Əhalinin 38 faizi kənd təsərrüfatı sahəsində çalışır. Ancaq ümumi götürəndə yoxsullaşmanın qarşısını almaq üçün əhaliyə yardımlar etmək lazım idi".

**İqtisadçı-ekspert Natiq Cəfərli** isə "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Azərbaycanda yoxsulluqla bağlı statistika belə reallığı əks etdirmir: "Azərbaycanda real vəziyyətlə bağlı araşdırmalar aparılmayıb. Rəsmi rəqəmlərə görə bizdə yoxsulluq səviyyəsi heç 5 faizə çatmır. Əslində indiqatorlar düzgün qoyulub hesablamalar aparılsa kifayət qədər böyük bir rəqəm alınar. Düzgün diaqnostika aparılmadığına görə, bu sahədə real addımların atıldığını da təəssüf ki, görə bilmirik. Hətta son olaraq kommunal xərclərin artırılması, qiymət artımının, inflyasiyanın ikirəqəmli həddə olması ən çox aztəminatlı təbəqəyə təsir göstərir. Onların gəlirlilik səviyyəsinin aşağı düşməsinə səbəb olur. Ancaq nə minimum əmək haqqı ilə bağlı, nə sosial təminatlarla bağlı artımları və ya kompensasiyaların ödənilməsini görmədik. Bu ilin əvvəlində ötən il olan inflyasiya həddi qədər fiksasiya aparıldı. Bundan başqa əlavə ödənişlərin aparılmasını görmürük".

**İqtisadçının fikrincə, ölkədə yoxsulluq səviyyəsi ilə bağlı doğru-düzgün indiqatorlar olmalıdır və hesablamalar aparılmalıdır**: "Azərbaycanda yaşayış minimumu ilə bağlı hesablamalar da ciddi şübhələr var. Ətraf ölkələrlə müqayisədə bizdəki indiqatorlar çox aşağı səviyyədə hesablanmış indiqatorlardır. Normalar çox aşağı götürülüb. Buna görə də yaşayış minimumu çox aşağı rəqəmlərlə ifadə olunur. Dollar ekvivalentində ümumiyyətlə postsovet məkanında ən aşağı göstəricilərdən birinə çevrilib. Biz bu məsələdə Rusiyadan, Belarusiyadan, Qazaxıstandan belə geridə qalırıq".

**N.Cəfərlinin sözlərinə görə, hər hansı bir dövlət yardımından öncə normal diaqnostika aparılmalıdır**: "Problemlər təsbit olunmalıdır. Kimlərin yoxsul təbəqəyə aid olması dəqiqləşdirilməlidir. Minimum əmək haqqı, minimum təqaüd, yaşayış minimumu ilə bağlı yeni hesablamalar ortaya çıxmalıdır ki, bundan sonra yoxsullara hansı dövlət dəstəyinin verilməsi ilə bağlı bir yol xəritəsi cızmaq mümkündür. İndiki halda rəsmi rəqəmlərlə reallıq arasında çox böyük bir fərq var. Rəsmi rəqəmləri əldə rəhbər tutsaq, o zaman Azərbaycan yoxsulluq səviyyəsinə görə Avropadan da yaxşı vəziyyətdə görünür. Çünki ölkəmizdə yoxsulluq səviyyəsi rəsmi statistikada heç 5 faiz də deyil. Almaniyada bu 9 faizdir. Ancaq təsəvvür etmək mümkün deyil ki, Azərbaycanda yoxsul insanların sayı Almaniyadan azdır. Araşdırmalar bitdikdən sonra, bu istiqamətdə addımların atılmasından danışmaq olar. Hələlik isə həm qiymət artımı, inflyasiya səviyyəsi, həm də kommunal xərclərin artması əsas yükün məhz yoxsul təbəqənin üzərinə düşməsinə səbəb olur. Onlar inflyasiyadan ən çox əziyyət çəkən insanlardır".

❑ Nərgiz LİFTİYEVA

# Dihaj qalib gəlsin, bir də "Eurovision" keçirdək



Samir SARI

**Bu il başımız "Formula -1"-ə, İslamiadaya-zada qarışdı, "Erurovision" yadımızdan çıxdı. Hərçənd builki təmsilçimiz indiyə qədər o musiqi yarışmasında oxuyanların hamısından qəşəng oxuyur. Əlbəttə, burda cümlənin əvvəlinə və ya axırına "mənə görə" ifadəsi də artırılmalıdır. Çünki elə adamlar da var ki, Dihaj bacının oxumasını, performansını bəyənmirlər. Mən bəyənirəm, səsi çox gözəldir, musiqisi də superdir, mənə görə.**

Amma vaxt vardı, "Eurovision" söhbətləri ölkənin ictimai-siyasi, mədəni gündəminə oturdu. Biz bu məsələyə xarici siyasətimizin, hətta Qarabağ münaqişəsinə dair siyasətin tərkib hissəsi kimi baxırdıq. Ətək-ətək pullar xərclənirdi, televiziyalar gündə dörd-beş saat bundan danışırdı, qəzetlərin, saytların hamısında yazılar yazılırdı.

Biz 2011-i ildə "Eurovision"qalibi olana qədər bu xüsusda millət olaraq çox əziyyət və xərc çəkdik, xeyli enerji, əsəb, vaxt sərf etdik.

Heç yarışmanın özünü də pis təşkil eləmədik. Düzdür, hərdən deyirlər, 60 illik "Eurovision" yarışmasının ən bahalı finalı Azərbaycanda olub, amma eybi yoxdur, "ən ucuzu Bakıda olub" deməsinlər də, nə deyirlər, desinlər. O vaxt pulumuz çox idi, qonaqları yaxşı yola verdik, indi olsa, borc-xərc edib, yenə müsafirlərimizi yaxşı yola salardıq. Ona görə ki, biz bir kərə "qonaqpərvər xalq" titulunu boynumuza götürmüşük, canımız çıxsa da, geri durmaq söhbəti yoxdur.

Xüləs, "Eurovision"dan uzaqlaşmayaq. Bu dəfə yarışmada maraqlı şeylər olur. Birincisi, deyəsən, bu il yarışmaya cinsi azlıqlar az gəlib. Hər halda onlar çox gözə dəymirlər, parad-filan da keçirmədilər. Bu niyə yadıma düşdü? 2012-də "Eurovision"dakı cinsi azlıqlara görə iranlı axundların əlində qalmışdıq, gündə biri çıxıb fətva verirdi ki, Bakıda kafir geylər parad keçirəcək, din əldən gedəcək. Hərçənd o vaxt bizimkilər də onlara sərt cavab verdilər, hətta ortaya ibnəliyin tarixi vətəninin hara olması barədə iddia da düşdü, qanqaraçılıq oldu.

İkinci maraqlı məqam isə ev sahibi Ukrayna dirəşərək Rusiyanın təmsilçisini yarışmadan kənarda qoymasıdır. Bildiyiniz kimi, rusiyalı təmsilçi gedib işğal altındakı Krımda konsert vermiş və Ukraynanın "qara siyahısı"na düşmüşdü, ona görə də ukraynalı başbilənlər onu ölkəyə və yarışmaya buraxmadılar. Rusiya çox qəzəbləndi, amma güman ki, elə həmin gecə rus hərbçilərin Donbasda Ukrayna hərbçilərinə hücum etməsinin bu məsələ ilə bağlılığı yoxdur.

Hərçənd bəzi dostlar deyirlər ki, Rusiya belə məsələlərdə çox həssasdır, hiddətlənir və hirsi hələm-hələm keçmir. 3-4 il əvvəl Rusiyanın təmsilçisinə Azərbaycandan az xal verilmişdi deyə səfirimizi Rusiyanın XİN-inə çağırmamışdılarmı, Lavrov Məmmədyarova telefon açmamışdımı, sonra Moskvaya gedib izahat verməmişdimi, İTV-yə "səhv eləmişik" bəyanatı verdirmədilərmi, "günahkarlar"ı cəzalandırmadılarmı? Heç nə unudulmur, heç nə yaddan çıxmır.

Bu heç. Əsas məsələ başqadır. Deyirəm, biz tolerant və barışcıl ölkə olduğumuz üçün eyni situasiyada fərqli davranardıq. Məsələn, Dima Bilan Xankəndidə ermənilərə konsert vermiş olsa, bizim XİN təbii ki, onun adını "arzuolunmaz manıslar" siyahısına salardı və o, günlərin birində Bakıda keçirilən "Eurovision"a Rusiya təmsilçisi olaraq qatılmaq istəyəndə, xoşagəlməz durum yaranardı. Amma biz bu məsələni belə həll edərdik: "Ay Bilan" deyərdik və manısın adını siyahıdan çıxarardıq, o da ağ maykasını geyinib gəlib performansını sərgiləyib gedərdi.

"Eurovision"dur də, bundan ötrü qüdrətli qonşuyla dalaşmağın anlamı yoxdur. Bax, Ukrayna dalaşdı, yaxşı oldumu? Odur, Donbasda döyüşlər təzədən başlayıb. Hərçənd bu gərginliyin "Eurovision"a bağlı olması dəqiq deyil.

Hazırda çox adam dilinə gətirərək deyir ki, Allah eləyə, Dihaj birinci olmaya. İkinciliyə razıyıq, təki birinci olmasın. Çünki təmsilçimiz birinci olsa, gələn il yarışmanı biz təşkil etməli olacağıq. Guya ki, xalq yenə iztirab çəkəcək.

Qardaşlar və bacılar, salamatı "Eurovision"dur. O olsa, başımız ona qarışar, başqa yarışmaların dalınca düşmərik. Pis-yaxşı "Eurovision" keçirmək təcrübəmiz və zalımız var.

Bircə iranlı axundları neytrallaşdırmaq lazım gələcək ki, geylər, ibnələr söhbətini açıb-ağartmasınlar.

**Dihajımıza uğurlar. Qoy o bu gün qalib gəlsin, bir də "Eurovison" keçirdək.**

YENİ MÜSAVAT
N 101 (6715) 13 may 2017

**Həbsdə olan MTN generalı Elçin Quliyev və polkovnik Azər Mehdiyevin dövlət büdcəsindən 7,7 milyon dollar mənimsəmələri ittihamı üzrə yeni detallar məlum olub. Bu detalların üzə çıxması ümumilikdə cəmiyyətin xeyrinə olsa da, bütövlükdə Azərbaycan xüsusi xidmət orqanlarının agentura şəbəkəsinin yaradılması, saxlanılması, yeni agentlərin cəlb olunmasını əngəlləyən prosesdir.**



# "MTN işi" mübhəm agentləri kölgədən çıxarır- sensasion gəlişmə

## DTK cəmiyyətin "inkişaf"ı ilə ayaqlaşmayanları psixiatrik xəstəxanalarda saxlayırmış

Agenturaya cəlb olunan sabiq nazirin kimliyi barədə müxtəlif iddialar var; Elçin Behbudovun ləğv edilmiş MTN-lə əməkdaşlıq etdiyi məlum olub; Eldar Mahmudovu güclü edən agent şəbəkəsi dosyesinin əlində olmasıdır...

### Mahmudov 2 əməliyyatda agentlərin 5 milyon 148 min manat, 1 milyon 358 min dollarını "yeyib"

Təqsirləndirilən MTN vəzifəliləri ayrılan pulların agentlərə verildiyini bildirsələr də, şahid ifadələrində vəsaitin əksər hissəsinin mənimsənildiyi üzə çıxır. Sadə dillə desək, şahidlərin əksəriyyəti həmin o agentlərdir və pulları dəftər-kitabda göstərilən qədər almadıqlarını deyiblər.

İstintaqa şahid qismində ifadə verən polkovnik M.A isə bildirib ki, pullar kassadan əsasən "Şimal küləyi" və "Qütb gecəsi" işi üzrə çəkilib. M.A ifadəsinin əvvəlində "Şimal küləyi" əməliyyat işi üzrə pulların necə bölüşdürülməsi haqda ətraflı məlumat verib. İfadəsinin davamında "Qütb gecəsi" işindən danışan polkovnik prosedurun eyni qayda ilə aparıldığını, pullar 1 nəfərin adına yazılan raportla götürülüb, 8 nəfərə verildiyini deyib. Lakin əlavə edib ki, bu işə daha 5 agent cəlb edilib. Nazir E. Mahmudov vəzifədən çıxarıldıqdan sonra, lakin MTN ləğv edilmədən öncə nazirlikdən istintaqa təqdim edilən "Antiterror mərkəzində əməliyyat xərcləri maddəsi ilə ayrılmış vəsaitin xərclənməsinə dair arayış"dan görünür ki, "Qütb gecəsi" əks-kəşfiyyat əməliyyatları işi üzrə 1 milyon 105 min dollar və 1 milyon 357 min manat xərclənib. "Qütb gecəsi" işi 2014-cü il fevralın 3-də ATM-in rəisi general Elçin Quliyevin sanskiyası ilə açılıb, qərarı isə onun müavini polkovnik İlqar Əliyev hazırlayıb. İşin açılmasında məqsəd "Diplomatik nümayəndəlik və beynəlxalq təşkilatlar örtüyü altında sosial şəbəkələr mövqeyindən ölkəmizə qarşı kəşfiyyat-pozuculuq fəaliyyəti aparan xarici xüsusi xidmət orqanları ilə əməliyyat oyunlarının keçirilməsi" olub. "Qütb gecəsi" işinə bir-biri ilə əlaqəsi olmayan, müxtəlif faktlar üzrə yazışmalar, telefon danışıqlarının şərhi, agentura məlumatlarından çıxarış əlavə olunub. Bəzi məlumatlar vacib əməliyyat əhəmiyyəti kəsb etsə də, onların ətrafında əlavə agentura əməliyyat tədbirləri keçirilməyib. Arayışda agentlərlə bağlı hissədə qeyd edilib ki, bu iş üzrə 46 nəfərlə etibarlı münasibətlərin yaradılması, arxiv agentlərindən istifadə edilib.

İşi aparan polkovnik M.A şəxsən özünün əlaqəsində olan agentlər və onlara ayrılan pullar haqda istintaqa məlumat verib.

Yəni məxfi saxlanılmalı olan agentlərin adını müstəntiq, ona rəhbərlik edən prokuror, həmin prokurorun rəhbərləri, iş məhkəməyə göndəriləndən sonra isə hakim, məhkəmə katibi, proses iştirakçıları olan vəkillər də məlumatlı olublar.

Məsələn, M.A bildirib ki, hüquq müdafiəçisi olan agentlə 2013-cü ilin oktyabr ayından münasibətlər yaradılıb. Noyabr ayından etibarən hər ay həmin şəxsə 2 min manat mükafat təyin edilib. Bu şəxsin 2014-cü ildə Strasburqa səfər xərclərinə görə 2500 manat ödənilib. O, ümumi xarakterli məlumatlar təqdim edib. 2015-ci ildən isə Hərbi Əks Kəşfiyyat İdarəsində rəsmi xidmətə götürülüb.

### QHT sədri olan agent də ələ verildi

İkinci agent isə QHT sədri olub. Onun rəhbəri olduğu ofisin saxlanılması, qəzetinin buraxılması üçün hər ay 6 min manat ödənilib, həmçinin, çoxsaylı səfərlərinin xərci qarşılanıb. Həmin şəxsə 2011-2015-ci illər ərzində 132 min manat, 6150 dollar və 2475 avro ödənilib. 2014-cü ildə isə həmin şəxsin dövlət əleyhinə yönələn çağırışlar etməsi barədə məlumat daxil olub. Araşdırma zamanı məlum olub ki, QHT sədri əhali arasında iğtişaşlara gətirib çıxara biləcək mənfi fikirlər səsləndirir, dövlətə qarşı qaldırmaq üçün aztəminatlı, qaçqın və məcburi köçkünlərdən istifadə etmək üçün onları və Çeçenistan, Suriya, Əfqanıstanda döyüşmüş şəxsləri öz ətrafına yığır. Bu şəxsin MTN-in maliyyələşdirdiyi Strasburq səfərlərinin birində beynəlxalq tədbirlər zamanı Azərbaycan dövlətinin daxili və xarici siyasətini tənqid edən kütləvi etiraz aksiyalarında fəal iştirak etməsi barədə məlumat daxil olub. Onunla bağlı məlumatlar da "Qütb işi"nə əlavə edilib, sonradan həbs olunub.

### Agent baş redaktoru da məhkəmədə ifşa etdilər

Növbəti agent qəzet baş redaktorudur.

Musavat.com xəbər verir ki, ittiham aktında MTN-in agenti qəzet baş redaktorunun hansı epizod üzrə məlumatları nazirlik əməkdaşlarına çatdırdığı qeyd olunub.

MTN-lə əməkdaşlıq edən və adı açıqlanmayan etibarlı şəxs kimi qeyd edilə "TT" ləqəbli baş redaktorla 30 yanvar 2014-cü ildə münasibətlər yaradılıb.

Həmin baş redaktor hazırda həbsdə olan Taleh Bağırovun "Müsəlman Birliyi Hərəkatı" adlı qurum yaratmaq istəyi barədə MTN-ə məlumat verib.

Bu məlumatın qarşılığında baş redaktora isə general Elçin Quliyevin 2014-cü ildəki raportu ilə 10 min manat birdəfəlik pul mükafatı verilib.

Qeyd edək ki, Taleh Bağırov "Nardaran hadisələri" zamanı həbs edilib və 20 il müddətinə azadlıqdan məhrum edilib.

Agent "Əlizadə" isə 2014-cü ildə fəal istifadə olunduğuna görə 15 min manat mükafat alıb.

2015-ci ildə vəfat edən İşgəncələrə Qarşı Azərbaycan Komitəsinin sədri Elçin Behbudovun ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyi ilə əməkdaşlıq etdiyi məlum olub.

MTN-nin Antiterror Mərkəzinin rəisi, general-mayor Elçin Quliyevin cinayət işində qeyd olunur ki, MTN-də mühasibatlıqdan 1-ci idarənin rəis müavini Azər Məcidov ibtidai istintaq zamanı verdiyi ifadəsində göstərib ki, əlaqəsində olan etibarlı şəxs "BET"-yə Antiterror mərkəzinin sabiq rəis müavini İlqar Əliyevin raportları ilə vəsait ödənilib.

"BET"- ləqəbli agent Behbudov Elçin Tofiq oğlu olub. Onunla 26 oktyabr 2013-cü ildə Azər Məcidov tərəfindən etibarlı münasibətlər yaradılıb.

Mərhum Behbudova 25 noyabr 2013-cü ildən hər ay 2000 manat mükafatı təyin olunub.

31 may 2014-cü ildə onun Strasburqa səfər xərclərinə 2500 manat ödənilib.

"BET"in təqdim etdiyi məlumatlar ümumi xarakterli olub.

Əlavə olaraq vurğulanıb ki, "BET" 2015-ci ildən FOEZ kimi Hərbi Əks Kəşfiyyat Baş İdarəsində hərbi xidmətdə olub.

MTN-in etibarlı şəxslərindən biri isə Azərbaycanın keçmiş naziri olub. Bu şəxsə ötürdüyü məlumatlara görə nazirlik tərəfindən 90 min manat pul ödənilib. Sosial şəbəkələrdə agenturaya cəlb olunan keçmiş nazirlə bağlı çeşidli məlumatlar dolaşmaqdadır. Onun ixtisası haqda xəbərlər də var. Konkret adı belə çəkilir.

### "Samir", "Qəhrəman", "Terminator" və Hilal Əsədov...

İstintaq materialında əlavə olaraq qeyd edilir ki, bəzi agentlərə heç bir ehtiyac olmadığı halda belə pullar ödənilib. Məsələn, kod adı "Samir" olan agentə 2013-cü il prezident seçkiləri ərəfəsində 4 ay ərzində 40 min, agent "Qəhrəman"a 2014-cü ildə 25 min manat mükafat verilib. Həmçinin, qeyd edilib ki, "Qəhrəman" fəal şəkildə əməkdaşlıq etdiyi üçün ona öncə 250 manat, sonra isə 600 manat aylıq maaş ödənilib. Agentlərdən birinə isə böyük məbləğdə pullar ödənilib. Onun kod adı isə "Terminator" olub. Bu şəxsə 287 min avro, 5400 dollar və 12 min manat verilib. "Terminator" nazir müavini Hilal Əsədovun agenti olub və onun şəxsi işi generalın özündə olduğu üçün istintaq bu sənədlərlə tanış ola bilməyib. İstintaq şahidləri dindiriləndən və maliyyə səbəblərini incələdikdən sonra bu qənaətə gəlib ki, general Elçin Quliyevin idarəsi 2 əməliyyat işi çərçivəsində 5 milyon 148 min manat və 1 milyon 358 min dollar vəsaiti mənimsəyib.

Agent şəbəkəsi ilə bağlı xəbərlər bir daha Eldar Mahmudovun adını gündəmə qaytarıb. Sabiq nazirin əlində sovet dövrü və müstəqillik illərində agent şəbəkəsinə cəlb olunan şəxslərin dosye-arxivi olduğu müzakirə mövzusuna çevrilib. İstintaq sorğu-sualı yayılan MTN polkovniki M.A-nın dilə gətirdiyi arxiv agentləri ifadəsinin özü çox mübhəm bir dosyelərin olmasını təsdiqləyir. Başqa sözlə desək, MTN arxivlərində dosyeləri saxlanılan, illər öncə "verbovka" olunmuş agentlərdən yenidən istifadə olunduğunu ortaya qoyur. Həmin dosyelərə nazir kimi Eldar Mahmudovun çatımlılığı da adi bir qayda olub. O, nazir kimi dosyeləri götürüb baxmaq adı ilə surətlərini çıxara və özünün qara günü - yəni vəzifəsiz qaldığı günləri üçün təhlükəsizliyini təmin edən qala kimi istifadəsini planlaşdıra bilərdi. Bu gün onun çeşidli ittihamların varlığı ortada ikən azadlıqda qalması da bu versiyanın yaşamaq haqqını təsdiqləyir. Eldar Mahmudovu bu addımı atmağa sövq edən maraqlı bir məqam kimi onun sələfi olan Namiq Abbasovun işdən kənarlaşdırılmasına diqqət etmək lazımdır. N.Abbasov nazir kimi işgüzar görüşə getdiyi bir vaxtda onun vəzifəsindən uzaqlaşdırıldığı, Eldar Mahmudovla əvəzləndiyi haqda bilgi almışdı. Bu təyinat həm də E.Mahmudovun özü üçün bir dərs ola bilərdi. Vəzifəyə necə təyin olunubsa, o cür də vəzifədən atılacağını ilk gündən göz altına alması üçün qarşısında nümunə vardı. Mümkündür ki, bu gün barəsində çeşidli ittihamlar olan E.Mahmudovu azadlıqda saxlayan yaşadıqlarından özü üçün nəticə çıxarması, mübhəm agent dosyeləri olan arxivləri 3-5 ünvanda saxlamasıdır.

❑ E.MƏMMƏDƏLİYEV

YENİ MÜSAVAT
N 101 (6715) 13 may 2017

**Mayın 13-də "Yeni Müsavat" qəzeti baş redaktorunun 1-ci müavini Azər Ayxanın 45 yaşı tamam olur. Bu təqvimlə bağlı ondan götürdüyümüz müsahibəni təqdim edirik.**

# "Özümlə danışmağa vaxt tapmıram" - Azər Ayxanla yubiley söhbəti

## "45 yaş ömrün bir epizodudu. Bir sutkanın, bir təqvimin digərilə əvəzlənməsidi"

***- 45 yaş sizin üçün nədir? Sıradan bir təqvim dəyişikliyi, ağsaqqallığa gedən yol, ya gəncliyin müdriklik dönəmi?***

- Mən yaşı, xüsusilə də yubileyləri qəlizləşdirməyin, ona xüsusi bir çalar qatmağın əleyhinəyəm. Ömürdü də, gedir. Bəzən görürsən, kişilər 40 yaş kompleksi keçirirlər. Ciddi şəkildə kədərlənirlər, həyəcanlanırlar. Elə bilirlər, nəsə başqa bir mərhələ başlayacaq həyatlarında. İnsan oğlu belədi: hər şeyi qəlizləşdirməyə, böyütməyə, sirlərlə bəzəməyə meyllidi. Sonra özünün yaratdığı mənasız sirləri çözməklə məşğul olur, özünə hörümçək toru kimi hördüyü çətinlikləri aradan qaldırmağa bir ömür sərf edir. Guya 40 yaşdan sonra nə olur ki? Ya da 45-dən sonra?

***- Bu, özünə təsəllidi, yoxsa...***

- Yox, təsəlli deyil. Yəni demək istəyirəm ki, həyatı sadələşdirib yaşamaq dağa doğru olardı. Sadəcə, insan yaşa dolduqca təcrübəsi artır, olğunlaşır, olaylara soyuqqanlı baxmağa üstünlük verir və s. Zamanın, yaşın üstünə yaş gəlməsinin əsas faydası da budur.

***- Siz 40, 45, 50 yaşlara xüsusi bir mərhələ kimi baxmırsız?***

- Mən 45 yaşa xüsusi bir mərhələ falan kimi baxmıram. Bilmirəm, 50 yaşda bu iddiada olacammı? Yaşamağı bacaran, həyatdan zövq ala bilən adam üçün yaş məhdudiyyəti yoxdu. 45 yaş ömrün bir epizodudu. Bir sutkanın, bir təqvimin digərilə əvəzlənməsidi. İş qabiliyyətin qalırsa, fiziki imkanların məhdudlaşmayıbsa, demək, hər şey normaldı, həyəcan keçirməyə gərək yoxdu.

***- Bu yaşda olmaq istədiyiniz yerdə, statusda, əhvalda... həyatdasız? Arzularınızı, planlarınızı reallaşdıra bilmisizmi?***

- Əhvalımın necə olduğunu iş yoldaşlarımdan yaxşı kim bilər ki. Sutkanın böyük hissəsini eyni məkanda keçiririk. Yerimdən məmnunam. Mən yer dedikdə, yaşadığım ölkəni nəzərdə tuturam. Gözəl bir ölkədə yaşayırıq. Sadəcə olaraq bu gözəl ölkəyə axmaq və xain qonşular (söhbət təkcə ermənilərdən getmir) ciddi problemlər yaradıblar. Əsrlərdi belədi. Xalq var, Günəş üzünə həsrətdi. Milyonlarla insanın yaşadığı materikdə, ölkədə qar yağmaz heç vaxt. Allah bizə yaratdığı bütün təbiət hadisələrin az qala hamısını bəxş edib. Sadəcə bəxtimizə pis qonşular düşüb. Ona görə də bu faktor həyatımızın bütün mərhələsinə, anına təsir edib.



Arzulara, planlara gəldikdə isə... Nə arzu bitib tükənəndi, nə də reallaşdırmaq istədiyin planlar. İnsan hər gün nəsə arzulayır, planlaşdırır. Bizi həyata bağlayan, ayaqda tutan da bu istəkdi, iddialardı.

***- İş, ailə, vətən... İnsanı xoşbəxtliyə aparan bu üç məfhum onun həyatında mükəmməl olunca yaşamaq da gözəl olur. Siz bu "üçlükdən" razısız?***

- Sevdiyim işlə məşğulam. Ailəmdən razıyam. Məntiqlə ailəm də məndən razı olmalıdı. Amma vətənlə bağlı nə yazıq ki, bu cür arxayın danışa bilmirik... 30 ilə yaxındı işğalla üz-üzəyik. Qarabağın işğal faktı bütün ölkə insanının həyatına mənfi təsir edib. Təbii ki, ən çox da qarabağlıların və başqa işğala məruz qalmış bölgələrin sakinlərinin. Ölkədə insan orqanizmi kimidi - barmağa batan bir balaca tikan bütün bədəni sızladır. Vətənin bir hissəsinin də işğalı bütün ölkəyə, xalqa təsir edir. Məhz buna görə biz xalq olaraq geniş anlamda xoşbəxt ola bilmirik.

***- Bilirəm, insanın özü barədə danışması, özünü qiymətləndirməsi çətin məsələdir, amma yenə də soruşum. Sizcə, Azər Ayxan ən çox hansı statusu mükəmməl icra edir? Baş redaktor müavinliyini, atalığı, övladlığı, qardaşlığı, həyat yoldaşlığını, ya.... Daha çox hansı statusda özünüzü başarılı hiss edirsiz? Ya da hamısında?***

- Təvazökarlıq etməyəcəm. Sadaladığınız bütün kriteriyalarda özümü yaxşılardan biri hesab edirəm.

***- Geriyə boylananda ən çox gözünüzə dəyən tablo hansıdır?***

- Geriyə baxacaq qədər yaşlanmadıq (gülür).

***- Bəs gələcəyə baxanda görmək istədiyiniz mənzərə?..***

- Gələcəklə bağlı bədbin deyiləm. Sadəcə narahatam. Ölkəmi firavan, xalqımı xoşbəxt, Qarabağı azad görmək istəyirəm.

***- Reallaşdıra bilmədiyiniz ən böyük arzunuz... deyə soruşsam?***

- İnsan 500 il də yaşasa, yenə reallaşdıra bilmədiyi arzularla üz-üzə qalacaq.

***- Özünüzə tez-tezmi hesabat verirsiz? Elədirsə, daha çox hansı məqamlarda özünüzü tənqid edirsiz?***

- Özümlə danışmağa vaxtım olmur. Tənqid olunacaq qədər də xəta etdiyimi düşünmürəm.

***- Və sonda... Mən bu qədər sual verdim. Bəs 45 yaşlı Azər Ayxana özünün vermək istədiyiniz sual hansıdır?***

- Bu suala 50 yaşda cavab versəm olar? Allah qismət eləsə, 5 il sonra görüşərik...

❑ **Sevinc TELMANQIZI**

# ABŞ təşkilatlarının ölkədən getməsi Azərbaycanın xeyrinədirmi...

## Ölkədən gedən Qərb və Avropa institutlarının yerini hansı qüvvələr tuta bilər?

**2009-cu ildən sonrakı illərdə Azərbaycanda fəaliyyəti dayandırılan ABŞ təşkilatlarının sırasına məşhur Beynəlxalq İnkişaf Agentliyi (USAİD) də daxil olacaq. USAİD ABŞ hökumətinin xarici yardım üzrə agentliyidir. Uzun illərdir Azərbaycanda da fəaliyyət göstərən USAİD-in Azərbaycanda fəaliyyətinin dayandırılacağı barədə xəbərlər yayılıb. Məlumatlarda deyilir ki, ABŞ hökuməti USAİD-in büdcəsinin 12 milyard dollar (31 faiz) kəsilməsini nəzərdə tutub. Nəticədə bir sıra ölkələrdə, o cümlədən Azərbaycanda bu təşkilatın fəaliyyəti dayandırılacaq.**

Qeyd edək ki, ABŞ-ın Milli Demokratiya İnstitutu (MDİ), Beynəlxalq Respublikaçılar İnstitutu kimi demokratiyaya, vətəndaş cəmiyyətinin inkişafına yardım edən təşkilatları da son 5-6 ildə ya özləri fəaliyyətlərini dayandırmaq məcburiyyətində qalıblar, ya Azərbaycan hökuməti onların Bakı ofislərinin fəaliyyətini dayandırıb. Bu qurumlar ölkəmizi tərk ediblər. İndi isə belə görünür ki, USAİD Azərbaycandan çıxmalı olacaq.

**Hazırda Azərbaycanda 6 Amerika Mərkəzi fəaliyyət göstərir.** Lakin bu Mərkəzlər Milli Demokratiya İnstitutu, Beynəlxalq Respublikaçılar İnstitutu, USAİD kimi təşkilatlardan fərqlidirlər, profilləri tamamilə başqadır, vətəndaş cəmiyyətinin, demokratiyanın inkişafı kimi məsələlərə yardım etmirlər. Amerika Mərkəzi ABŞ Səfirliyi və yerləşdiyi yerli müəssisə arasında mövcud olan tərəfdaşlıqdır. Amerika Mərkəzlərinin məqsədi Azərbaycan ictimaiyyətini Amerika, onun tarixi, mədəniyyəti, xarici və daxili siyasəti haqqında maarifləndirmək və Azərbaycanla ABŞ arasında qarşılıqlı anlaşmanın gücləndirilməsidir. Paytaxt Bakıda xidmət göstərən Amerika Mərkəzi Amerika ilə maraqlanan hər bir şəxs üçün əsas bilik mənbəyidir. Mərkəzin zəngin Amerika kitabxanası ilə yanaşı, ABŞ-da təhsil almaq istəyənlər üçün müxtəlif çeşidli resurslar, habelə ABŞ ictimaiyyəti və mədəniyyəti haqda geniş kitab və dövri mətbuat toplusu da mövcuddur. Bundan əlavə, Mərkəzdə EBSCO, Jstor və s. kimi İnternet məlumat bazalarından da ödənişsiz istifadə etmək mümkündür. Mərkəz həmçinin həftəlik Amerikaşünaslıq kursları, danışıq klubları, film axşamları və bir çox başqa proqram və tədbirlər də təşkil edir. Eyni funksiyalara malik digər beş Amerika Mərkəzi isə Gəncə, Lənkaran, Xaçmaz, Salyan və Kürdəmirdə yerləşir.



Bu Mərkəzlərinin funksiyalarına diqqət yetirdikdə ABŞ-ın Azərbaycanda fəaliyyətini dayandırmalı olan və dayandıracağı gözənilən təşkilatlarının yerini tutmadığı bəlli olur.

*Bəs ABŞ-ın Azərbaycanda boş qalan yerlərini kim tuta bilər və Azərbaycan bundan qazanar, yoxsa itirər?*

**Beynəlxalq məsələlər üzrə ekspert Elşən Mustafayev** bildirdi ki, son illərdə ABŞ-ın Milli Demokratiya İnstitutunun, Beynəlxalq Respublikaçılar institutunun Azərbaycandakı fəaliyyətini dayandırmasının şahidi olmuşduq, USAİD-in bağlanacağı isə gözlənilmirdi. Bağlanan həmin institutlar Gürcüstandakı ofisləri vasitəsi ilə Cənubi Qafqaz layihələrinə Azərbaycandakı QHT-ləri də mütəmadi cəlb edirdilər. ABŞ beynəlxalq İnkişaf Agentliyi isə bir az fərqli təşkilatdır, 1961-ci ildə yaradılıb və ABŞ hökumətinin xarici yardım üzrə agentliyidir. Ölkələrdə müxtəlif sahələrdə iqtisadi inkişaf istiqamətində fəaliyyətlərə dəstək verir , eyni zamanda demokratik təsisatların formalaşmasına da xüsusi diqqət ayırır. Bu cür təşkilatların Azərbaycanda fəaliyyət göstərməməsi Azərbaycanın marağına uyğun deyil. Onların boş qalan yerlərini müxtəlif zərərli təmayüllü təşkilatlar, qurumlar başqa adlar altında tuta bilərlər: "Konkret olaraq USAİD-dən bu günə qədər çoxlu sayda yerli QHT-lər milyonlarla qrant alıb. Yeri gəlmişkən onların içində müxtəlif baxışlı QHT-lərlə yanaşı, hakimiyyətə yaxın təşkilatların sayı da çoxdur. Hətta Milli Məclis deputatları və onlara yaxın şəxslərin də QHT-ləri bu qurumdan böyük məbləğlərdə qrantlar alıblar".

**Ekspert qeyd etdi ki, böyük ehtimalla hal-hazırda söhbət USAİD-nin Azərbaycanda tamamilə bağlanmasından yox, büdcəsinin, fəaliyyət sferasının azaldılmasından gedir:** "ABŞ prezidenti bütövlükdə bu agentliyin büdcəsini təxminin 12 milyard dollar azaltmaq istəyir. Yaxın gələcəkdə bunun nə şəkildə reallaşacağını görə bilərik. ABŞ konqresində bu əlavələrin olunmasına qarşı olan ciddi qüvvələr mövcuddur. Con Makkeynin buna dərhal mənfi reaksiya verməsi də çox şeylərdən xəbər verir. Hesab edirəm ki , Trampın addımı seçkiöncəsi verdiyi vədlərdən növbətisini həyata keçirtmək cəhdlərinə hesablanıb. USAİD-in Azərbaycanda fəaliyyətinin tamamilə dayandırılması o demək olar ki, ABŞ Azərbaycanda bir sıra maraqlarından geri çəkilir. Düşünürəm ki, ABŞ Cənubi Qafqaz siyasətindən-əsasən də Gürcüstan və Azərbaycanla əməkdaşlıq maraqlarından imtina etməyəcək. Fəaliyyət istiqamətlərində müxtəlif rotasiyalar isə edə bilərlər. ABŞ institutlarının ölkədən getməsi Azərbaycanın da marağında olmamalıdır. ABŞ-ın boş qalan yerlərini tutmaq üçün fürsət gözləyən güclər kifayət qədərdir. Şimal qonşumuzun Cənubi Qafqazla bağlı planlarını da unutmamalıyıq. Böyük təhlükə buradan başlaya bilər".

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 101 (6715) 13 may 2017

**Azərbaycan prezidentinin ölkənin 1-ci vitse-prezidentini təyin etməsindən sonra müzakirə olunan məsələlərdən biri vitse-prezidentlərin kimlər olacağıdır. Vitse-prezident məsələsi ilə bağlı son iki gündə bir çox suallara yol açan maraqlı proses yaşandı. Belə ki, 1-ci vitse-prezident təyinatından cəmi bir gün sonra-fevralın 22-də saytlarda 23 fevralda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin fövqəladə sessiyasının çağırıldığı və muxtar respublikanın konstitusiyasına dəyişikliklər ediləcəyi xəbəri yayıldı.**

# ABŞ-dan Qarabağda müharibə xəbərdarlığı: reallıq, yoxsa...

## Hikmət Hacızadı: “Rusiya ilə Azərbaycan razılaşsa, Ermənistan isə rayonları qaytarmağa razı olmasa, müharibə olacaq”





**Elçin Mirzəbəyli:** “Müharibə haqqında məlumatlar insanlarda xof yaratmaq məqsədi də daşıya bilər”

Qarabağ cəbhəsində mövcud olan gərginliyin böyük savaş fazasına keçəcəyi barədə növbəti xəbərdarlıq ABŞ kəşfiyyatından gəlib. Ölkənin Milli Kəşfiyyat Agentliyinin dünyadakı risklər barədə hesabatında Qarabağa da yer ayrılıb. Sənəddə deyilir ki, tərəflərin kompromislərə getmək niyyətinin olmaması və ölkələr daxilində artan təzyiqlər bu il Azərbaycanla Ermənistan arasında Qarabağda tammiqyaslı hərbi əməliyyatlara gətirib çıxara bilər (Virtualaz.org).

Qeyd edək ki, sözügedən hesabat barədə RİA Novosti agentliyi də məlumat yayıb. Sənəddə “separatçı Dağlıq Qarabağ”dan bəhs olunması Azərbaycanın milli maraqları baxımından çox önəmlidir. Məsələ ondadır ki, bir neçə gündür ABŞ Senatının Gürcüstandakı separatçılarla bağlı sərt qərar verməsi müzakirə mövzusudur və Azərbaycan ərazilərinin işğalının arxa plana keçirilməsindən dolayı narazı mövqelər səslənir. ABŞ-ın ikili standartlarından bəhs olunması fonunda Milli Kəşfiyyat Agentliyinin Konqresə təqdim etdiyi hesabatda böyük müharibənin risklərindən danşılması, üstəlik, bu təhlükəni doğuran səbəblərdən biri kimi Dağlıq Qarabağdakı separatçı rejimin göstərilməsi ciddi məsələdir.

Bəzi ekspertlər Vaşinqtonun separatçılarla bağlı qəbul etdiyi son sənədin presedentə çevriləcəyini və bunun Azərbaycana da faydalı olacağını zənn edirdilər. Hər halda Agentliyin direktoru Daniel Koutsun təqdim etdiyi hesabatda “separatçı Dağlıq Qarabağ regionuna görə gərginlik”dən bəhs olunması ümidləri artırır.

Kəşfiyyatın müharibə xəbərdarlığına gəldikdə, ilk baxışdan bu, çox real görünür. Təkcə son günlərin müşahidələri Ermənistanın Azərbaycanı savaşa çəkdiyindən xəbər verir. Torpaqların işğalına son vermək istəməyən, üstəlik, həyasızcasına digər ərazilərimizi işğalla hədələyən düşmənlə danışıqların masa ətrafında davamının perspektiv üçün faydası görünmür.

**Politoloq Hikmət Hacızadə** də hesab edir ki, ABŞ kəşfiyyatının xəbərdarlığının reallığı əks etdirməsi mümkündür: “Əgər Rusiya ilə Azərbaycan razılaşsa, Ermənistan isə ətraf rayonların qaytarılmasına razı olmasa, onda müharibə olacaq. Azərbaycan Ermənistanla toqquşa bilər və o zaman Rusiya savaşa qarışmayacaq”. Amma Rusiyanın davranışları, Azərbaycana yönəlik təhdidləri, separatçılara meydan verməsi Bakı ilə razılaşmadan xəbər vermir. H.Hacəzadə hesab edir ki, pərdə arxasında situasiya başqa cür də ola bilər: “Hər şey məxfiləşdirilib. Danışıqlar gizli gedir. Ola bilər ki, əslində Bakı ilə Moskva arasında göründüyü qədər gərginlik olmasın”.

Yayılan digər məlumatlar da Tramp administrasiyasının Qarabağdakı gərginliyə heç də biganə olmadığı təsəvvürünü yaradır. Deməli, ABŞ kəşfiyyat Agentliyinin savaş xəbərdarlığı əbəs deyil.

“Rusiya xarici işlər naziri Sergey Lavrovla Vaşinqtonda görüş Moskvaya özünü yaxşı apardığına görə verilən mükafat deyil, əksinə, Yaxın Şərq, Koreya yarımadasındakı böhranlar və Ukrayna, həmçinin Qarabağda olan toqquşmalardan doğan zərurətdir”. Bu fikirlər isə **“National İnterest” qəzetinin redaktoru Nikolas Qvozdev**in məqaləsində yer alıb (Axar.az). Qvozdev görüşün səbəblərinə diqqəti yönəltmək əvəzinə ABŞ siyasi elitasının Trampın Kremlin oyuncağı olması və Trampın Rusiyanı XİN rəhbərinin səfəri ilə mükafatlandırması məsələlərini müzakirə etdiyini vurğulayıb: “Son həftələr ərzində Putin Almaniya kansleri Angela Merkel, Yaponiya Baş naziri Sindzo Abe, Türkiyə Baş naziri Rəcəb Tayyib Ərdoğanla vacib görüşlər keçirir. Üstəlik, Rusiya rəhbərliyi ilə Suriyada təhlükəsiz zonaların yaradılması planı reallaşdırılmağa başlanıb. Həmçinin Cənubi Koreyada yeni prezident seçilib və mümkündür ki, Seul Moskvaya Pxenyanla probleminin həlli üçün müraciət etsin. Ukraynada isə situasiya qeyri-stabil qalmaqda davam edir, eləcə də Dağlıq Qarabağda azərbaycanlılarla ermənilər arasında daha bir gərginlik perspektivi var”.

**Politoloq Elçin Mirzəbəyli**nin isə məsələyə fərqli baxışı var: “Azərbaycan mətbuatında ABŞ kəşfiyyatının müharibə ”xəbərdarlığı" ilə bağlı məlumatlar tez-tez yer alır. Öncə onu qeyd edim ki, əgər bütün bunlar həqiqətən də ABŞ kəşfiyyatının məlumatlarıdırsa, o zaman Azərbaycan mətbuatının və yaxud hər hansı bir ölkənin KİV-nin bu məlumatlardan xəbər tutması mümkün deyil. Belə məlumatlar adətən ictimai rəyin öyrənilməsi, yaxud yönləndirilməsi məqsədilə açıqlanır. Kəşfiyyata istinadən açıqlanan və təkzib olunmayan məlumatlar əksər hallarda dezinformasiya xarakterli olur və konkret tərəfin maraqlarını ifadə edir. Bu baxımdan da məlumatın ABŞ kəşfiyyatı tərəfindən açıqlandığı inandırıcı deyil".

**Ekspertin sözlərinə görə, belə məlumatların açıqlanması düşmən tərəfin, yaxud bölgədə maraqları olan digər güclərin də marağında ola bilər:** “Hazırda Bakıda mühüm beynəlxalq tədbir keçirilir. Müharibə haqqında məlumatlar insanlarda xof yaratmaq məqsədi də daşıya bilər. Qarabağda müharibə ehtimalına gəldikdə isə bu hər zaman var. Nə qədər ki, işğala son qoyulmayıb, müharibə təhlükəsi hər zaman olacaq. Bunun üçün ABŞ kəşfiyyatına istinad etməyə ehtiyac yoxdur”.

❑ E.PAŞASOY

# Amerika siyasətinin Trampa qarşı gizli “silahı”

## Seçkilərdən ötən 6 ayda yeni prezident əleyhinə iki gizli istintaq başladılıb; FTB rəhbərini işdən qovan ABŞ prezidenti məxfi istintaq kabusundan xilas ola biləcəkmi?..



**ABŞ prezidenti Donald Tramp bildirib ki, Federal Təhqiqatlar Bürosu (FTB) onun barəsində araşdırma aparmır. BBC-nin məlumatına görə, prezident çərşənbə günü işdən azad etdiyi FTB direktoru Ceyms Komini “özünüreklam edən” və “ədabaz” adlandırıb. NBC News kanalına müsahibəsində Tramp Komini işdən çıxarmaq qərarının ona məxsus olduğunu deyib.**

Qeyd edək ki, hələ mart ayında belə bir məlumat açıqlanmışdı ki, FTB Trampın seçki kampaniyası komandasının Rusiya ilə əlaqələri və Moskvanın ABŞ prezident seçkilərinə müdaxiləsi ilə bağlı iddiaları araşdırır. Ancaq Tramp bu iddiaları təkzib edib. O, deyib ki, FTB direktorundan istintaq nəzarəti altında olub-olmadığını soruşub. Sitat: “Dedim ki, mümkündürsə deyin, ”mənim barəmdə araşdırma aparılırmı?" O dedi ki, “yox, sizin barənizdə araşdırma aparılmır”.

Həmçinin Tramp bir daha təkrarlayıb ki, onun seçki kampaniyası ilə Rusiya arasında anlaşma olmayıb. O, bu barədə iddiaları “oyun” adlandırıb.

Xatırladaq ki, martın əvvəllərində FTB-nin iki gün əvvəl işdən çıxarılmış direktoru Komi bildirmişdi ki, Trampın Rusiya ilə əlaqələri qurum tərəfindən araşdırılır. Bu barədə o, kəşfiyyat dinləmələrində məlumat vermişdi. Bildirmişdi ki, FTB-də bu əlaqələrlə bağlı dosye və bu araşdırmanın Tramp komandasının Rusiya hakimiyyəti ilə hansısa əlaqəsinin olub-olmadığı, hər hansı cinayət əməlinə yol verilib-verilmədiyi araşdırılır.

Eyni dönəmdə CNN telekanalı ötən ilin payızında seçkilər zamanı Tramp və komandasının Rusiya ilə əlaqələrinin araşdırılması haqqında istintaq işinin dayandırılmadığı, əksinə, istintaqın gizli şəkildə davam etdiyini haqda xəbər yaymışdı. Xəbərdə istintaqı FTB-nin əks-kəşfiyyat idarəsi tərəfindən aparılır. Telekanalın istintaqa yaxın mənbələrdən əldə etdiyi məlumatlara görə, istintaq qrupu Trampın Rusiyanın Alfa Bankı ilə olan əlaqələrini araşdırır.

Maraqlıdır ki, eyni istintaq qrupu seçkilər zamanı Trampın seçilməsində rus xakerlərinin rolunun olub-olmadığını araşdırıb. İstintaqın Alfa Bank serverlərinin “Trump Organization”la çoxlu sayda bağlantı qurduğunu üzə çıxarsa da, ruslar bu bağlantının ikincidən gələn spamlar səbəbilə olduğunu iddia etmişdilər.

Bu məlumatlardan belə aydın olur ki, FTB iki dəfə Donald Trampla əlaqədar araşdırma aparıb. Birinci araşdırma seçkilər dönəmində, rus xakerlərin seçki prosesinə müdaxiləsi, Trampın qələbəsində rus xakerlərin rolu ilə bağlı iddialarla əlaqədar olub. Hətta bu araşdırmalar çərçivəsində Trampın bir neçə yaxın adamı, o cümlədən milli təhlükəsizlik üzrə müşaviri Flinn istefaya məcbur edilib. Hər nə qədər istintaq Trampa qarşı qəti ittihamlar irəli sürə bilməsə də, bu araşdırmalar Konqresin və dövlət bürokratiyasının yeni prezidentə təzyiq edərək yaxın ətrafından şübhəli adamların “təmizlənməsinə” xidmət edib.

İkinci iddia isə nisbətən sonrakı dövrdə, Trampın prezident seçilməsindən 4 ay, fəaliyyətə başlamasından 2 ay sonra gündəmə gəlib. Bu dəfə də istintaqçıların prezident və yaxın ətrafının Rusiya ilə bu dəfə iqtisadi sahədə əməkdaşlıq əlaqələrini araşdırdığı iddiaları gündəmə gəlib. Görünür bu sonuncu iddialar Trampı daha çox narahat edib.

FTB sədrinin işdən qovulmasında da ardıcıl iki istintaqın rolu olub. Məsələ ondadır ki, aprelin 7-də Tramp Suriya hökumət qüvvələrinin vurulması əmrini verdikdən və Şimali Koreyaya güc nümayiş etdirmək üçün bu ölkə sahillərinə hücum gəmiləri göndərdikdən sonra onun ABŞ-da və dünyada imici dəyişib. ABŞ prezidentinə qarşı tənqidlər də hiss olunacaq qədər yumşalıb. İndi isə prezident Tramp bu perioddan istifadə edərək ona narahatlıq və “təhlükə” vəd edən kadrları postlardan uzaqlaşdırır. Komi hər nə qədər Hillari Klintona qarşı istintaq başlatmaqla Trampın işini yüngülləşdirsə də, ardıcıl olaraq prezidentə qarşı iki gizli araşdırma aparması onu necə deyərlər, gözdən salıb. O qədər ki, prezident yola saldığı kadrı oyunbaz adlandırıb.

**Kominin istefası ilə bağlı maraqlı detal prezident Trampın işdən qovduğu FTB direktorundan ona qarşı hər hansı istintaqın aparılıb-aparılmadığını soruşması olub. Belə görünür ki, Tramp hələ də şübhəlidir və özünə qarşı gizli istintaqın aparılmasından narahatdır. Amma o da aydındır ki, bu gizli istintaq ləğv olunana bənzəmir. Çünki ötən 6 ayda iki gizli istintaq aparılan Trampın tamamilə “təmizə çıxdığını” və gizli araşdırmaların dayandığını düşünmək sadəlövhlük olardı. Görünən odur ki, Amerika dövlət bürokratiyası və siyasət nəhəngləri ipə-sapa yatmaz prezident üzərində təzyiq kartlarını qoruyub saxlayacaqlar.**

❑ Kənan RÖVŞƏNOĞLU

Yeni Müsavat
N 101 (6715) 13 may 2017

**"Yeni Müsavat"ın "Bizim qonaq" rubrikasında bu dəfə müsahibimiz daşınmaz əmlak bazarı üzrə ekspert Ramil Osmanlıdır. Onunla Azərbaycanda mənzil bazarının durumundan, özəlliklərindən, sosial mənzil və ipoteka şərtlərindən, daşınmaz əmlak bazarının investisiya imkanlarından danışdıq.**



# "Bəzi ailələrdə evi olmayan oğlana qız vermirlər"

## Ramil Osmanlı: "Sosial mənzillərlə bağlı şərtlər layihənin sosial mahiyyətini arxa plana keçirir"

**"Daşınmaz əmlak bazarında da investisiya cəlbediciliyinin artırılması üçün inhisarçılıq meylləri tamamilə aradan qaldırılmalıdır"**

***- Ramil bəy əvvəlcə istərdim özünüz haqqında məlumat verəsiniz. Bu sahəyə gəlişiniz necə oldu?***

- Tam təsadüf nəticəsində bu sahəyə gəlmişəm. Daha öncə daşınmaz əmlak bazarı ilə bağlı jurnalistika sahəsində fəaliyyət göstərirdim. O zaman Əmlak Bazarı İştirakçıları İctimai Birliyinin bir jurnalı var idi, mən həmin jurnala jurnalist kimi dəvət etdilər və orada işləməyə başladım. Artıq 3 aydan sonra jurnalistika fəaliyyətimə son qoydum və bu QHT-də fəaliyyət istiqaməti üzrə işlərin genişləndirilməsi ilə bağlı işlərə başladım. Təqribən 4-5 aydan sonra təşkilatın icraçı direktoru oldum. İki təhsilim var - biri iqtisadiyyat, digəri jurnalistika sahəsindədir. Təəssüflər olsun ki, o zaman müəyyən səbəblərdən təhsilimi davam etdirmək haqqında düşünə bilmədim. Düşünürəm ki, artıq təhsilimi davam etdirmək üçün gecdir, bu gün praktik sahədə fəaliyyət göstərməyim mənim üçün daha məqbuldur. Əsas fəaliyyətim artıq kommersiya fəaliyyəti sahəsindədir. Qiymətləndirmə Təşkilatının inkişafı üçün çalışıram. Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin Sədriyəm.

***- Azərbaycan daşınmaz əmlak bazarının digər ölkələrdən müsbət və mənfi mənada hansı özəllikləri var?***

- Müsbət mənada Avropa ölkələrindən, inkişaf etmiş bazarlardan fərqi odur ki, bizim bazar unikallığı ilə seçilir. Avropa insanı daşınmaz əmlaka ilkin investisiya mənbəyi kimi baxırsa, Azərbaycanda daşınmaz əmlaka baxış sığınacaq mənbəyidir. Bu da insanları məcbur edir ki, əmlak sahibi olsunlar. Bəzi ailələrdə evi olmayan oğlana qız vermirlər. Evsizlərə yuxarıdan aşağı bir baxış var.

Mənfi cəhətlərə gəlincə, Azərbaycan mənzil bazarı nəinki Avropa ölkələrindən, hətta MDB ölkələrindən də bəzi məsələlərdə geridə qalır. Azərbaycanda adambaşına düşən orta mənzil göstəricisi 18 kvadratmetrdir. Rusiya, Ukrayna, Qazaxıstan kimi ölkələrdə artıq bu rəqəm 30 kvadratmetrə yaxınlaşır, Avropa və Şərqi Avropa ölkələrində 35 kvadratmetrdən yuxarıdır. ABŞ və Kanadada, bir sıra inkişaf etmiş ölkələrdə bu rəqəm 40-45 arasında dəyişir. Azərbaycanda yüzlərlə ailələr var ki, adambaşına 10 kvadratmetr mənzil sahəsi düşmür. Bizim geri qalan cəhətlərimizdən biri də odur ki, ölkənin mənzil fondu əhalinin heç 70 faiz məskunlaşmasına da imkan vermir. Ona görə də yaşayış fondunun genişləndirilməsinə ciddi şəkildə ehtiyac var. Geri qalan cəhətlərimizdən biri ondan ibarətdir ki, Azərbaycanda daşınmaz əmlak bazarında 1 kvadratmetr üçün müəyyən olunan qiymətlər faktiki olaraq əhalinin alıcılıq qabiliyyətinə, ÜDM-ə, orta aylıq əmək haqqına və digər göstəricilərə qeyri-adekvatdır.

Eyni zamanda Azərbaycanda mülkiyyət hüquqlarının qorunması baxımından da çox ciddi problemlər var. Bu problemlər bu gün hətta hökumətin apardığı siyasətə çox ciddi zərbələr vurur. Bu gün Azərbaycanda investisiya cəlbediciliyinin aşağı düşməsində bu səbəblərin ciddi rolu var. İnsanların illərlə əziyyətlə qurduqları mənzil, zavod, fabrik hansısa hökumət qurumunun qərarı ilə bir gecədə sökülür və insanlara heç bir kompensasiya ödənilmir. Belə olan təqdirdə hətta nazirin özünün efirə çıxıb investor çağırması belə nəticə verməyəcək. Bu baxımdan hesab edirəm ki, biz Avropadan, hətta bir çox inkişaf etməkdə olan ölkələrdən geridəyik.

***- Hazırda ən aktual məsələ sosial evlərlə bağlıdır. Lakin bu mənzillərin əldə edilməsi üçün qoyulan şərtlərə baxsaq, yoxsul təbəqənin yenə kənarda qaldığını görürük. Faktiki olaraq orta həyat tərzi keçirən insanlara güzəşt tətbiq edilir... Şərtləri necə qiymətləndirirsiniz?***

- Daha öncə bu haqda müzakirələr gedərkən hesab edirdik ki, daha çox aztəminatlı və mənzilə ehtiyacı olan təbəqənin mənzil şəraitinin yaxşılaşdırılması istiqamətində atılacaq çox ciddi bir layihə olacaq. Bu gün də bu ümidlərimizi itirməmişik. Ancaq Sosial Mənzil Fondunun yaradılması, idarə edilməsi və onunla bağlı qəbul olunan qərarlar bu şərtlərə adekvat deyil. Daha çox bu gün də qüvvədə olan Sosial İpotekanın tələblərinə uyğundur. Bundan ötrü yeni bir fondun yaradılmasına, dövlət vəsaitlərinin sərf olunmasına ehtiyac yox idi. Bunu Sosial İpoteka formasında həyata keçirmək olardı. Ancaq artıq qərarlar qəbul olunub və buna uyğun işlər aparılır. Biz hələ də ümid edirik ki, sosial mənzillərdən istifadə edəcək ailələrin tərkibinə aztəminatlı təbəqə də daxil olacaq.

Mən hesab edirəm ki, sosial mənzillərin məhz gənc ailələrə verilməsi də ədalətli deyil. Çünki çox ağır iqtisadi və sosial şərtlər altında yaşayan 40-50 yaşına qədər mənzil sahibi olmayan insanlar var. Gənc ailələrin gələcəkdə ev almaq imkanları daha çoxdur, nəinki artıq yaşlaşmış, iş imkanlarını itirmiş belə ailələrin. Hesab edirik ki, bu diskriminasiya aradan qaldırılmalıdır.

***- Ramil müəllim, bir məsələ də var ki, güzəştli kateqoriyaya daxil olan insanların əksəriyyətinə hökumət ev imkanları yaradır. Məsələn, hərbçilərə ev verilir, idmanda uğur qazananlara ev ala biləcək qədər mükafat verilir. Onların bu kateqoriyaya daxil edilməsi, aztəminatlı ailələrə qarşı ədalətsizlik deyilmi?***

- Biz də əvvəl elə düşünürdük ki, bu evlər evsiz insanlara veriləcək. Ancaq şərtlərdən belə çıxır ki, bir-iki evi olan insanlar da yenidən güzəştli şərtlərlə sosial mənzil ala biləcəklər. Bu qərarlara yenidən baxılmalıdır. Bununla bağlı ciddi müzakirələr getməlidir. Hazırkı şərtlər bu layihənin sosial mahiyyətini arxa plana keçirir. Bu, artıq bir kommersiya layihəsidir və məqsəd pul qazanmaqdır. Sosial layihənin formatı tam fərqli olmalıdır. İndiki şərtlər bu formata uyğun deyil.

***- Hazırkı ipoteka şərtlərini necə qiymətləndirirsiniz?***

- Mövcud ipoteka şərtlərini normal hesab edirəm. Digər ölkələrin, MDB ölkələrinin qrafikinə baxsaq, ən optimal şərtlərdən biri Azərbaycandadır. Ancaq bu gün üçün İpoteka Fonduna dövlət tərəfindən ayrılan vəsaitlərin həcmi kifayət qədər aşağıdır. Bu fondun daşınmaz əmlak bazarına heç olmasa 20-30 faiz töhfə verməsi üçün il ərzində İpoteka Fonduna dövlət tərəfindən ayrılan vəsaitin həcmi fondun özünün də yerləşdirdiyi vəsaitlərlə birgə ən azı 250 min manatı ötməlidir. Ancaq bugünkü şərtlər buna uyğun deyil.

***- Daşınmaz əmlak bazarını yay aylarında nə gözləyir?***

- Biz artıq proqnozların üzərində dayanmalıyıq. Ancaq mən təəssüf edirəm ki, bəzi dostlarımız 1 il sonra ilə bağlı proqnozlar verirlər. Daşınmaz əmlak bazarında heç bir araşdırma aparmayan, heç bir fəaliyyəti olmayan insanlar da 6 ay sonra ilə bağlı proqnoz verirlər. Biz ictimai adamlar olduğumuz üçün verdiyimiz proqnozlar cəmiyyətdə qəbul olunur, bazara təsir edir. Mən hesab edirəm ki, hazırkı iqtisadi vəziyyətdə bu cür proqnozların verilməsi bazar üçün ziyanlı bir tendensiyadır. İndiki şərtlər çərçivəsində biz deyə bilmərik ki, 3-4 aydan sonra bazarda qiymət artımı baş verəcək. Çünki bunun üçün heç bir iqtisadi əsas yoxdur. Azalma ola bilər. Bunun üçün ehtimallar var. Ancaq qiymətlərdə 15 faiz azalma olacaq deyə proqnoz verib, potensial alıcıları da bazardan qaçırmaq düzgün deyil. Bazarın bir neçə formada iştirakçıları var. İnvestordan tutmuş reiltora qədər insanlar var ki, onlar bu sahədən pul qazanırlar. Bizim verdiyimiz hər bir proqnoz bu sahəyə təsir edir. Ancaq deyim ki, yay aylarında daşınmaz əmlak bazarında müsbətə və mənfiyə doğru əhəmiyyətli bir dəyişiklik gözlənilmir. 3-4 faizlik dəyişik ola bilər, ancaq ikirəqəmli dəyişiklikdən söhbət gedə bilməz.



**"Bu mənzillərin məhz gənc ailələrə verilməsi də ədalətli deyil, çünki çox ağır iqtisadi şərtlər altında yaşayan 40-50 yaşlı evi olmayan insanlar var"**

***- Bəs, mənzil bazarında hazırkı vəziyyət necədir?***

- Hazırkı vəziyyət kirtikdir. Alqı-satqı əməliyyatlarının sayında kəskin azalmalar var. Bazarda alıcılıq qabiliyyətinin aşağı düşdüyü bir dövrü yaşayırıq. Eyni zamanda bütün bu iqtisadi göstəricilərlə yanaşı bazara pul axınları da əhəmiyyətli dərəcədə azalıb. Bunun biri makroiqtisadi amillərlə bağlı olan səbəbdir, ikincisi isə daxili səbəblərdir. 2013-2014-cü illərdə hökumət təqribən ilyarımlıq müddət ərzində şəhərsalma və infrastruktur layihələrinə təqribən 4,7 milyard manat vəsait ayırmışdı. Bu, Azərbaycan bazarının 3 illik tutumuna bərabər bir rəqəmdir. Ona görə də ilyarım ərzində gözlənilməz bir halda daşınmaz əmlak bazarında qiymətlərin iki dəfəyə yaxın artımı qeydə alındı. Təbii ki. Biz bazara süni yollarla pul axınının sürətləndirilməsinin də tərəfdarı deyilik. Ancaq hesab edirik ki, bu gün Azərbaycanda investisiya cəlbediciliyinin artırılmasına ehtiyac var. Bu həm normativ hüquqi aktların dəyişdirilməsi, həm investorlara dövlət təminatının verilməsi, vergi güzəştlərinin tətbiqi və digər amillərdən asılı olan bir məsələdir. İndiki mərhələdə hökumət bu addımları atmalıdır.

***- Daşınmaz əmlaka yatırım etmək istəyənlərə nə tövsiyə edərdiniz?***

- Bu gün Azərbaycanda dövlət əmlakının özəlləşdirilməsi ilə bağlı üçüncü dövlət proqramı həyata keçirilir. Hesab edirəm ki, investisiya cəlbediciliyi baxımından bu proqram çərçivəsində çox normal bir şərait var. Yüzlərlə dövlət obyektləri özəlləşdirməyə çıxarılır. Qiymətləri də bazar qiymətlərinə yaxındır, çox münasib qiymətlərdir. Bu obyektlərin özəlləşdirilməsindən sonra işlədilməsi baxımından da heç bir problem yoxdur. Məsələn, kimsə kondisioner zavodu alırsa, məcbur deyil ki, kondisioner istehsal etsin. O zavodu alıb başqa profil üzrə də fəaliyyətə başlaya bilər. Digər tərəfdən hesab edirəm ki, torpaq sahələrinin də çox ucuzlaşdığı bir ərəfədədir. Torpaq almaq üçün normal şərait yaranıb. Azərbaycan da investisiya cəlbediciliyinin artırılması üçün bəzi inhisarçılıq meylləri tamamilə aradan qaldırılmalıdır. Çünki inhisarçılıq rəqabət imkanlarını və bu sahəyə marağı azaldır. Nə qədər ki, bazarda risklər var, investisiya cəlbediciliyi baxımından normal hal deyil. Cənab prezidentin çıxışında da biz eşitmişik ki, ayrı-ayrı dövlət məmurlarına çağırışlar edib. Bu cür halların aradan qaldırılması ilə bağlı qərarlar verib. Ancaq təəssüf ki, o cür çıxışların qarşılığında atılan addımların müsbət nəticə verdiyini deyə bilmirik. Azərbaycan daşınmaz əmlak bazarında elə bir şərait yaradılmalıdır ki, nəinki yerli, hətta xarici investorlar bu bazara axın etsinlər. Gürcüstan bazarına investisiya qoyuluşundan Azərbaycanlılar birinci yerdədirlər. Bu da həmin ölkədə investisiya şəraitinin normal olmasından irəli gəlir. Azərbaycan biznes hesabatında daşınmaz əmlakın qeydiyyatına görə yaxşı yerlərdəyik. Ancaq təəssüflər olsun ki, investisiya mühitinin yaxşılaşdırılması baxımından sonuncu yerlərdən birini tutur. Halbuki investisiya dövlətin ayaqda qalması, iqtisadi problemlərin daxili resurslar hesabına aradan qaldırılması, ölkəyə valyuta daxilolmalarının artırılması, iş yerlərinin yaradılması, əhalinin rifahının yaxşılaşdırılması baxımından əhəmiyyətli məsələdir. Ona görə də hökumət bunun üzərində daha ciddi dayanmalıdır, nəinki digər məsələlərin...

❑ **Nərgiz LİFTİYEVA**
❑ **Foto: İlkin ZƏFƏRLİ**

YENİ MÜSAVAT
N 101 (6715) 13 may 2017



# Faktların araşdırılması üçün milli üsullar

Zamin HACI
zaminhaci@gmail.com

**Bu gün mayın 13-üdür, özü də ilin beşinci ayıdır. Ayın 13-ü 5-ci aya düşəndə bunun şeytani əlaməti vardır, özünüzü xilas etmək istəyirsinizsə bu yazının müəllifinə mütləq nəzir verməlisiniz.**

Zarafat edirəm, oxucularımdan oxumaqdan başqa təmənnam yoxdur. Özü də ölkəmizdə İslam Oyunları keçirilən bu müqəddəs günlərdə bizə heç yaraşmaz nəzir yığaq. Həmin işlərlə məşğul olmaq üçün, AzTV demiş, "müvafiq orqanlar" vardır. Sözgəlişi, dünən oyunların açılışı Şamaxı rəsədxanasının elmi məlumatları əsasında baş tutmuşdur. Çünki islami məsələdə gərək Ay görünə, sən də tədbirə başlayasan, əks halda imansız hərəkətdir, adamı cəhənnəmdə SOCAR-ın çəkdiyi qaz xətti üzərində qoyulan qır qazanında yandırarlar.

Uzun sözün qısası, dünən hava görünməmiş dərəcədə buludlu, yağışlı, soyuq keçirdi. Ümumiyyətlə, fikir versəniz bizdə hər iş tərsəməzhəbdir. Avropa Oyunları başlayanda camaat istidən qırılırdı, İslam Oyunlarında isə soyuqdan donuruq. Halbuki, tərsinə olmalı idi - iqlim temaya uyğun gəlməliydi. Hələ adam sevinir nə yaxşı Afrika Oyunlarını da biz keçirmirik, yoxsa donub ölərdik, qəbrimiz üstündə pinqvinlər sarı xətt çəkərdi.

Bir cümlə ilə "13 mayda Ay görünmürdü, o üzdən İslam Oyunlarının açılışı dinə uyğun olmadı" yazmaq əvəzinə söhbəti qırsaqqız edib uzatmağa publisistik korrupsiya deyilir. Təzə kəşfimdir, Cahangir müəllimi BDU jurfakında dekanlıqdan çıxartmasaydılar bu terminə lisenziya ala bilərdim, yazıqlar olsun...

Ancaq yaxşı haldır ki, respublikamızda hər kəsin dolanması üçün lazımlı şərait yaradılıbdır. İstəyirsən QHT sədri olub agentlik elə, istəyirsən qəzet açıb adam sat. Bunlar MTN məhkəməsində təzəcə üzə çıxan bəzi iş yerləridir. Yaxşı da pul verirmişlər - təsəvvür elə, qotur bir QHT sədrliyi üçün ayda 2000 manat maaş... Bəlkə heç "Mossad" öz agentlərinə o qədər pul tökmür. Düzdür, ehtimal var ki, Eldar müəllimin idarəsi bu maaşları kağız üzərində şişirdib dövlət büdcəsini sümürürmüş, əslində agentə daha az pul çatırmış, ancaq əsas dövlətçilikdir! Əsas odur bəziləri kimi xaricə satılmayasan, öz dövlətinə satılasan. Azərbaycanlı cinayətkar xarici mələkdən də üstündür! Çünki onun damarlarında azərbaycanlı qanı axır, öz millətimizi təmsil edir, rüşvəti üçrəngli bayrağımızın altında alır! Yenə bunlar yeyib doyublar. Başqa yerə aparmırlar ki, tikdikləri hamısı burda qalacaq. Öləndə o boyda Stiv Cobsu bir corabda basdırdılar. Kişi vəsiyyət eləyibmiş qəbrimə "Ayfon" zaryadkası qoyarsınız...

Gərək soyğunçuluğu da halallıqla edəsən, nəsə bir işə yarayasan. Hələ apreldə adının çəkilməsini istəməyən bir oxucumdan (təəssüf ki, belə oxucularımız da vardır, halbuki adı çəkilən hər bir oxucumuza gələcəkdə Neft Fondundan "Şahdəniz" qazı doldurulmuş pulsuz şar hədiyyəsi nəzərdə tutulur) məktub aldım: "Hər gün günortalar işimin yaxınlığında çörək yediyim kafe var. Bir nəfər girdi içəri, əlində də təlqəli şəkildə qovluq kimi bükülmüş qəzet vardı. Qəzeti qəsdən elə tutmuşdu "Korrupsiya" başlığı açıq oxunsun. Müdirlə görüşdülər, sonra müdir mənə bir qəbz göstərdi, dedi bu adam hər dəfə gəlir, 20 manat alır, gedir, bu qəbzi də verir. Özü də tapşırır ki, vergidən başqa kim gəlsə mənə zəng edin, onları qovaram".

Oxucu məktuba həmin tipin verdiyi qəbzi də əlavə etmişdi, bu, olduqca məzəli bir kağız idi. Üstündə "Fakt araşdırıcı-N" MMC adlı naməlum qrupun adı yazılan qəbzdə həqiqətən kafedən 20 manat alınması təsdiq olunur! Nəyin əvəzində, bu yoxdur. Uca milləti soymaq üçün maraqlı üsuldur. Rüşvət əvəzinə qəbz verirlər - gömrükçü Tahir Əliyevin goru çatlasın... Ancaq ən maraqlısı isə odur ki, hələ 2015-ci ildə prokurorluq bu "Fakt araşdırıcı-N" adlı fırıldaqçı dəstənin dükan-bazarı, kafe-restoranları aldadıb soyması haqda məlumat yaymışdı. Mənə göndərilən "qəbz" fotosunda isə tarix 4 aprel, 2017-ci il göstərilib. Deməli lotular hələ də iş başındadır. Yaqin prokurorluğu da qəbzlə qorxudublar.

**Sonda yol polisinin məlumatını nəzərinizə çatdırıram: "İslam Oyunları vaxtı sarı xətti keçən sürücülər o dünyada qıl körpüsündən adlaya bilməyəcəkdir".**

**Qəzetimizin dünənki sayında İranda məkrli anti-Azərbaycan çevrələrinin hazırladığı plan barədə məlumat vermişik. Söhbət təkcə Güney Azərbaycana qarşı deyil, həm də müstəqil Azərbaycan Respublikasına və qardaş Türkiyəyə qarşı hazırlanan bəd niyyətli ssenaridən gedir. Əsas hədəf də Güney amilini zəiflədib sıradan və gündəmdən çıxarmaq, habelə iki qardaş ölkədə etnik qarşıdurma hesabına daxili çaxnaşmalar yaratmaqdır.**

# Bakı təhdidlərə qarşı: İran təbliğat savaşında uduzur - yeni gəlişmə

## Tehran ənənəvi Ermənistan siyasətini dəyişməyincə, Azərbaycanda ona münasibət dəyişməyəcək; politoloq: "Səudiyyə Ərəbistanı ona görə Azərbaycanda İrandan önə keçməyə başlayıb ki..."



Əslində İrandan ölkəmizə, Türkiyə əleyhinə, türk toplumu əleyhinə belə planların hazırlanması təəccüblü deyil. İş ondadır ki, cənub qonşumuz, daha dəqiqi, İran fars rejimi nə Türkiyəyə, nə də Azərbaycana qarşı heç vaxt səmimi qonşuluq və dostluq münasibətlərində olmayıb. Çünki daima Türk faktorunu, Türkiyəni, 26 ildir isə həm də müstəqil Azərbaycan dövlətinin varlığını özünə təhlükə hesab edib və edir. Ən azından, Türkiyəni və Azərbaycanı rəqib qismində görür - bunu rəsmən bəyan eləməsə də.

Dağlıq Qarabağ və Suriya məsələsində bu ziddiyyətlər, Türkiyə və Azərbaycana qarşı qeyri-səmimi münasibət bütün çılpaqlığı ilə ortadadır. Rəsmi Tehran Suriyada yüz minlərlə dinc sakinin, uşağın qətlinə baiskar olan diktator Bəşər Əsədin yanındadırsa, ona hər cür dəstək verirsə və tək səbəb də Bəşər Əsədin ələvi olmasıdırsa, Türkiyə və beynəlxalq birlik tam əksinə, insanlıq naminə bu zalımın tezliklə hakimiyyətdən uzaqlaşdırılmasına çalışır.

Qarabağ münaqişəsi yaranandan bəri isə İran işğalçı Ermənistanın yanında qərar tutub, müsəlman Azərbaycan dövlətinin 20% ərazisini işğal eləmiş, bir milyondan çox müsəlman-şiəni öz dədə-baba yurdundan didərgin salmış Ermənistanın ayaqda qalması üçün hər şeyi edir. Bununla da faktiki surətdə işğal rejiminin uzanmasına yardımçı olur.

***

Əlbəttə ki, mövcud ziddiyyətlərdə din (məzhəb) amili də mühüm rol oynayır. Belə ki, İran illərdir hər vəchlə bu faktordan istifadə edib Azərbaycan toplumuna təsir rıçaqlarını saxlamağa və gücləndirməyə, Azərbaycan cəmiyyətinə Türkiyənin təsirlərini zəiflətməyə səy edir. Bundan ötrü böyük paralar xərcləməyi məqbul sayır.

Amma bunlar yenə kifayət eləmir. Ona görə ki, ələhəzrət reallıqlar başqa şeyi deyir və İran fars rejiminin təbliğat maşınına qarşı işləyir. Biri elə İranın işğalçı Ermənistana hər cür kömək eləməsi, onu ayaqda saxlaması. Prezident Həsən Ruhaninin ötən ilin dekabrında Ermənistana səfəri də məhz elə bunun anonsu idi ki, cənub qonşumuz - müsəlman-şiə İranı heç vaxt işğalçını darda qoymayacaq. Bunu nəinki Azərbaycandakı və Türkiyədəki müsəlmanlar, bütün müsəlmanlar dördü.

İndi zülmə-zillətə, işğalçıya, zalıma dəstək hara, İslam dəyərləri və insanlıq hara? Məgər islam əxlaq dini deyil? Əxlaq dinidir... Halbuki, qardaş və müsəlman Türkiyə, Pakistan, Özbəkistan, hətta Səudiyyə Ərəbistanı kimi ölkələr Ermənistanla bu günədək heç diplomatik əlaqələr belə qurmayıb, onu dövlət kimi tanımır.

Azərbaycan insanı, Azərbaycan vətəndaşı, azərbaycanlı qaçqın-köçkün şəksiz ki, ələhəzrət faktı görür, fakta inanır, nəinki Tehran rəsmilərinin gəlişigözəl sözlərinə. Azərbaycan insanı ona da şübhə etmir ki, əgər qonşu İran da işğalçı Ermənistana münasibətdə Türkiyə, Pakistan və Səudiyyə Ərəbistanı kimi sərt, ədalətli mövqe tutsaydı, Dağlıq Qarabağ ixtilafı çoxdan ədalətli həllini tapmışdı.

***

Belədirsə, məntiq diktə edir ki, İran əgər Azərbaycan dövlətində, Güneyli-Quzeyli Azərbaycan toplumunda hörmət-izzət, etimad yiyəsi olmaq istəyirsə, o zaman təcili şəkildə öz ənənəvi siyasətinə, Ermənistan siyasətinə düzəlişlər etməlidir. Etməyəcəksə, Azərbaycan ictimai fikrində və şüurunda İran amili tənəzzülə uğramaqda davam edəcək.

Bu da isti fakt. Söhbət Azərbaycana təsirlər məsələsində cənub qonşumuzun getdikcə zəifləyən mövqeyindən gedir. Bu xüsusda politoloq, "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlunun son qeydləri diqqət çəkir.

"Səudiyyə Ərəbistanı ilə İran islam aləminin iki əsas rəqib dövlətidir (Həm də Suriya məsələsində - red.). Hər iki dövlət Azərbaycanla sıx əlaqələr qurmağa çalışır. Səudiyyə Ərəbistanı Azərbaycanla münasibətlərdə getdikcə daha üstün mövqeyə çıxır. Birincisi, bu ölkə Ərəbistanı İrandan fərqli olaraq həm sözdə, həm də əməldə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir, işğalçı Ermənistanla diplomatik münasibətləri yoxdur. Az qala, Bakıya hər ay Səudiyyə Ərəbistanının hansısa naziri gələrək Azərbaycan prezidenti ilə geniş fikir mübadiləsi aparır. Azərbaycana gələn turistlərin sayında da ərəb ölkələri liderliyi ələ keçiriblər, Bakının mərkəzində ərəb dili ənənəvi rus dilini sıxışdırır".

***

Şübhə yox ki, bu tendensiya Tehranda da ciddi şəkildə izlənir. Fəqət, belə duruma görə nə Azərbaycan, nə də Səudiyyə Ərəbistanı günahkardır. Günahı İran ən əvvəl özündə axtarmalıdır. Çünki möhkəm və etibarlı dostluq-qonşuluq münasibətlərinin qurulması üçün təkcə ortaq dəyərlər kifayət deyil, ortaq maraqlar da zəruridir.

**İran isə həm müştərək dəyərlər, həm də müştərək maraqlar baxımından Azərbaycana doğma ola bilmir. Ona görə ki, eyni vaxtda işğalçı Ermənistanın və Azərbaycanın dostu olmaq mümkün deyil. Keşkə, bu sadə həqiqəti İranın siyasi və dini rəhbərliyi nəhayət ki, ciddiyə alaydı - əgər gerçəkdən də Azərbaycana, Azərbaycan toplumuna dost olmaq istəyirsə...**

❑ Siyasət şöbəsi

**Son günlər Rusiya ilə rəsmi Bakı arasında münasibətlərdə gərginlik sezilməkdədir. Doğrudur, bu, hələ ki diplomatik səviyyədə hiss olunmur, Azərbaycan hakimiyyəti həmişəki kimi soyuqqanlılığını saxlamadadır. Kremlin addımlarında Azərbaycan açıq hədəf olmasa da, Rusiya hakimiyyətinin son addımlarının rəsmi Bakıya yönəlməsinin konturlarını gizlətmək də mümkün deyil. Xüsusilə Rusiya vətəndaşlığı olan blogger Aleksandr Lapşinin həbs edilib Bakıda dustaq edilməsindən sonra Kreml sanki hər fürsətdə Azərbaycanı incidəcək addımları bir-bir sıralamaqdadır. Az qala hər gün ya Kremldən, ya Rusiya XİN-dən Lapşin məsələsi ilə bağlı açıqlama verilir və Azərbaycan qanunlarını pozduğu üçün cinayət işi açılan Lapşinin həbsindən narazılıqlarını dilə gətirməkdədirlər. Bu məsələdə Azərbaycanın dövlət başçısı İlham Əliyevin prinsipial mövqeyi həlledici rol oynadığından Rusiya hakimiyyəti də rəsmi Bakının əsəblərinin həssas nöqtələrini yoxlamaqdadır.**




# İqtidar deputatı Moskvaya danışıqlara göndərdi - anti-Azərbaycan qüvvələr Putinə qarşı

## Rusiyanın hərbi çevrələrinin və erməni diasporunun təsiri altında olan dairələr Azərbaycana qarşı addımları davam etdirir; parlamentin komissiya sədri Moskvaya elə bir qərar ərəfəsində getdi ki...

Rusiya Ədliyyə Nazirliyinin Ümumrusiya Azərbaycan Konqresinin (ÜAK) qeydiyyatının ləğvinə dair gözlənilmədən iddia qaldırması, Ermənistandakı 102-ci hərbi bazasını genişləndirmək qərarı, Qızıl meydandakı qələbə paradında qondarma Dağlıq Qarabağın "bayraqları"nın dalğalanması və bubna etiraz edən azərbaycanlıların rus polisi tərəfindən saxlanılması son bir ayda Krem hakimiyyətinin anti-Azərbaycan siyasətinin görünən tərəfləridir. İddialara görə, Rusiya diplomatik kanallarla da təzyiqləri artırıb. Azərbaycan hakimiyyətinin bu təzyiqləri önləmək üçün atdığı düzgün siyasət-Rusiya siyasi çevrələrində tanınmış politoloqları Bakıya dəvət etməsi də iddialara görə, Kreml isteblişmentinin yuxusunu qaçırıb. Məsələ ondadır ki, Rusiya isteblişmentində hazırda parçalanmalar var. Rusiyanın hərbi çevrələrinin və erməni diasporasının təsiri altında olan dairələr Azərbaycana qarşı addımların əsas hərəkətverici qüvvələridir. Şərti olaraq "Putinçi" adlandıra biləcəyimiz dairələr isə Azərbaycanla strateji müttəfiqlik və dostluq münasibətləri istəyirlər. Təsadüfi deyil ki, ötən ay Bakıda səfərdə olan jurnalist Vladimir Solovyev prezident İlham Əliyevlə görüşünün təfərrüatı barədə danışarkən çox maraqlı bir fakta toxunmuşdu. Bakıda olan jurnalist "biz prezident İlham Əliyevlə Rusiya ilə Azərbaycan arasındakı əməkdaşlıqdan danışanda mən dedim ki, Rusiya Azərbaycanı heç vaxt satmaz. O, etiraz etdi və bildirdi ki, Putin heç vaxt satmaz". Yəni bu fakt daha təsdiq edir ki, Putin və ona sadiq dairələr Azərbaycanla dostluğun, digərləri isə münasibətlərin gərginləşməsi tərəfdarı kimi çıxış edir. Amma Rusiyada 2018-ci il president seçkiləri müzakirələri artıq başlayıb və bu səbəbdən də hakimiyyətdəki qüvvələr arasında "mövqe döyüşləri" qızışmaqdadır. Rusiya prezidenti isə tərəfləri ortaq məxrəcə gətirmək, mürəkkəb beynəlxalq siyasi şəraitdə hakimiyyətdə parçalanmaları dərinləşdirməmək üçün açıq savaşdan çəkinir. Bu səbəbdən də Rusiyada anti-Azərbaycan qüvvələrin fəallaşması artmaqdadır və bu proses arzuolunmayan nəticələrə də gətirib çıxara bilər.

Mayın 12-də xəbər yayılıb ki, Rusiya Federasiyası Ali Məhkəməsində Rusiya Ədliyyə Nazirliyinin ÜAK qeydiyyatının ləğvinə dair təxirə salınan iddiasına gələn həftə baxacaq. APA-nın Rusiyadakı mənbələrdən əldə etdiyi məlumata görə isə məhkəmənin ÜAK-ın qeydiyyatının ləğv edilməsi ilə bağlı qərar çıxaracağı gözlənilir.

Yada salaq ki, Ədliyyə Nazirliyi ÜAK-ın fəaliyyətində Rusiya Federasiyasının qanunvericiliyinin pozulduğu iddia edir.

Azərbaycanda ÜAK-ın qeydiyyatının ləğvi ilə bağlı məhkəmə iddiası etiraza səbəb olub. Diaspor təşkilatları, ictimai-siyasi xadimlər, millət vəkilləri bunun iki ölkə arasındakı münasibətlərə mənfi təsir edəcəyini bildiriblər.

Bu məlumat təsdiqlənərsə, iki ölkə arasında gərginlik qaçılmaz olacaq. Çünki Bakıda hələ məhkəmə prosesindən əvvəl də Rusiyanın Azərbaycandakı ictimai birliklərinin də qeydiyyatının ləğv olunması barədə çağırışlar səslənib. Əgər mayın 15-də ÜAK-ın qeydiyyatı ləğv olunarsa, o halda Azərbaycan da belə sərt qərarlara məcbur edilə bilər. Bu isə erməni lobbiçilərinin və Rusiya-Azərbaycan əlaqələrini istəməyən qüvvələrin "dəyirmanına su tökər".

Rəsmi Bakıda yaranmış vəziyyətin fərqindədir və bu səbəbdən də təzyiqləri diplomatik yollarla tənzimləmək tərəfdarıdır.

**Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli** mayın 12-də Rusiyaya səfərə gedib. Məlumata görə, Ə. Hüseynli Rusiya Dövlət Dumasında Rusiya-Azərbaycan dostluq qrupunun üzvləri ilə görüş keçirəcək. Görüşdə parlamentlər arasında əlaqələrin möhkəmləndirilməsi, nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin əhəmiyyəti, qanun yaradıcılığı sahəsində təcrübə və informasiya mübadiləsi ilə bağlı məsələlər müzakirə olunacaq. Səfərin ÜAK-la bağlı gözlənilən məhkəmə ərəfəsində, eləcə də anti-Azərbaycan qüvvələrin fəallaşdığı vaxtda gerçəkləşməsinə təsadüf kimi qiymətləndirmək olmaz. Rəsmi Bakı nəinki Rusiya, düşmən ölkə Ermənistan istisna olmaqla qonşularla münasibətlərdə səmimi və dostluq münasibətlərinə üstünlük verir. YAP-ın üzvü, savadlı hüquqşünas olan Ə.Hüseynovun Moskvaya səfəri Rusiyanın siyasi dairələrini yenidən uyarmaq, bu kimi anti-Azərbaycan addımlarından hər iki ölkənin ziyan görəcəyin xəbərdarlığı etməyə hesablandığı şübhə doğurmur.

Rus icması da məsələ ilə bağlı narahatlığını ifadə edən bəyanat da yayıb.

**Görünən budur ki, iki ölkə arasında münasibətlər yenə çətin sınaq qarşısındadır və bu, gələcək münasibətlərin daha çox Rusiyanın verəcəyi qərarlardan asılıdır.**

❑ **"YM"**

# Putin olmasaydı, Rusiya necə olacaqdı?

## "Rusiya cəmiyyətinin əksər hissəsi ikinci Yekatirina və Stalin kimi Vladimir Putini də Rusiyanın xilaskarı sayır"



**Rusiya prezidenti Vladimir Putin dünyada ən populyar, haqqında ən çox yazılan lider statusunu hələ də qoruyub saxlayır. SSRİ dağıldıqdan sonra Rusiya Federasiyasının ikinci prezidenti olan Vladimir Putini bəziləri rus xalqının bəlası, bəziləri isə xilaskarı adlandırır. Bir çox ekspertlər isə Putinin yalnız bir məqsədinin olduğunu bildirirlər: böyük Rusiya yaratmaq və bu dövlətin başında durmaq. Onun bu məqsədi hər şeydə özünü göstərir-Çeçenistan hadisələri, Ukraynada baş verən kataklizmlər, qaz vasitəsilə manipulyasiya, İranla olan xüsusi münasibətlər, Türkiyə ilə münasibətlər, Avrasiya İttifaqı adlı "Yeni SSRİ" adlandırılan ittifaq qurması, Suriya məsələsində direnişi və digər böyük masştablı davranışları.**

KQB-nin keçmiş zabiti Vladimir Putin ilk dəfə 2000-ci ilin martında prezident seçildikdən sonra onun qarşısında duran əsas vəzifə Rusiyanı Boris Yeltsindən miras qalan hökumətin xaosundan xilas etmək idi. Ekspertlər hesab edir ki, onu seçən xalqın istəyi əvvəlki güclü dövləti bərpa etmək və onun milliliyini qorumaq idi.

Bəs, V.Putin bunu bacara bildimi? Putin Rusiya üçün kimdir? O, hakimiyyətə gəlməsəydi Rusiya necə olacaqdı? Onu I Pyotrla müqayisə edənlər haqlıdırmı?

**Politoloq Elxan Şahinoğlu** "Yeni Müsavat"a bildirdi ki, Rusiya sabit dövlət olmadığına görə bu ölkənin hər zaman xilaskarlara ehtiyacı olub. Ancaq bu xilaskarlar heç də hər zaman rus mənşəli olmayıblar. Məsələn, qanlar və müharibələr hesabına Rusiya imperiyasının imkanlarını artıran əsas iki əsas şəxs var: "Biri ikinci Yekatirina, ikinci isə Stalindir. Hər ikisi Rusiya imperiyası-sovetlər də imperiya olub-tarixində ən uzunmüddətli rejimlərin başında dayanıblar. Hər biri faktiki 30 il imperiyaya başçılıq edib, işğal etdikləri torpaqların miqyasını artırıblar. Maraqlısı odur ki, adını çəkdiyim iki şəxs rus mənşəli olmayıb, biri alman, digəri gürcü mənşəlidir. Buna baxmayaraq, hər ikisi Rusiya imperiyasının xidmətində dantlar töküblər, müharibələr aparıblar.

Rusiya cəmiyyətinin əksər hissəsi ikinci Yekatirina və Stalin kimi Vladimir Putini də Rusiyanın xilaskarı sayır. Bu yanaşmanı haradasa anlamaq olar. Çünki Putindən əvvəlki Boris Yeltsin Rusiyanı idarə edə bilmirdi, Çeçenistan faktiki Rusiyadan ayrılmış, ölkədə iqtisadi və sosial xaos hökm sürürdü. Səhhəti ağırlaşan Yeltsin Putini seçdi. Putinin ilk addımı Rusiyanın müstəqil və populyar televiziya kanalı olan NTV-nin sahibini dəyişməsi oldu. Bir sözlə Putin Yeltsindən fərqli olaraq demokratiya imkanlarını məhdudlaşdırmağa başladı. Çünki Putin dərk edirdi ki, rus cəmiyyətinə təsir etmək üçün özünə bağlı informasiya siyasəti formalaşdırmaq, tənqidi və alternativ xəbər və şərh medi-asının fəaliyyətini məhdudlaşdırmaq lazımdır. Putin Çeçenistanı da ram etdi. Düzdür, bu zaman on minlərlə günahsız insan həlak oldu. Ancaq Putin üçün önəmli nəticə idi. Nəticə isə bundan ibarət idi ki, Çeçenistanda böyük ölçüdə mücahidlər neytrallaşdırıldı, bölgədə rusperəst hakimiyyət quruldu. Putinin bəxti həm də onda gətirdi ki, hakimiyyətə gələn kimi neftin qiymətləri qalxdı və o maaşları, pensiyaları artıra bildi. Bu da insanların xoşuna gəldi".

**Politoloqun sözlərinə görə, etiraf edilməlidir ki, Putin hələ Rusiyada alternativsiz liderdir**: "Putin özü haqqında belə bir görüntü də yaradıb ki, o hakimiyyətdən getsə Rusiya dağıla bilər. Putin hazırda bütün rəy sorğularında liderdir, ona inananların sayı 60 faizdən aşağı düşmür. Bütün bunlara baxmayaraq, Putin ölkəsini dünyadan təcrid edib. Rusiyanın Gürcüstanın, ardından Ukraynanın torpaqlarını ilhaq etməsi Putinin əsl niyyətlərini ortaya qoydu. Hazırda ABŞ və Avropa ölkələri Rusiyaya qarşı sanksiyalarını davam etdirirlər və bu vəziyyət hələ uzun illər davam edəcək. Rusiyanın doğru-dürüst müttəfiqləri də yoxdur. Hətta iki ən yaxın müttəfiqi-Qazaxıstan və Belarus belə Putinin siyasətindən ehtiyat edir. Çünki bu iki dövlətin liderləri yaxşı anlayır ki, bir gün Putinin xoşuna gəlməsə Qazaxıstan və Belarusun da parçalanmasını hərəkətə gətirə bilər. Təsadüfi deyil ki, Putin "SSRİ-nin dağılması böyük facie idi" ifadəsini işlədib. Bu cür təcrid Putin Rusiyasına yaxşı heç nə vəd etmir. Çünki, ona qarşı olan böyük güclər "necə edək ki, Rusiyanı zəiflədək" planı üzərində işləyirlər. Bir dəfə bu plan əsasında SSRİ çökdü. Rusiya SSRİ-dən güclü dövlət deyil. Ona görə də Putin nə qədər özünə arxayın olsa, qarşısındakı güclərin birliyindən zəifdir".

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 101 (6715) 13 may 2017

**Səmərqəndin bilinən tarixi də, bəlli inciləri də, dürrləri də əsasən, Teymur və Teymurulərlə bağlıdır. Gur-Əmir - Əmir Teymurun dəfn edildiyi yer - Əmirin goru Orta Asiyanın ən ünlü ziyarətgahlarından biridir. 600 ildən çoxdur ki, bu məkana axın var. Dünyaya gəlmiş-getmiş ünlü hökmdarlar, görkəmli alimlər, şairlər, tacirlər, sufilər, dərvişlər... adı bilinən, bilinməyən kimlər... kimlər...**



Mehriban VƏZİR

# Əmir Teymurun sirli Yəşim Taxtı

## Stalin Teymurləngdən niyə qorxurmuş...



Kimlər burada olmayıb?

Bu məqbərə dəfələrlə tənəzzülə uğrayıb, zamanın sınaqlarında sarsılıb... suvağı, divarı uçub... himi, tiri, dirəyi çöküb... və yenidən dikəlib.

Çox ünlü hökmdarlar bu məqbərəni abadlaşdırmaq üçün külli miqdarda maya qoyub. Hətta, dinsiz, imansız Stalin belə məqbərənin bərpasına sovet büdcəsindən qorxunc vəsait xərcləyib. Elə bir miqdar ki, həmin vəsaitə altmış tank almaq olarmış. Özü də elə bir zamanda ki, bir medalyonun iki üzü olan sovetlərlə faşistlər müharibə edirdi.

Müharibəyə pul... pul... pul... lazımdır.

O zaman niyə? O dar macalda,1943-də, Əmir Teymur məqbərəsinin bərpasına səbəb nə idi?

Bilən bilir, bilməyən heç bilməsin, Stalin Əmir Teymurdan qorxmuş, onun ruhu qarşısında sarsılmışdı.

Gur-Əmirin son bərpa işləri isə İslam Kərimov dövrünə aiddir. Bu, konu qalsın, bu barədə uzun bir söhbətimiz olacaq.

Əmir Teymurun məzarının sirri barədə hər kəs bilir. Bu barədə çox yazılıb, çox deyilib. Ümumiyyətlə, Əmir Teymur haqqında o qədər yazılıb... Hətta adam əlinə qələm alıb söz açmaqdan qorxur. Əmir Teymur, Topal Teymur, Teymur Ləng, Axsaq Teymur, Tamerlan adları altında salnamələr, romanlar, pyeslər, monoqrafiyalar... Əmirə məhəbbətlər, nifrətlər... sayı-hesabı olmayan qədər yazılıb, deyilməyən nə qalıb ki sən də yazırsan... Amma belə deyil.

Bu konuda fikrim həm də budur; dünya durduqca Əmir Teymurdan yazılacaq, bəşərin nəfəsi gedib gəldikcə Uca Əmir öyrəniləcək... Lakin bu böyük insanın əsil mahiyyəti, şəxsi kimliyi, gizliləri, sirləri, xəzinələri sonadək açılmayacaq.

...Əmir Teymur ilə Çingiz xanın təbiətlərində və hərəkətlərində oxşarlıqlar vardır. Onların heç biri qurulu taxta çıxmayıb. Heç biri heç kimi devirməyib və ya hazır varislik almayıb. Öz taxtlarını özləri qurub, öz dövlətlərini, öz ordularını, öz iqtisadiyyatlarını, öz mədəniyyətlərini - öz sistemlərini özləri yaradıblar və dünyaya ağalıq etməyi sıfırdan - yoxsulluqdan, əsarətdən, tərk edilməkdən, məğlubiyyətlərdən və... yenilməz mərdlikdən başlayıblar.

Təbii ki, bu iki nəhəngi fərqləndirən cəhətlər də az deyil. O fərqlərdən biri də budur; yetim Çingizdən fərqli olaraq, tayfa başçısı Əmir Tarağayın oğlu Teymur yaxşı müəllimlərdən yaxşı dərs almışdı, böyük mürşidlərdən elm-irfan öyrənmişdi, yenilməz döyüşçülərin təlimləri ilə cəngavərlik məktəbi keçmişdi.

Kimsə onun kimi qılınc çala bilməz, kimsə onun kimi at belində savaşa bilməz, kimsə onun kimi elmin və sənətin qiymətini bilə bilməzdi. Eləcə də, kimsə onun kimi müharibələrin, dövlətlərin, hakimlərin, qəhrəmanların, millətlərin, tayfaların tarixini, tarixin coğrafiyasını, coğrafiyanın tarixini bilə bilməzdi.

Əmir alimlər ilə söhbət etməyi sevirdi. Dəməşqi işğal edən Teymurun həmin vaxt dövlət adamı İbn Xəldunla görüşü tarixə düşmüşdür. Çağdaş tarix elminin, sosiologiyanın, iqtisadiyyatın banilərindən sayılan, 14-cü əsr filosofu, dövlət xadimi İbn Xəldun Əmir Teymurun tarix biliklərinə təəccüblənmişdir.

...Hələ qapı ağzındayam. Hüzura girməyə ürəyim gəlmir. Nəhayət, Allah-Allah deyib Gur-Əmir qatına qədəm qoyuram. Girəcəkdə, mavi çadır altında sənduqə kimi iri, hamar, naxış cızılmış bir daş qoyulub. Əmir Teymurun saraylarından birindəki taxtı bu daşın üzərində qurulurmuş. O, bu daşın üstündə bardaş qurub oturur, fərmanlar verir, imperiya idarə edir, dünyanı yönləndirirdi.

Uca sayqı və körüklənmiş duyğu ilə Əmirin oturduğu bu daşı ötüb keçirəm.

Günbəzli odada yan-yana, baş-başa dayanmış doqquz məzar var. Bu məzarların səkkizi Əmir ailəsidir. Yan tərəfdəki tək məzar, doqquzuncu məzar Əmirin piri-mürşidi Seyyid Bərəkənin oğludur. Qan baxımından yad sayılan bu adam ailə məzarlığında dəfn edilib. Niyə? Yəqin bu da bir nişanədir. Seyyid Bərəkə Əmir üçün o qədər qiymətlidir ki, onun oğlu Əmirin oğulları, nəvələri, nəhayət özü ilə bir məqbərədə uyuyur.

Lakin məsələ bu yaxınlıqla bitmir. Əmir Teymurun zamanında, ondan əvvəl və sonra da belə bir inanc var ki, müqəddəslərin qəbri toxunulmazdır. Onların yatdığı yerə heç kəs, hətta düşmən belə əl uzatmaz. Uzadarsa, kimsə qudurub belə azğın fikrə düşərsə cəzasını Allahdan alar. Bu səbəbdən əliqanlı hökmdarlar öz şəcərələri ilə birgə böyük pirlərin, mürşidlərin, seyidlərin ayaqları altında dəfn olunmağı vəsiyyət edirdilər. Əslində isə bu müqəddəs məzarların arxasında barınırdılar. Düşməni çox olanlar bununla öz məzarlarını sığorta etməyə çalışır və edirdilər də.

*Bu səbəbdənmi Seyid Bərəkənin oğlu Teymur ailəsi ilə birgə uyuyur?* Yoxsa Əmir piri-mürşidinin oğlunu öz oğlu kimi bilirdi? Bilmirəm, düzünü Allah bilir.

Əmir Teymurun və 7 nəfər oğul və nəvələrinin qəbrini seyid məzarından kiçicik, mərmər bir çəpər ayırır. Seyidin qəbrinin böyrünə tuğ sancılıb. Tuğ, bu məzarda müqəddəs adam yatır mənasını anladır.

Əlbəttə, məlum ki, bu məqbərənin bu qatında olanlar rəmzi məzar daşlarıdır. Əsil qəbirlər eyni düzənlə məqbərənin zirzəmi qatındadır.

Əmirin rəmzi məzarının üzərində tünd yaşıl nefrit - yəşim daşı durur. O qədər yaşıldır ki, gözə qara görünür. Yəşim, zatən, qiymətli daşdır, bu boydası isə yəqin dünyanın nadir nüsxəsidir.

Deyirlər, Əmir bütün yürüyüşlərinə bu daşı özü ilə apararmış, səfərlərdə bu daş üzərində taxt qurdurar, üstündə bardaş qurar, bəzən isə elə oradaca uyuyub qalarmış.

*Əmir bu ağır yükü niyə özü ilə dünyanın o başından bu başına daşıyırdı?* Üç il, beş il, yeddi il çəkən səfərlər, min-min ağac yollar, susuz səhralar, xəncər kimi kəsən çovğunlar, nəfəs təntidən bürkülər... hələ tək bircə dəfəsində Toxtamışın ardıyca dörd ay sürünmələr... yorğun düşmüş ordu, tükənmiş azuqə...

Əmirin Yəşim Taxtının bir hekayəsini danışım bu yerdə; deyirlər, Nadir Şah Avşar Əmir Teymuru çox diqqətə alarmış, hətta özünü onunla qiyaslarmış. Onun fəthlərini, gedişlərini, yerdişlərini öyrənər, onun yerişini yeriyərmiş... Nadir şah öz şöhrətini Əmir qədər tarixə nəqş etmək üçün hətta Hindistana belə hücum çəkmişdi.

Nadir Teymurun adı dillərə dastan Yeşim Taxtı haqqında çox eşitmişdi.

Günlərin bir günü idi... Əmir Teymurun bu dünyaya gəlib getməsindən artıq 250 il keçirdi. Türküstan bizim Nadirin ayaqları altında qalmış, teymurilər taxtdan və gözdən düşmüşdü. Şöhrətinin zirvəsinə yetən Nadir şah Avşar bir gün hökm verir; Teymurun Yəşim Taxtı - o qiymətli və nəhəng nefrit daş hüzuruma gətirilsin.

Ləbbey. Gətirilir.

Nadir şah adına yaraşan dəbdəbədə törən qurur. Əyan, əşrəf, əsnaf, üləma dörd dövrəsini sarır. Qara qullar Əmir Teymurun Yəşim Taxtını təxti-rəvan içində hüzura gətirirlər. Sarayın ortasında düşürüb əlvan xalının üzərinə qoyurlar. Hər kəsin gözü Əmirin taxtına dikilir. Eyy gidi dünya!

Yaltaqlar bir-birinə aman vermir, mədhiyyələr deyilir, şahın ucalığından bəhs edilir; Şahım, o bir əmir idi, sən cahan şahısan! -deyə ulaşırlar. Nadir şah muradına yetmiş, əhdini almış bir təkəbbürlə Yəşim Taxta sarı yeriyir. Baxışlarında böyüklüyünün, yenilməzliyinin əzmi var. Üzünü Yəşim Taxta tutub Əmir Teymura səslənir;

- Ey qüdrətli Əmir Teymur! Bumudur sənin taxtı-rəvanın. Dünyanın bu başından o başına daşıdıb apardığın Yəşim Taxt? Eşit! İndi bu cahanın hökmdarı mənəm! Sənin taxtın mənim ayağımın altındadır!

Həşəmətli Nadir şah bu sözləri deyib yenilməz bir vüqarla ayağını Yəşim Taxta basır.

Həmin an Yəşim Taxt dəhşətli bir gurultu ilə parçalanır Bu partlayışdan sanki sarayın sütunları qopub başlara tökülür, günbəzlər, tağlar, himlər yerə enir, elə bil göy guruldayır, ildırım çaxır...

Şaşırmış Nadir heyrətlər içində geri çəkilir. Nə baş verdiyini anlamayan əyanlar, əşrəflər, əsnaflar, ülamalar... sarsılmış halda sarayın arxa divarlarına sığınırlar. Bəziləri heyrətdən diz çöküb səcdəyə qapanır, bəzilər əllərini göyə açıb Allahı imdada çağırır...

Nadir şah böyük təşviş və pərtlik içində pozulmuş törəni tərk edir.

Ertəsi gün Əmir Teymurun Yəşim Taxtı haqqında Nadir şah Avşarın ikinci fərmanı duyulur; Yəşim Taxt Səmərqəndə geri qaytarılsın və toxunulmaz elan edilsin.

Beləliklə, Əmirin Yəşim Taxtını gətirib Səmrəqəndə, dəfn edildiyi məqbərənin üst qatına, məzarının tuşuna qoyurlar.

Bu dastan dünyaya yayılır. Nadirdən sonra gəlib getmiş, Səmərqəndə sahib çıxmış, xəyallarında Uca Əmirlə bəhsə girmiş hakimi mütləqlərdən kimsə Yəşim Taxta əl uzatmağa cəsarət etmir.

Gur-Əmirdə dayanan o daşa diqqətlə baxın; bir necə yerdən sarsılıb, lakin yenidən calanaraq Əmirin xidmətinə geri dönüb.

*Əmir üçün Yəşim Taxtın dəyəri nədə idi? Maliyyətindəmi? Çox böyükdür, Yer üzündə misli yoxdur, dedik. Amma Əmirin sərvəti önündə bu nə qiymətdir ki... Bəlkə başqa bir səbəb...*

Yəşim daşının - nefritin özəlliyi çoxdur, Avropada ona bel daşı və ya böyrək daşı deyirlər. Kürəyi, beli, böyrəyi ağrıyanlar bu daşdan üzük, bilərzik, yaxalıq taxır. Orta Asiya - Türküstan xalqları bu daşı mərdlik rəmzi saymışlar. Mərdlikləri sarsılmasın deyə onu özləri ilə gəzdirmişlər. Uzaq Şərq xalqlarının inancına görə Yerdəki fövqəltəbi halları səmadan Nefrit imperatoru idarə edir, bu daşı sinəsində gəzdirənlər idarəetmədə cəsur və qorxmaz olur. Çinlilər nefriti evlərində paklığı qorumaq üçün saxlayırlar.

Daha nələr... daha gizlilər... yəşim aşırıya qaçan duyğuları dəngələyir... qəzəbi soyudur, ağıllı qərar verməyə sövq edir.

Yəşim... ədalət, cəsarət və müvazinət duyğuları verir...

Yəşim... nitqi cilalayır... zehni açır... natiqlər və hocalar bu daşı boyunlarında gəzdirərmişlər...

Yəşim böyük qələbələrin, hədsiz zənginliyin, hakimiyyətin təkəbbür gətirməsindən xilas edir insanı...

Yəşim insanı öz zəhərindən təmizləyir...

Əcəba, Böyük Əmir, qitədən qitəyə hakim, ən güclü, ən zəngin, ən üstün... bu yolla, bu üsulla özünə nəzarət edirdimi, nəfsinin, hirsini qəzəbinin, arzularını nizamlayırdımı?

Bilmirəm. Düzünü Allah bilir.

**Bu konuda bildiyim budur; dünya durduqca Əmir Teymurdan yazılacaq... bəşərin nəfəsi gedib gəldikcə Uca Əmir öyrəniləcək... lakin bu böyük insanın əsil mahiyyəti, şəxsi kimliyi, gizliləri, sirləri, xəzinələri sonadək açılmayacaq.**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



YENİ MÜSAVAT
N 101 (6715) 13 may 2017



# Rusiyanın Qarabağla bağlı əsas hədəfi - Kreml nəyi gözləyir?

## Moskvanın Ermənistandakı hərbi bazalarla bağlı yeni planları əlavə suallar yaradıb; Amerikadan müharibə xəbərdarlığı gəldi; **politoloq:** "Azərbaycanın güclənməsi bəzi dairələri qorxudur..."

**Azərbaycanla Ermənistan arasında imzalanmış atəşkəs rejiminin daha bir ildönümü - 23-cü ildönümü arxada qaldı. Əfsus ki, bu qədər böyük müddətdə də Dağlıq Qarabağ münaqişəsinin həllində vasitəçilər heç bir ciddi irəliləyişə, dönüşə nail ola bilmədilər. Halbuki atəşkəs haqqında Bişkək protokolunun əsas bəndlərindən biri məhz münaqişə tərəfləri arasında tezliklə daimi sülh anlaşmasına nail olmaq idi.**

23 ildə nəinki bu yöndə real irəliləyiş əldə edilmədi, əksinə, sülh danışıqlarına, ATƏT-in Minsk Qrupunun ədalətli vasitəçiliyinə inam heç vaxt olmadığı qədər sarsıldı, yeni müharibə riski böyük ölçüdə artdı. Bunun nəticəsidir ki, hazırda böyük sülh anlaşmasından daha çox böyük müharibədən danışılır. Bu isə olduqca təhlükəlidir. Belə bir təhlükəni də ilk növbədə əsas vasitəçi dövlətlər - Rusiya və ABŞ nəzərə almalıdır.

Ələlxüsus da işğalçı Ermənistanın 1 nömrəli müttəfiqi Rusiyanın İrəvana təsir edib onu nəhayət ki, konstruktiv mövqeyə kökləməsinin zamanı çatıb. Məsələ də ondadır ki, bu gün müharibədən qaçmağın tək yolu Ermənistanın daşı ətəyindən tökərək, işğal altındakı ərazilərin heç olmasa, bir qismini qeyd-şərtsiz azad eləməkdən keçir. Yəni seçim Azərbaycanın yox, işğalçı Ermənistanındır.

***

Bu arada ABŞ Milli Kəşfiyyat Agentliyi Qarabağda yeni müharibə xəbərdarlığı ilə çıxış edib. "Münaqişə tərəflərinin kompromislərə getmək niyyətinin olmaması və ölkələr daxilində artan təzyiqlər bu il Azərbaycanla Ermənistan arasında Qarabağda tammiqyaslı hərbi əməliyyatlara gətirib çıxara bilər". Agentliyinin dünyadakı risklər barədə hesabatında belə deyilir (Virtualaz.org).

**Agentliyin direktoru Daniel Koutsun Konqresə təqdim etdiyi hesabatda bu xüsusda belə bir qənaət yer alıb:** "Azərbaycanla Ermənistan arasında separatçı Dağlıq Qarabağ regionuna görə gərginlik 2016-cı ilin aprelində alovlanıb. Və hər iki tərəfin kompromislərə getmək niyyətinin olmaması, daxili təzyiqlərin artması nəticəsində 2017-ci ildə tammiqyaslı hərbi əməliyyatların başlanması imkanları qalır".

Bu xəbərdarlıq təsadüfi və təəccüblü deyil. Aydındır ki, sülh təşəbbüsləri gecikdikcə, sülh anlaşması ləngidikcə hərbi əməliyyatların qızışması ehtimalı da artır. Necə deyərlər, diplomatların bacarmadığı işi həmişə hərbçilər görüb, son sözü silahlar deyib. Bu acı gerçəklik Dağlıq Qarabağ problemi üçün də keçərlidir. 23 illik nəticəsiz atəşkəsin acı yekunlarından biri bundan ibarətdir.

***

Əsas vasitəçi dövlət olan Rusiyanı isə belə görünür, ən əvvəl regionda hərbi və siyasi cəhətdən daha da möhkəmlənməsi maraqlandırır, nəinki 30 illik Qarabağ münaqişəsinin həlli. Şimal qonşumuzun Qarabağ ixtilafından dolayı güddüyü əsas hədəfi əslində budur. Moskvanın Gümrüdəki 102 saylı hərbi və Erebunidəki hava bazaları ilə bağlı yeni planları haqda səslənən fikirlər də öncəliklə buna dəlalət edir. Politoloqların bu xüsusda maraqlı şərhləri var.

"Rusiyanın Ermənistandakı bazalarını genişləndirməsi birbaşa Azərbaycana qarşı yönəlməsə də, hər halda, səbəbsiz deyil". Bu sözləri Axara.az-a açıqlamasında **keçmiş diplomat, politoloq Fikrət Sadıqov** deyib. Onun sözlərinə görə, Rusiya belə bir gərgin geosiyasi vəziyyətdə Ermənistandakı bazalarından imtina etməyəcək.

"Əksinə, Moskva Gümrüdəki 102-ci bazanı təkmilləşdirməklə, briqadanı yeni silahlarla təmin etməklə regionda öz liderliyini qorumağa, xüsusilə də əhatə dairəsini genişləndirməyə çalışır. Rusiya bununla da bir sıra dövlətlərə təzyiqlərdən çəkinmədiyini ortaya qoyur. Burada söhbət ilk növbədə Gürcüstandan gedir. Türkiyəyə gəlincə isə, düzdür, yaxın münasibətlər var, ancaq Türkiyə və Rusiyanın qardaş dövlət olduğunu söyləmək olmaz. Rusiyanın Ermənistandakı hərbi bazalarının genişləndirməsi birbaşa Azərbaycana qarşı yönəlməsə də, hər halda, səbəbsiz deyil. Faktdır ki, Azərbaycanın güclənməsi və regionda aparıcı rol oynaması müəyyən dairələri nəinki narahat edir, hətta qorxudur. Görünür, məhz bu səbəblər Rusiyanı belə bir addım atmağa vadar edib", - deyə politoloq vurğulayıb.

***

Ancaq bu da faktdır ki, işğalçı Ermənistanın rəhbərliyi Kremlin bölgədəki hərbi və geosiyasi maraqlarından müstəsna olaraq, öz mənafeyi üçün, özəlliklə də Dağlıq Qarabağ məsələsində daha əlverişli mövqelər qazanmaq üçün istifadə eləməyə çalışır. Erməni-rus birgə hərbi birləşməsinin komandanı, general Andranik Makaryanın bu günlərdə belə bir qruplaşmanı hətta Putinin izni olmadan Qarabağa yeridə biləcəyi ilə bağlı açıqlaması buna sübutdur. Yeri gəlmişkən, Rusiyanın hərbi və siyasi rəhbərliyindən bu açıqlamaya hələ də reaksiya gəlməyib. Görəsən niyə?

"Ermənistan hərbi rəhbərliyinin rus-erməni birgə qruplaşması ilə bağlı açıqlamaları spekulyativ xarakter daşıyır. Çünki səsləndirilən fikirlərə gərək Rusiya da şərik olsun". **Politoloq İlqar Vəlizadə** bu qənaətdədir. Şərhçi bu məsələnin Rusiya hərbi siyasi rəhbərliyinin marağında olduğunu düşünmür: "İrəvan birgə qruplaşmadan Bakıya qarşı istifadə etməyə çalışır, Moskva isə tamam başqa məqsədlər güdür. Rusiya Azərbaycanı özünə açıq düşmən etmək niyyətində deyil. Ona görə də İrəvanın maraqları ilə Moskvanınkı üst-üstə düşmür".




**Politoloq Rusiyanın Ermənistandakı bazalarını genişləndirmək istəməsinin başqa məqsəd daşıdığını qeyd edib:** "Bu addım Cənub-şərqi Asiyada, Şərqi Aralıq dənizi regionunda Rusiyanın hərbi-siyasi mövcudluğunu gücləndirməyə hesablanıb. Ermənistandakı 102-ci baza koordinasiya rolunu oynayır. Çünki Rusiyanın Suriya, Abxaziyada da bazaları var. Coğrafi aspektdən yanaşsaq, Gümrüdəki baza ortada yerləşir. Rusiya isə Suriyadakı bazası ilə bu regiondakı infrastrukturları arasında sıx əlaqələr yaratmaq istəyir. 102-ci baza da vacib strateji ərazidə yerləşdiyindən bu planda müəyyən rol oynayır. Moskva Suriyada konflikt bitəndən sonra da bu regionda öz hərbi nüfuzunu saxlamaq istəyir. Lavrov bu yaxınlarda belə bir ifadə işlətdi ki, İŞİD-lə bağlı mübarizdə Rusiyanın hüdudlarından kənarda olan bazalardan da istifadə ediləcək. Yəni Gümrüdən savayı, Qırğızıstan və Tacikistandakı rus bazaları da nəzərdə tutulub. Rusiyalı diplomatın bu frazası ermənilərin qəzəbinə səbəb olub. Bu da onu göstərir ki, əslində, 102-ci bazanın təkcə Cənubi Qafqazda deyil, daha geniş ərazilərdə istifadəsi nəzərdə tutulur".

**Ekspert onu da bildirib ki, ermənilərin Gümrüdəki 102-ci bazanı Azərbaycan əleyhinə yönəltməyə çalışması tamamilə reallıqdan uzaqdır:** "Rusiyanın daha vacib hədəfləri var. Moskva İrəvanın tələsinə düşməyəcək. Üstəlik, indiki şəraitdə Rusiyaya İŞİD-lə mübarizədə real müttəfiqlər lazımdır. Bu real müttəfiqlər sırasında Azərbaycan da yer ala bilər. Bir sözlə, Ermənistan bütün hallarda yenə də oyundan kənarda qalır".

***

Lakin işğalçı Ermənistan oyundan kənarda qalsa da, Moskvanın himayəsindən kənarda da deyil. Fakt faktlığında qalır ki, Kreml öz satellitinə Qarabağa görə təzyiqlər etməyə həvəsli deyil. Bu isə istər-istəməz Bakıda Moskvaya qarşı inamsızlığı və etimadsızlığı artırır - həm də əsas vasitəçi dövlət olaraq.

**Rusiya rəsmiləri isə Azərbaycanı strateji tərəfdaş ölkə adlandırmaqdan yorulmurlar. Belədirsə, o zaman məntiqlə Moskva "strateji tərəfdaş ölkə"nin ərazisinin 20%-nin on illərdir işğal altında qalmasına laqeyd olmamalıdır - necə ki, Rusiya uzaq Suriyanın ərazi bütövlüyü üçün hətta bu ölkəyə hərbi dəstək verir. Amma şimal qonşumuz sanki işğal faktını görməzlikdən gəlir. Bu harasıdır, üstəlik o, işğala şəriklik edir. Qarabağdakı erməni separatçılarına qahmar çıxmağın ayrı adı ola bilməz.**

YENİ MÜSAVAT
N 101 (6715) 13 may 2017

**O, Stalinlə eyni gündə doğulub. Dünyaya gələn andaca atası başını tutaraq ailəsini tərk edib. Anası Qulia Alasaniya Tiflis münəccimləri ilə öz sıx əlaqələrinə görə məşhurdur. Dayısı Teymur Alasaniya diplomat kimi tanınıb SSRİ-də. "KQB" polkovniki olub həm də. Casus yuvasında-BMT-də çalışıb uzun illər.**



# Anti-Stalin: Saakaşvilinin portreti

Sonralar o, həmişə dayısının "qaz yerişini" təkrarlamağa çalışacaq. Dünya pərdəönüylə, pərdəarxasıyla sıx əlaqə telləri qurmağa can atacaq. Dayısından fərqli olaraq bir başqa üç hərifli təşkilatla əməkdaşlığa cəlb ediləcək.

SSRİ Sərhəd Qoşunları tərkibində hərbi borcunu yerinə yetirməyi sonralar min cür dedi-qoduya səbəb olacaq. Əleyhdarları bu fakta söykənərək onu məxfi "KQB" əməkdaşı elan edəcəklər.

Onu hakimiyyətə gətirən silahdaşı sonralar öz evində müəmmalı şəkildə həyatını itirəcək. İstintaq, yarıda kəsiləcək, ipucları arxivlərdən, gizli fayllardan birdəfəlik silinəcək.

Okeanın o tayındaykən göbəyi ikinci dəfə məşhur "Patterson, Belknap, Webb & Tyler" hüquq şirkətində kəsilib. Şirkət, postsovet məkanında işləyən ABŞ neft-qaz şirkətlərinə hüquq xidmətləri ilə məşhurdur. Bir vaxt bu şirkət Gürcüstanda "qızılgül inqilabı"nı həyata keçirmiş "Kmara" gənclik hərəkətinə gizlincə day-daylıq eləyib.

Hollandiya vətəndaşı ilə evləndikdən sonra xaricə yolu açılıb. Öz hakimiyyəti dövründə xarici donor təşkilatlarından Gürcüstana maddi kömək kimi 4, 55 milyard dollar cəlb edib.

Qafqaz qayalarına qandallanmış Prometey əfsanəsində nə üçünsə həmişə özünü görüb o. Çalışıb birtəhər bu qandallardan canını qurtarsın. Əsəbiləşəndə qalstukunun ucunu gəmirir.

Prezident vəzifəsinin sonuna bir-iki həftə qala-qalmaya özbaşınalıq edib. İzahsız-filansız vəzifə kürsüsünü buraxaraq xaricə sığınıb. Sonra gedib "narıncı" Ukraynada məskunlaşıb.



Burdakı fəaliyyəti Odessa meri vəzifəsi ilə yekunlaşıb. Ukrayna ordusunun maddi-texniki bazasını məhz o Qərb standartları ilə əvəzləyib.

Orda da Tiflisdəki hoqqabazlıqlarını təkrarlayıb. Nəticədə həm indi "Vəli aşından məhrum ola bilər, həm də Əli aşından". Gürcüstan dövləti onu 2015-ci ildə ölkə vətəndaşlığından məhrum edib.

Öz qərarlarını həmişə böyük hadisələrin ildönümündə elan etməyi ilə məşhurdur. Odessa meri vəzifəsindən 7 noyabr tarixində istefa verməyi kor təsadüf sayılmamalıdır.

2005-ci ildə Hilari Klinton ilə Con Makkeyn onu Nobel Sülh mükafatına layiq biliblər.

Prezidentliyinin sonunda o, əllərini yana sallayaraq dinc durmayıb- 10 sentyabr 2013-cü ildə qarlı Kazbek zirvələrinə dırmanıb. Niyə? Hə, bax bunun sirrini az sonra biz sizlərə açıqca söyləyərik.

Onun ulduz falına, bioqrafiyasındakı doğum tarixinə inanmayın -bu rəqəmlər inanın, saxtalaşdırılıb.

Bu şəxs bilirsizmi kimdir? Gürcüstanın sabiq prezidenti Mixail Saakaşvili...

***

Dünya cahangirliyinə gedən uzun yolda bir neçə vacib məqam var-gərək bir gün mütləq... bəli, mütləq öz ulduz bürcünü dəyişəsən. Münəccimlərə müraciət edəsən ki, sənə yeni, daha uğurlu ulduz falı hazırlasınlar. Kiçik misal-əvvəllər Timurçin kimi tanınan sıravi bir monqol sərkərdəsi oxşar ayinlərdən keçərək dönüb olur qaniçən Çingiz xan. Sonra bu yeni adını, yeni ulduz falını tam doğruldaraq çevrilir bir saylı dünya cahangirinə.

Mümükündürmü bu? Əlbəttə. Astrologiyada, nücüm elmində bu çox çətin məxfi ayin iki mərhələdə həyata keçirilir. "REKTİFİKASİYA", "RELOKASİYA" adlı bu çətin ayinlərin bir-iki çox mühüm şərti var. Əvvəla, müştərinin bütün bioqrafiyası kiçik detallarına qədər gərək münəccimə bəlli olsun. İkincisi, bu ayinləri ancaq və ancaq çox etibarlı, sırf peşəkar astroloq həyata keçirə bilər. Qədim vaxtlar bunu qara şamanlar, dərvişlər həyata keçirirdi, indiki zamanda Pavel Qloba kimi təcrübəli, necə deyərlər, "qulağı tüklü" astroloqlar.

Misal üçün, bir-iki il öncəyədək Belarus prezidenti Lukaşenkonun bioqrafiyasında doğum günü 30 avqust tarixi göstərilirdi həmişə. İndi isə bu tarix korrektə edilib, köçürülüb bir gün sonraya-avqustun 31-nə. Niyə? Necə yəni niyə? Deməli, Pavel Qloba kimi tanınmış bir astroloq Belarus "Batka"sına təzə ulduz falı hazırlayaraq onu mümkün bəlalardan qorumaq istəyib.

İkinci misal. Orta əsrlərin ən məşhur münəccimi sayılan Jerolamo Kardana, bir gün Roma



Papasının qatı düşməni Martin Lüterin ulduz falını dəyişir. Nəticə özünü çox gözlətmir. Martin Lüterin psixikası günbəgün pozularaq axır ölümlə nəticələnir.

Öz ulduz falını dəyişmiş tarixi simaların ən birincisi isə bilirsizmi kimdi? İosif Stalin!

***

1967-cı ildə Tiflisdə Mixail Saakaşvilinin doğumu elə ilk günlərdən müəmmalarla müşayiət olunur. Körpənin atası Nikolaz Saakaşvili, başını ikiəlli sıxaraq ağlını itirir az qala. Doğum evindən güllə kimi eşiyə sıçrayaraq öz arvadı Gulia Alasaniyanı talenin ixtiyarına buraxır. Niyə? Hə, bunun səbəbini hələ heç kim bilmir. İddia olunur ki, körpənin bədəni üzərində əcaib işarələr, vahiməli, adamın canına üşütmə salan bir qüsur varmış...

Saakaşvilinin anasının qardaşı, mülkü geyimli "KQB" polkovniki Temur Alasaniya o vaxtlar bəziləri kimi künc-bucaqda gizlənmir. Tam tərsinə, öz bacısının dadına çatır. Körpəni götürür öz himayəsinə. Sonra bu bəladan xəbər tutan rəfiqələrindən biri anasının qulağına pıçıldayır: "Yaxşı olar, sən bu körpənin ulduz falını dəyişəsən. Stalinin bədənində də oxşar qüsurlar mövcudmuş. Ayaq pəncəsinin biri altı barmaqlı idi deyilənə görə... Anası bir an tərəddüd hissi keçirir o vaxt. Gözləri ilə yalvarır dörd ətrafına. Astaca pıçıldayır: "Kim, hansı münəccimə bu sirri etibar etmək olar axı?" Gülianın rəfiqəsi yubanmadan dillənir: "Gəl aparım səni Tiflis rəsədxanasına. Stalin gənc ikən orda işləyib bir az. Onun ulduz xəritəsini də məhz orda dəyişiblər. Sənədlər də var bu barədə".

***

İosif, yəni Yusif peyğəmbərin yuxu yozmaq, münəccimlik istedadı eyni adlı Stalinə gün verib, işıq verməyib bir ara. Bu gənc Yusifin o vaxtkı Tiflis rəsədxanasına gəlişi də görünür sırf kor təsadüf nəticəsində baş tutmayıb. Gündüzlər inqilabçılıqla məşğul olan Yusif, gecələr orda təkcə mühafizəçilik eləməyib məncə. Başı üzərindəki ulduz xəritəsini mükəmməl öyrənib. 1912-ci ildə növbəti Tiflis səfəri vaxtı gənc Kobo orda öz sinif yoldaşı, məşhur astroloq Georgiy Qurdjiyevlə görüşür. Deyilənə görə, məhz o vaxt Qurdjiyev bu gənc Yusifin həm adını dəyişir, həm ulduz falını. Məhz o zamandan sonra yoldaş Cuqaşvili mətbuat səhifələrində Stalin imzası ilə silsilə məqalələr yazmağa başlayır.

***

Anası rəfiqələrin əhatəsində, qucağında südəmər körpə, durub gəlir Tiflis rəsədxanasına. Taleyin təkərini geri çevirmək ümidi ilə orda öz körpəsinin ulduz falını dəyişir. Rəsədxanada ikən Guliaya deyirlər ki, bəs bu uşaq Stalin deyil, anti-Stalin olacaq. Stalinizmin gorunu bütün dünyada məhz bu körpə qazacaq, görərsiz.

Doğum haqda şəhadətnaməni saxtalaşdırmağa gəlincə, bunu o zaman təkcə bir nəfər edə bilərdi. Gulia Alasaniyanın doğmaca qardaşı, psixologiya elmləri professoru, "KQB" polkovniki Temur Alasaniya.

***

Ay dolanır, il keçir. Məktəbli Mixail Saakaşvili deyilənlərə görə o vaxtlar öz atalığı Temur Alasaniyaya çox bağlanır. İstəyir gələcəkdə bu fövqəlinsanın, xüsusi agentin həyat marşrutunu bir-bir təkrarlasın. Gah Londonda görünsün, gah BMT ofisində isti qəhvə sifariş etsin özünə. Deyilənlərə inansaq, gənc Saakaşvili məktəbli günlərində dram dərnəyi yaradıb orda rejissorluq edərmiş. Xarici filmləri öz istəyincə səhnələşdirirmiş. Növbəti tamaşa zamanı o, reallıqla sənət arasında fərqi itirir. Aktyor qızların birini...

Qısası, biabırçılıq baş verir. İşə, atalığı Temur Alasaniya girməsə, gənc Saakaşvilini bəlkə də qazamata basacaqdılar.

Saakaşvilinin portretini xəyallarınızda canlandırarkən xahiş edirəm onun bu psixoloji cəhətini unutmayın. O, çox tez olaraq reallıqla xəyal arasındakı




sərhədləri pozur. Sonra başlayır acıqlanmağa. Öz qalstukunu gəmirməyə. Sovet zamanları o öz pioner qalstukunu gəmirib yeqin ki... Sovetlərdən sonra, arvadı Sandre Rulovsun hədiyyəsini-öz növbəti bir başqa qırmızı qalstukunu. Onun Cənubi Osetiya avantyurasını indi ancaq və ancaq bu cür izah etmək olar.

Day-dayı Temur Alasaniyanın bircə telefon zəngindən sonra Kiyev Universitetinin Beynəlxalq Əlaqələr fakültəsinə daxil olan Saakaşvili öz Ukrayna əlaqələrini sonralar itirməyəcək. Çətin günündə yenidən bu ölkəyə qayıdacaq.

***

Lakin Saakaşvili təkcə öz gənclik marşrutlarını təkrarlamağı sevmir. O hərdən ən qədim tarixi əfsanələri, hadisələri də təkrarlamağa meyllidir.

DOSYE: NÖVBƏTİ "PROMETEY" ƏMƏLİYYATI: Ötən əsrin 20-ci illərində Polşa kəşfiyyatı proletar beynəlmiləlçiliyinə cavab olaraq millətçilərin internasionalını təşkil edib onu SSRİ-yə qarşı dəyənək kimi istifadə etmək istəyir. Sonra bu matah malı dünya bazarına çıxararaq Britaniya, Fransa kəşfiyyatına bu layihəni təqdim edir. Güclü maliyyə dəstəyi alaraq həm öz kəşfiyyatını saxlayır, həm də bir sıra antisovet millətçi təşkilatlarını.

Arxivlərdə çürüyən bu köhnə casus əməliyyatının bütün məxfi sənədlərini bir gün kimsə Mixail Saakaşviliyə ötürür. Lal baxışları ilə deyir ona: "Sən bu köhnə əjdahanı indi dirildə bilərsənmi?"

Saakaşvili, bu köhnə "Prometey" rəmzini, əməliyyatını dirilmək yolunu tutaraq mərhum Polşa prezidenti Lex Kaçinskini Tiflisə dəvət edir. Kraliça Tamara adını daşıyan körpünün yaxınlığında Prometeyə abidə (müəllifi heykəltəraş Devi Xmaladze) açaraq Moskvaya üstüörtülü mesajlar ünvanlayır. Beləliklə, "Promotey 2" casus əməliyyatı 2007-ci ilin 23 noyabr tarixində start götürür. Nə ilə nəticələnir?

Deyim də nə ilə-Polşa prezidenti Lex Kaçinskinin havada qəzaya uğramağıyla!

Deyilənlərə görə, təyyarə sərnişinlərinin mütləq əksəriyyəti anti-Rusiya "Promotey 2" əməliyyatının fəal iştirakçıları idi. Moskva çekistləri bu fürsəti əldən buraxmırlar. Acı nəticə indi hamıya bəllidir.

Bu biabırçılıqdan Saakaşvili sonradan çox çətinliklə yaxasını qurtarır. Putinin şəxsi əmri ilə Promotey abidəsini bir növ öz çiyni üzərində Kutaisiyə aparıb orda gizlədir. Sonra bu casus brendi Saakaşvilinin təkidi ilə özünə tam yeni- turistik məzmun qazanır. Gürcü arxeoloqları aləmə car çəkirlər ki, bəs burda Promotey mağarası aşkarlanıb. Guya tanrıların alovunu oğurlayıb onu insanlara ötürmüş Promotey məhz bu ünvanda qayaya qandallanıbmış...

***

Beləliklə, bizim bu anti-Stalin Mixail Saakaşvili nə hərbi sahədə bir uğur sahibidir, nə də ki, kəşfiyyatçı sahəsində. Vaxtı ilə öz ulduz falını dəyişmiş bu dəcəl, sonralar çox şeyləri dağıtmağa girişib. Nail olub buna, yaxud yox, bu, başqa mövzudur.

***

Prezidentliyinin sonu Kazbek dağının fəthiylə yadda qalacaq. Masonlar arasında belələrinə "ŞERPA" deyirlər.

Himalay dağları ətəklərində yaşayan az saylı Şerpa tayfası niyə masonların xoşuna gəlib, buna cavabım yoxdur indi. Şerpalar Himalaya qalxan alpinistlərə bələdçilik edərlər ədatən. Dünya siyasi diplomatları arasında 9 belə ŞERPA-lardan biri Yevgeniy Primakov imiş. O, siyasi Olimpə qalxan Mixail Qorbaçova bələdçilik edərmiş.

Yeri gəlmişkən deyim- Primakov da Tiflis mənşəlidir.

O da vaxti ilə Kazbek zirvələrini fəth edib.

Sonra gedib dünya Olimpinin zirvəsinə.

Bizim bu yeni Mixail də görünür eyni marşrutu təkrarlamaq istəyir indi.

❑ **Həmid HERİSÇİ**

YENİ MÜSAVAT
N 101 (6715) 13 may 2017

# Liderinə fantastik şəkildə pərəstiş edənlər...

## Şəxsiyyətə pərəstişin dünyada ilginc nümunələri və sonucları...

**Dünyanın bütün ölkələrində, tarixin bütün zamanlarında belə hallar baş verib, bu sayaq hadisələr yaşanıb. Xüsusən də diktatura rejimli ölkələrdə cəmiyyətin şəxsiyyətə pərəstişlə bağlı nümunələri xeyli çoxdur. Amma bəzən bu kimi hallar dildən-dilə dolaşan əfsanələrə çevrilir.**

"Yeni Müsavat" bəzi ölkələrin tarixində baş verən bu kimi hallarla bağlı detalları yada salıb.

**Öncə yaxın qonşularımızdan başlayaq.** Özbəkistanda yolları, idarələri İslam Kərimovun, Tacikistanda isə İmaməli Rahmonun şəkilləri bəzəyib. İ.Kərimov öz ədəbi ambisiyası ilə tanınır və onun kitablarının 30 milyon tirajı var. Bu kitabları bütün tələbələr və professorlar oxumalıdır. Lakin adi adamlar arasında bu kitablar «oxunmayacaq kitablar» kimi tanınır.

**Suriya da şəxsiyyətə pərəstiş nümunələri ilə doludur.** 29 il ərzində Suriyaya rəhbərlik edən Hafiz əl Əsədə Dəməşqdə qızıldan heykəl qoyulub. Daha sonra onun oğlu Bəşər Əsəd bunu davam etdirib. Uzun illər Suriyanın çox yerində ata-oğulun birgə şəkilləri və altında «Əsədlərin Suriyası» şüarlarını görmək olardı.

**Liviya lideri Müəmmar Qəddafi isə bir neçə ay əvvəl hakimiyyətdə olmasının 40 illiyini təntənəli surətdə qeyd edib.** Bu illər ərzində Qəddafi ölkəni elə özünün nəşr etdirdiyi «Yaşıl kitab» əsasında idarə edib.

**Nəyə görəsə şəxsiyyətə pərəstiş deyəndə insanın yadına müasir dövr siyasətçilərindən Türkmənistanın mərhum prezidenti Saparmurad Niyazov düşür.** S.Niyazovun hakimiyyəti dövründə ona 14 min heykəl və büst, bir neçə qızıl abidəsi ucaldılıb. Ölkədə xeyli küçə, zavod, kolxoz və məktəblər Türkmənbaşının adını daşıyıb, ömürlük prezidentin şəkli həm də məişət və ərzaq məhsullarının qablarını bəzəyib. Onun adı dövlət himnində də səslənirdi. Türkmənistanın gerbinə Niyazovun sevimli atının şəkli salınmışdı.

Türkmənistanda onun adı ilə konyak və araqla yanaşı "Türkmənbaşı" ətri də istehsal olunurdu. Ölkədəki ən uca zirvə "Böyük Türkmənbaşı zirvəsi" adlandırılıb. Pul əksinaslarında ancaq onun şəkilləri əks olunurdu. Bağça, orta və ali məktəblərdə hər gün tədris Türkmənbaşına sədaqət andı ilə başlayırdı. 2004-cü ildə Türkmənbaşı özünü peyğəmbər elan etdi. Ölkənin Milli Bayraq günü Türkmənbaşının doğum gününə təsadüf edib. O, özünə düz beş dəfə milli qəhrəman adı verib. Ölkə telekanallarının yuxarı küncündə Türkmənbaşının şəkli əks olunurdu. Məmurlar isə onunla görüşəndə mütləq qaydada sağ əlindən öpməli idi. Ədalət ilahəsi Femidanı isə Türkmənbaşının anasının siması və əlində "Ruhnamə" ilə təsvir edirdilər.

Amma bütün bunlar Türkmənistandakı hakimiyyət dəyişikliyinə qədər idi. Artıq Aşqabadda Türkmənistanın ilk prezidenti Saparmurad Niyazovun (Türkmənbaşı) qızıl suyuna çəkilmiş 12 metrlik heykəli götürülüb. Abidə 1998-ci ildə qoyulmuşdu. Heykəlin sökülməsi barədə qərarı Türkmənistanın hazırkı prezidenti Qurbanulu Berdımuhəmmədov 2008-ci ildə elan etmişdi. Həmin vaxt dövlət himni və vətənpərvərlik andından da Türmənbaşının adı çıxarılmışdı. Küçələrdən Niyazovun çoxsaylı portretləri də yığışdırılıb, Türkmənbaşı prospektinin adı dəyişdirilib. Qadınlar gününün də martın 8-də qeyd edilməsi bərpa olunub. Türkmənbaşının hakimiyyəti illərində qadınlar bayramı onun anasının doğum günündə qeyd edilirdi...

**2010-cu ildə Qazaxıstan prezidenti ölkə parlamentinin ona "millət atası" statusu verən qanun layihəsini imzalamayıb.** Nursultan Nazarbayevin rəsmi KİV-lər vasitəsilə yayılan müraciətində onun qanun layihəsini imzalamamasının səbəbləri göstərilir. Xatırladaq ki, Qırğızıstandakı hakimiyyət çevrilişindən az sonra Qazaxıstan parlamenti prezidentə limitsiz səlahiyyətlər təmin edən və onu, habelə ailə üzvlərini istənilən məsuliyyətdən azad edən qanun layihəsini müzakirəyə çıxarmışdı. Bu layihəyə görə Nazarbayev hətta prezident səlahiyyətlərini başa vurandan sonra belə, ölkənin idarə edilməsində söz sahibi olaraq qalacaqdı. Layihə parlamentin hər iki palatasında təsdiqlənib və Nazarbayevin öz şəxsiyyətinə pərəstişi daha da gücləndirmək cəhdi kimi qiymətləndirilib.

Nazarbayev bildirmişdi ki, hazırda ona əlavə səlahiyyətlər və yeni status verməyə ehtiyac yoxdur. Əgər gələcəkdə ölkənin inkişafı və vətəndaşların təhlükəsizliyi, ərazi bütövlüyü üçün ciddi təhlükələr meydana çıxarsa, o zaman mən özü əlavə səlahiyyətlər istəyə bilər.

Nazarbayev onu da bildirib ki, həmişə qətiyyətlə şəxsiyyətə pərəstişə qarşı çıxıb, şəklinin pul vahidlərinin üzərində çap olunmasına razılaşmayıb, müxtəlif adlardan və rütbələrdən imtina edib: "Mənim ailə üzvlərimə gəldikdə isə onlar da digər vətəndaşlar kimi seçdikləri sahələrdə işləmək, bizneslə məşğul olmaq, ictimai-siyasi fəaliyyətə qatılmaq haqları var. Lakin bu zaman onlar bütün vətəndaşlar kimi qanuna hörmət etməyə borcludur". Nazarbayev onu da xatırladır ki, Qazaxıstan ATƏT-in sədridir və ona göstərilən etimadı doğrultmaq üçün çalışmalıdır.





### Stalin və Koreya nümunəsi - dillərə dastan...

**Amma bu məsələdə Stalin və onun yaxın ətrafının adları tarixdə xüsusi yer tutub.** Onun vaxtında şəhərlərə, zavodlara, kolxozlara, hərbi texnikalara onların adları verilirdi. Stalin barəsində tərifləyici mahnılar bəstələnirdi və hətta onun adı SSRİ-nin 1944-cü il himninin tekstinə də salınmışdı. Şəxsiyyətə pərəstişlik tənqid edildikdən sonra məşhur yazıçı V.Şoloxov Stalin şəxsiyyətinə pərəstiş haqqında belə demişdir: "Hə, həqiqətən də pərəstiş var idi... amma şəxsiyyət də var idi!"

**Keçək Koreyada baş verənlərə.** Koreya Xalq Demokratik Respublikası öz liderlərinin şəxsiyyətinə pərəstiş təbliğatı üçün təkcə 2012-2014-cü illərdə 500 milyon dollar vəsait xərcləyiblər. Ölkə prezidenti Kim Çen In babası Kim Çen İr və Kim İr Senin şərəfinə 3200 stella, 400 mozaik panno və hər iki liderin şərəfinə 23 metrlik heykəllər ucaldıb. Bu məqsədlə büdcədən 200 milyon dollar pul xərclənib. Daha 300 milyon dollar isə Şimali Koreyanın kommunist liderlərinin adını daşıyan 40-a qədər dövlət müəssisənin tikintisinə ayrılıb. Dövlət xərclərinin artması şəraitində isə ölkənin ixrac qabiliyyəti aşağı düşməkdə davam edir.

Xatırladaq ki, bütün dünyadan təcrid vəziyyətində olan Şimali Koreya Xalq Demokratik Respublikası vətəndaşlarının həyat səviyyəsinə görə, dünyada sonuncu yerlərdə qərarlaşıb.

Dünyanın üç ən qəddar diktatoru sıyahısında yer alan Kim Çen Iri Koreyanın "Dahi" rəhbəri və "Dahi rəhbəri Kim Ir Senin oğlu" titullarını daşıyıb. Atası ilə yanaşı onun da tərcümeyi-halı dərsliklərə salınıb. Bütün kitablar onun sitatları ilə başlayır. Kim Çen Irin ad günü isə Koreyada ikinci dövlət bayramı hesab olunur. Birinci yer atasına məxsusdur. 2011-ci ildə vəfa edən Kim Çen Irin yerini oğlu Kim Çen In tutub və o gündən Şimali Koreyada üçüncü nəsil diktatora pərəstiş başlayıb.

Koreya Xalq Demokratik Respublikasının kişilərinə saç düzümləri ilə bağlı xüsusi qayda tətbiq olunub. Bu ölkədə güclü cinsin nümayəndələrinə saçlarını ölkə lideri Kim Çen Inın saç düzümü formasında kəsdirmələri əmr edilib. Dövlət səviyyəsində elan olunan qayda əvvəl təkcə paytaxt ərazisində tətbiq edilsə də, hazırda bütün ölkəyə yayılıb. Buna qədər isə Şimali Koreyalı kişilər 10 saç formasından istifadə edə bilərdilər.

Nümunələrdən daha biri isə məktəblərdə şagirdlərə Kim Çen Irin həyatı haqqında nəğmələr oxutdurmalarıdır.

Daha bir ilginc nümunə. 2012-ci ildə Şimali Koreyada 14 yaşlı məktəbli qız ölkəni idarə etmiş liderlər Kim İr Sen və Kim Çen İrin portretlərini qorumaq istəyərkən dünyasını dəyişib.

Yerli telekanalların verdiyi məlumata görə, 14 yaşlı məktəbli şəkilləri başının üstündə evdən məktəbə aparарkən dünyasını dəyişib. O, şəkillərlə bir yerdə suya düşüb, boğulub.

❑ **Sevinc TELMANQIZI**



# Zamanımız bizə niyə yetmir?

**Əhməd Qəşəmolu:** "Vaxtdan daha səmərəli istifadə etmək mədəniyyətinə yiyələnməliyik"
**Vəfa Rəşidova:** "Bu, zamanın yox, insanların problemidir"

**10-15 il öncə kiməsə nəsə sənəd və ya toy dəvətnaməsi vermək üçün şəhərin bir başından digər başına getməli olurduq ki, bu da bizim ən azı 2-3 saat, bəlkə də daha çox zamanımızı alırdı. Həmçinin kimisə tapmaq üçün onun evinə, iş yerinə baş çəkməli olurduq. Bazara gedərkən evə gəlməli, siyahı tutub yazmalı olurduq. Bütün bunlar isə günümüzün yarısının itirilməsi demək idi.**

İndi isə durum fərqlidir. Texnologiyanın inkişafı imkan verir ki, biz heç yerə getmədən işlərimizi həll edək. İstədiyimiz adamı bir telefon zəngi, facebook, vatsap ilə tapmaq mümkündür. Eyni zamanda artıq bir dəvətnaməni, sənədi kiməsə vermək üçün şəhərin bir başından o biri başına getməyə ehtiyac qalmır. Ancaq yenə də zamanın olmamasından, işlərimizin həlli üçün vaxtın yetmədiyindən, istirahətə, ailəmizə, doğmalarımıza zaman ayıra bilməməkdən şikayətlənirik.

*Maraqlıdır, vaxtımızın işlərin həllinə yetməməyinin səbəbi nədir? Zamanımızı düzgün dəyərləndirə bilmirik, yoxsa başqa səbəblər var?*

**Sosioloq Əhməd Qəşəmoğlu** vaxtdan daha səmərəli istifadə etmək mədəniyyətinə yiyələnməyin vacib olduğunu dedi: "İndiki dövr qabaqkı dövr ilə müqayisə oluna bilməz. Biz indi günbəgün mürəkkəbləşməkdə olan bir cəmiyyətdə yaşayırıq. Cəmiyyət mürəkkəbləşdikcə burada gedən proseslər də bizim həyatımıza daha çox təsir etməyə başlayır. İndiki həyat, yaşam tərzi gərək 30-50 il bundan əvvəlkindən fərqlənsin. Biz bunun fərqində olmalıyıq. İnsanlar əvvəllər necə yaşayırdıqsa, indi də elə yaşayaq ənənəsinə davam edirlər. Ona görə də cəmiyyətin məzmunu ilə insanların özünün yaşam tərzi arasında çoxlu münaqişələr yaranır. Biz vaxtdan necə istifadə etməyin doğru yollarını axtarmalıyıq. Ən doğru yol odur ki, vaxtdan elə istifadə edək ki, ən zəruri olan işlərlə məşğul olaq. 2-ci, 3-cü dərəcəli işlərə çox vaxt ayırmayaq. İnsanın normal həyat tərzi odur ki, o, gərək elə işlərlə məşğul olsun ki, bu, onun həm fiziki sağlamlığına kömək edib inkişaf etdirsin, həm mənəvi zənginliyinə yardımçı olsun. Bir də hər insanda öz əməyinə yaradıcı münasibət tələbatı artsın. Bax, bu istiqamətdə biz elə işlərlə məşğul olmalıyıq ki, bu dəyərlər inkişaf etsin. Bu baş versə, deməli biz zamandan düzgün istifadə edirik. Biz daha çox düşünməliyik ki, hansı işi görək ki, 3 keyfiyyətə - fiziki sağlamlığımıza, mənəvi zənginliyimizə və əməyə yaradıcı münasibətin formalaşmasına kömək etsin. Bu, 3 şeyə ziyan olan işlərə insan heç baş qoşub vaxt itirməsə yaxşıdır. Təbii ki, insanın maddi ehtiyaclarını ödəməyə ehtiyac var. Bunların hamısı bir vasitədir. Bəziləri həddindən artıq boş-boş işlərlə məşğul olur və vaxt itirir. Təəssüf ki, əhali arasında bu barədə təsəvvürlər də azdır".

**Psixoloq Vəfa Rəşidova**ya görə, elə insanlar var ki, zamanlarını düzgün təyin edə bilmirlər: "Bu, zamanın yox insanların problemidir. İnsanlar müdafiə mexanizmi olaraq nəyisə günahlandırmağı sevirlər. Yəni kimsə bir problem, narahatlıq yaşayırsa, onun səbəbini nədəsə yaxud da kimdəsə görmək istəyir. Bu çox yanlışdır. İnsan problemi zamanla, məkanla müqayisə etməməlidir. Problem insanın elə özüdür, yanaşmasında, situasiyaya baxış bucağındadır. İnsanlarda belə bir tendensiya yaranıb, zəmanə belə gəldi, zəmanə elə getdi. Zəmanə heç yerə getməyib, elə yerində durub. Sadəcə olaraq insanların yanaşması dəyişilib. Son zamanlar fikir verirəm ki, insanlar vaxtlarını düzgün tərtib edə bilmir. Məsələn, baxırsan evdar qadındır, amma düzgün vaxt qrafiki yoxdur. Nə uşağına, nə həyat yoldaşına, nə də özünə vaxt ayıra bilir. Necə ola bilir ki, iş adamları, uğurlu insanlar vaxtlarını hər şeyə çatdıra bilirlər. Deməli, elə insanlar var ki, zamanlarını düzgün dəyərləndirə bilirlər. Amma elə insanlar da var, zamanı dəyərləndirməyi bacarmırlar. Ya çox süst olurlar, ya da özlərinə həddən artıq mühafizəkar, tələskən olurlar. Tələsən də belə istədiyi işi etməyə vaxt tapa bilmir və düşünür ki, o bacarıqsızdır və ya vaxt çatmır. Əslində isə vaxt hər şeyə çatır, sən çatmırsan. İnsan günlük qarafikini düzgün qursa, o insanın nə stressi, nə gərginliyi olacaq, eyni zamanda da vaxtı artıq qalacaq. Hər bir insan üçün zaman qızıl deməkdir. Onun necə qədrini bilsən, o da sənin qədrini elə biləcək. Yəni insanlar bəzən necə gəldi düşünür, zamanlarını boşa xərcləyirlər. İnsan əgər vaxtı düzgün təyin etməyibsə və o vaxta görə işini yerinə yetirə bilməyibsə, artıq ikinci bir problem yaranmış olur. O zaman da insan çox ciddi narahatçılıq, problem yaşayır".

❑ **Günel MANAFLI**

# Gənc ər xanımının təhsil haqqını ödəmək üçün dörd qadını soydu

## “Nə qaynanam, nə də ki, həyat yoldaşım məni cinayət törətməyə təhrik etməyiblər; təhsil haqqını ödəməyi tələb edirdilər, amma deməyiblər ki, get cinayət törət”

**Bakı Ağır Cinayətlər Məhkəməsində Sumqayıt şəhər sakini, 1987-ci il təvəllüdlü Azər Təhməzovun cinayət işi üzrə məhkəmə prosesi keçirilir. Virtualaz.org saytının xəbərinə görə, prosesə hakim Rauf Əliyev sədrlik edir.**

İstintaq materiallarına görə, A.Təhməzov özgənin əmlakını talamaq məqsədilə ötən ilin dekabr ayında Firəngiz Hüseynovaya, Sevda İsmayılovaya, Gülnaz İsayevaya və Esmiralda Həsənovaya qarşı soyğunçuluq edib.

Təqsirləndirilən A.Təhməzov ona elan olunmuş ittihamla özünü təqsirli bilib. İfadəsində maddi vəziyyətinin pis olduğunu, həyat yoldaşı Aytac Musayevanın oxuduğu Sumqayıt Dövlət Universitetinin illik təhsil haqqını ödəyə bilmədiyini, pulu ödəmək üçün cinayətə əl atdığını göstərib: “Bakı İstintaq Təcridxanasında saxlanılan zaman Baş Prokurorluğa ərizə yazdım. Nə qaynatam, nə qaynanam, nə də ki, həyat yoldaşım məni cinayət törətməyə təhrik etməyiblər. Təhsil haqqını ödəməyi tələb edirdilər, amma deməyiblər ki, get cinayət törət. Soyğunçuluq etmək haqda özüm qərar qəbul etmişəm”.

Təhsil haqqını ödəmək məqsədilə A.Təhməzov dörd qadını soymalı olub. İlk olaraq ötən ilin dekabr ayının ortalarında Zərifə Əliyeva Göz Klinikasının yaxınlığında bir nəfər tələbə qızın mobil telefonunu ələ keçirmək üçün onu izləyib.

Tələbə qızın binanın blokuna girdiyini görüncə onun əlindən yapışaraq “İphone 5" markalı telefonu alıb. Bir neçə dəqiqə sonra telefonun sahibi Firəngiz Hüseynova ona zəng vuraraq telefonu geri qaytarmağı tələb edib. Amma A.Təhməzov telefonu söndürüb.

**Həmin telefonu 40 manata satıb.**

Həmin ərəfədə “28 May” metro stansiyasının yaxınlığında ağ rəngli “Kia” markalı maşının yolun kənarında dayandığını, sükan arxasındakı qadından başqa maşının salonunda heç kimin olmadığını görüncə, A.Təhməzov ön oturacağın qapısını açaraq oradakı əl çantasını götürüb və hadisə yerindən uzaqlaşıb. Sükan arxasında əyləşən Sevda İsmayılova onun arxasınca düşsə də, A.Təhməzov küçələrdə o yan - bu yana qaçaraq gözdən itib. Sumqayıta gəldikdən sonra binaların birinin zirzəmisinə keçərək çantanın içərisində olanları yoxlayıb. Çantanın içərisində olan şəxsiyyət vəsiqəsi, sürücülük vəsiqəsi, 2 ədəd mobil telefon, 250 manat pul və 150 dollar olduğunu görüb. Sənədləri çanta ilə birgə zirzəmiyə atan A.Təhməzov pulları və telefonları özünə götürüb.



İki cinayəti “uğurla” başa vuran A.Təhməzov 20 dekabr 2016-cı ildə üçüncü cinayətə imza atıb. Bu dəfə o, Nəsimi rayonu, 4-cü mikrorayon ərazisində “Tərlan” şadlıq evinin qarşısında yolun kənarı ilə gedən, əlində pul kisəsi olan Gülnaz İsayevaya qəflətən yaxınlaşaraq pul qabını dartaraq onun əlindən alıb. Pul qabındakı 104 manat pulu götürdükdən sonra içərisindəki digər əşyaları bir kənara atıb.

Elə həmin gün “28 May” metro stansiyasının yaxınlığında dayanan Esmiralda Həsənovaya məxsus qırmızı rəngli “Honda” markalı maşına nəzər salıb. Avtomaşının içərisindəki əl çantasını oğurlamaq məqsədilə qəflətən maşının qapısını açaraq çantanı götürüb qaçıb. Amma bu dəfə çantanın içərisindən pul tapa bilməyib. Kosmetik vasitələr, sənədlər, aksesuarlarla dolu çantanı yol kənarına atıb.

Bir ilə yaxındır ki, narkotik vasitələrdən istifadə etdiyini deyən A.Təhməzovun ifadəsinə görə, axşam saatlarında marixuana almaq məqsədilə “Papanin”ə yollanıb və 120 manata aldığı iki kibrit qutusu marixuananı şalvarının cibinə qoyub. Sumqayıta getmək üçün “20 Yanvar” metro stansiyasındakı dayanacağa gəlib. Bu zaman mülki geyimli şəxslər ona yaxınlaşaraq polis bölməsinə aparacaqlarını bildiriblər. Polis bölməsində üzərinə baxış keçirilərkən “Papanin”dən aldığı narkotik vasitə aşkar olunaraq götürülüb.

Yeri gəlmişkən, qeyd edək ki, A.Təhməzov cinayəti həyat yoldaşının təhsil haqqını ödəmək məqsədilə törətdiyini desə də, soyğunçuluqla əldə etdiyi pulları şəxsi ehtiyaclarına xərcləyib. A.Musayevanın təhsil haqqını isə öz atası Etibar Musayev ödəyib.

Zərərçəkmiş Firəngiz Hüseynova ifadəsində göstərib ki, dərsdən evə qayıdarkən bir nəfər ona yaxınlaşaraq 173 saylı binanın harada yerləşdiyini soruşub:

“Tanımıram deyib yoluma davam etdim. Yaşadığım binanın blokuna girərkən həmin şəxs qəflətən yolumu kəsdi, üstümə bıçaq çəkdi, ağladım. Bu vaxt əlimdəki telefonu götürüb qaçdı”.

Zərərçəkmiş Sevda İsmayılova hadisə baş verən gün şəxsi avtomobilini park etmək üçün saxladıqda bir nəfər şəxsin qəflətən maşının ön oturacağının qapısını açdığını və çantasını götürüb qaçdığını göstərib: “Maşından düşüb onun arxasınca düşsəm də, çata bilmədim. Hansı istiqamətə getdiyini görmədim. 102 xidmətinə zəng vurub hadisə barədə məlumat verdim”.

Zərərçəkmiş Esmiralda Həsənova isə ifadəsində göstərib ki, həmin gün avtomaşında onunla birlikdə qayınatası da olub: “Maşını işıqforda saxlamışdım, qəflətən arxa qapı açıldı, bir nəfər oturacaqdakı əl çantamı götürüb qaçdı. Qayınatamla birlikdə maşından düşdük, amma həmin adamı görə bilmədik. Kənarda dayanan şəxslər onun qaçdığı istiqaməti göstərsələr də, artıq gec idi”.

Zərərçəkmiş Gülnaz İsayeva ifadəsində hadisə baş verən gün “Özcan” kitab evindən məktəbli övladına xəritə alıb evə qayıdarkən binanın qarşısında bir nəfər şəxsin qəflətən əlindəki pul qabını dartıb qaçdığını göstəriib:

“Pul qabının içərisində 104 manat pul, evin açarları, metro kartı, qaz sayğacının plastik kartı var idi. Həmin şəxsin arxasınca qaçmağa çalışsam da, çata bilmədim. 102 xidmətini zəng vurub məlumat verdim. Nəsimi Rayon Polis İdarəsinin 19-cu Polis Bölməsinin əməkdaşları gəldilər, bölməyə dəvət etdilər, izahat yazdım”.

**Şahid qismində dindirilən Aytac Musayeva** ifadəsində Sumqayıt Dövlət Universitetində təhsil aldığını, təqsirləndirilən A.Təhməzovla 2015-ci ildə tanış olduğunu göstərib: “Azər mikroavtobuslarda pul yığan işləyirdi. Ötən ilin yanvar ayında toyumuz oldu. Toydan sonra müxtəlif ünvanlarda kirayə yaşadıq. Dolanışığımız zəif olduğuna görə daim valideynlərim köməklik edirdilər. Azərin mənim və valideynlərim barədə Bakı İstintaq Təcridxanasında yazdığı ərizə ilə tanış olduq. Orada yazılanlar hamısı yalandır. Nə mən, nə də valideynlərim Azəri cinayət törətməyə vadar etməmişik. Ona pulu ödəmədiyi təqdirdə atamın bizi ayıracağını deməmişik”.

**Məhkəmə prosesi mayın**




## 10 yaşını qeyd edən “Nar” sadiq abunəçilərini hədiyyələrlə sevindirdi

**Özünün 10 yaşını qeyd edən “Nar” abunəçilərini sevindirməyə davam edir. Mobil operator bu 10 il ərzində onunla bərabər olmuş ən sadiq abunəçilərinə 200 şəbəkədaxili dəqiqə və 1 GB internet trafiki hədiyyə etdi.**

**10 illik münasibətilə mobil operator yeni “Dostunu ”Nar"-a gətir" kampaniyasına start verdi. Kampaniya çərçivəsində dostları və ya yaxınlarını “Nar” ailəsinə gətirmiş hər bir istifadəçiyə balans üçün “mobil pul” qazanmaq imkanı yaradılır. Beləliklə, dostuna “Nar” ailəsinə qoşulmağı tövsiyə etmiş hər bir abunəçinin balansına 5 ay müddətində hər dəfə dostunun öz balansını artırdığı məbləğdə pul yüklənir.**

**Bu gün 10 yaşı tamam olan “Nar” 2007-ci ildə “Nar Mobile” ticarət nişanı ilə kommersiya fəaliyyətinə başlamış və qısa bir müddətdə Azərbaycanda telekommunikasiya sahəsinin aparıcı şirkətlərindən birinə çevrilmişdir. 2015-ci ildə Azərbaycanın tarixi irsi və ənənələrini əldə rəhbər tutaraq seçilmiş “Nar” ticarət nişanı ölkənin zəngin mədəni irsinin çağdaş həyatla bağlılığını simvolizə edir. Nar hər bir kəsin faydalana biləcəyi istisna dəyər - gerçək bir milli rəmzdir. Təklif etdiyimiz xidmət çeşidlərinin ticarət nişanımızda tam olaraq öz əksini tapması üçün “mobile” ifadəsindən imtina etdik. Bu gün mobil rabitə xidmətləri ilə yanaşı, eyni zamanda sabit internet və rəqəmsal TV xidmətlərini də təklif edirik.**

**İnanırıq ki, bu gün Azərbaycanda rabitə xidmətlərindən lazımi səviyyədə yararlana bilməyən böyük bir istifadəçi kütləsi vardır. Bu qrupa daxil olan insanlar əlverişli qiymətlərlə rabitə xidmətlərindən faydalanmaq istəyirlər. Bizim bütün təkliflərimiz bir məqsədə xidmət edir: telekommunikasiya və əyləncə xidmətləri hamını əhatə etməlidir. Biz fərqli ehtiyacları qarşılayan müxtəlif səpkili sadə və sərfəli təkliflərlə çıxış etməyə davam edəcəyik. Bura həm mobil rabitə və mobil internet, həm də ev üçün sürətli fiber-optik internet və yüksəkkeyfiyyətli TV xidmətləri daxildir. Ən yaxşı qiymət-keyfiyyət nisbətini nəzərə alaraq, bütün bu xidmətləri bir paketdə almaq daha əlverişlidir.**

**“Nar”ın kampaniya, məhsul və layihələri haqqında nar.az internet səhifəsindən ətraflı məlumat almaq olar.**

**İsrail ənənəsi əsasında özəl tibbi sahədə 20 illik təcrübə!**
**XƏSTƏLİKDƏN ƏZAB ÇƏKƏN İNSANLARA ƏSASƏN KİŞİLƏRƏ!**
**DİQQƏT!!! AXIRINCI ŞANS!!!**

Azərbaycanda və yaxud xaricdə diaqnozun təsdiqi və tam müalicəsi mümkün olmayıbsa, **doktor VAİZ SƏMƏDOV** şəxsi tibbi metodikası ilə Sizin uğurlu və daha qarantili olaraq aşağıdakı xəstəliklərinizi keyfiyyətli müayinə və müalicə edə bilər.

* **Diaqnozu bilinməyən ağır hallar;**
* **Xərçəngə şübhəli olan prostat düyünlü adenoması. Prostatitlər; Qipertrofiya və ya Atrofiya**
* **Cinsi zəiflikdən tam impotensiyadək, marağın və aktların azalması;**
* **Vaxtından tez toxum ifrazatı (səbəbdən asılı olmayaraq)**
* **Toy gecəsinin uğursuzluqları (kişi tibbi problemlər)**
* **Sidikdə və ya spermada qan;**
* **Spermanın azalması və itməsi;**
* **Kişi cinsi orqanının birdən əyilməsi və balacalması;**
* **Oğlan uşaqlarında cinsi orqanların (penisin və xayaların) inkişafdan qalması;**
* **Hormonal və infeksion səbəbli sonsuzluq (kişi və qadınlarda);**
* **Tala-tala və hərtərəfli saçların tökülməsi;**
* **Gecə-gündüz uşaq və böyüklərdə sidik aktların pozulmaları; Enurez**
* **50 yaşdan sonra oynaqlarda və onurğada baş verən qeyri travmatik ağrılar və hərəkət çətinlikləri;**
* **Psixo-nevroloji gərginlik, yuxusuzluq, qorxu, yaddaşın azalması və digər qəribə olan şikayətlər.**
* **Zöhrəvi xəstəliklərdən sonra qalıqlar və ağırlaşmalar.**

---

**D-r V.Səmədovun əsas tibbi prinsipi - keyfiyyətli və təkrarsız müalicə aparmaq üçün xəstəliyin əsl və bütün səbəblərini aşkar etmək zəruridir.**

---

*Qəbula yazılmaq və ünvanı öyrənmək üçün saat 11-dən 23-ə dək, **(050) 213-88-05** nömrəsinə, **d-r Vaiz Səmədova** zəng etmək olar.*

Qəbul növbə ilə hər gün saat 12-dən sonra başlayır.

YENİ MÜSAVAT
N 101 (6715) 13 may 2017




# Əl dəyişdikcə əldən düşən Bakı avtovağzalı

## Təhlükəsizlik və gigiyena qaydalarına riayət olunmur; ticarət köşklərində isə satıcılar "ağlaşır"...

**Bir müddət öncə Prezidentin İşlər İdarəsinə verilən Bakı Beynəlxalq Avtovağzal Kompleksi (BBAK) yenidən Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin balansına qaytarılıb. APA-nın yaydığı məlumatda qeyd olunur ki, faktı nazirlikdəki mənbə də təsdiqləyib: "Kompleksin əvvəlki rəhbərliyi də yenidən öz iş yerinə qaytarılıb".**

Son aylar ard-arda "əl dəyişən" Bakı Beynəlxalq Avtovağzal Kompleksində mövcud vəziyyəti öyrənmək üçün "Yeni Müsavat"ın əməkdaşı olaraq avtovağzal ərazisinə yollandıq. Burada bir sıra maraqlı və təəccüblü halların şahidi olduq...

İlk olaraq ölkə xaricinə də avtobusların işlədiyi avtovağzalın təhlükəsizlik məsələlərinə toxunaq. Belə ki, avtovağzalda təhlükəsizlik tədbirləri demək olar ki, yox səviyyəsindədir. Avtovağzalın girişindən daxil olub, avtobusların dayandığı yuxarı mərtəbələrə qədər qalxdıq. Lakin bu əsnada ara-sıra gözə dəyən mühafizəçilər xaricində heç bir təhlükəsizlik tədbirlərinə rast gəlmədik. Sərnişinlər əllərindəki iri çantalar, çamadanlarla yuxarı mərtəbəyə qədər qalxıb, gedəcəkləri ünvandan asılı olaraq, avtobusa əyləşirlər. Bütün bu proses boyunca təhlükəsizlik məqsədi ilə heç bir yoxlama əməliyyatı aparılmır. Xatırladaq ki, ötən ilin oktyabr ayında "Ömər" ləqəbli terrorçu üzərində partlayıcı maddə ilə Bakı-İstanbul avtobusuna minmişdi. Terrorçunu DTX əməkdaşları Ələt qəsəbəsində zərərsizləşdirmişdilər...

Yuxarıda bir cümlə ilə qeyd etsək də, əslində sərnişinlər avtobusa çatana qədər bir xeyli maraqlı "mərhələ"lərdən keçirlər.

İlk olaraq onu qeyd edək ki, BBAK hələ yeni istifadəyə verilən zaman burada vəziyyət indikindən çox fərqli idi. İlk vaxtlar işıqlı gözləmə zallarında xüsusi monitorlar quraşdırılmışdı. Sərnişinlər yola çıxanadək bu gözləmə zallarında əyləşib, monitorlar vasitəsilə təqdim olunan kliplərə, filmlərə baxıb, istirahət edirdilər. Lakin hazırda həmin monitorlar işlək vəziyyətdə deyil. Bundan başqa avtovağzalda kassalar bölməsi olsa və orada normal qiymətə biletlər satılsa da, sürücülər avtovağzalın pilləkənlərində durub, gedəcəkləri rayonların adlarını qışqırıb, müştəri yığırlar. Onlardan bilet olduğu halda nə üçün belə əziyyət çəkdiklərini soruşduğumuzda isə bildirdilər ki, "bilet almayanlar da var, alanlar da. Bizim işimiz bilet almayanlarladır". Sürücülər bildirdilər ki, avtomobilə xərcləri çox çıxdığı üçün bilet alan sərnişinlər onlara sərf etmir.



Onu da qeyd edək ki, əgər sərnişin bilet alırsa, bu zaman ödənişi kassaya edib, sürücüyə isə bileti təqdim edir. Bilet almayan sərnişinlər isə sürücüyə nağd formada gediş haqqını verirlər. Bu isə məsafədən asılı olaraq biletin qiymətindən təxminən 1 manat 20 qəpik çox olur. Misal üçün Lənkərana biletin qiyməti 4.35 AZN olduğu halda sürücülər 6 manat, Sabirabada bilet 2.82 AZN olduğu halda sürücülər 4 manata aparırlar. Görünür, elə buna görə də sürücülər sərnişinləri kassaya yol almadan, yaxalamaq istəyirlər...

Məlum olduğu kimi, BBAK-də ticarət mərkəzi də fəaliyyət göstərir. Bir zamanlar bu ticarət mərkəzində alış-verişin yüksəldilməsi üçün müxtəlif inzibati addımlar atılsa da, heç cürə məqsədə ola bilmədilər. İndi isə ticarət mərkəzində vəziyyət əvvəlkindən də bərbaddır. Belə ki, biz orada olduğumuz zaman demək olar ki, heç bir müştəriyə rast gəlmədik. Avtobusa minmək üçün sərnişinlər mağazaların qarşısından keçməyə məcbur olsalar da, onların heç biri ayaq saxlayıb, alış-veriş etmirlər. Söhbət etdiyimiz satıcılar da bunu təsdiqlədilər ki, al-ver çox aşağı həddədir. Satıcıların sözlərinə görə, BBAK-ın "əl dəyişməsi"nin onların fəaliyyətlərinə heç bir təsiri olmayıb:

"Əvvəl də müştəri yox idi, indi də eyni vəziyyətdir. Buranın sahibinin kimliyinin və ya kompleksin hara tabe olmasının bizlərə təsiri yoxdur. Başımızı salıb, işimizi görürük",-deyə satıcılar bildirdilər.

Əvvəllər buradakı ticarət mərkəzində tanınmış geyim mağazaları fəaliyyət göstərsə də, müştərilərin azlığı, onların da başqa yerə daşınmasına səbəb olub. Adi mağazaların satıcıları bildirdilər ki, başqa yerdə iş olarsa, onlar da getməyə hazırdırlar.

Onu da qeyd edək ki, avtovağzalın hər mərtəbəsində pullu tualet fəaliyyət göstərir ki, burada da vəziyyət bərbaddır. Belə ki, pullu olsa da tualetlərin heç birində gigiyenik vasitələr, əl yumaq üçün şampun mövcud deyil...

❑ **Əli RAİS**
**Fotolar müəllifindir**

# Bu gün "Eurovision-2017"nin finalıdır

## Azərbaycan 12-ci sırada iştirak edəcək; yarışmada yaşanan təxribat və maraqlı olaylar...

**Bu gün Ukraynanın paytaxtı Kiyevdə "Eurovision-2017" beynəlxalq mahnı yarışmasının finalı keçiriləcək. Finalda 26 ölkə iştirak edəcək. Bunlar İsrail, Rumıniya, Niderland, Macarıstan, Xorvatiya, Bolqarıstan, Avstriya, Danimarka, Belarusiya, Norveç, Azərbaycan, Moldova, Yunanıstan, İsveç, Portuqaliya, Polşa, Ermənistan, Avstraliya, Kipr, Belçika ölkələridir. Bu il yarışmaya ev sahibliyi edən Ukrayna, Fransa, İtaliya, İspaniya, Almaniya və Böyük Britaniya isə finala birbaşa vəsiqə alan ölkələrdir. Beləliklə mayın 13-də final gecəsində 26 ölkə mübarizə aparacaq. Ölkəmizi Diana Hacıyeva "Skeletona" mahnısı ilə təmsil edir. Final üçün keçirilən püşk zamanı məlum olub ki, Azərbaycan yarışmada 12-ci sırada çıxış edəcək.**




Qeyd edək ki, bu günə qədər yarışmanın yarım finalları keçirilən zaman təxribat xarakterli və maraqlı olaylar yaşanıb. Belə ki, mayın 9-da keçirilən ilk yarımfinal günü Ermənistanın birinci kanalı Azərbaycanın elan olunduğu an növbəti təxribata əl atmışdı. Rusiyanın "gazeta.ru" saytının yaydığı məlumata görə təmsilçimiz Diana Hacıyevanın çıxışından əvvəl klip nümayiş olunub. Həmin an erməni şərhçilər heç bir fikir bildirməyib, Azərbaycanın adını çəkməyiblər. Bunun əvəzinə isə onlar üç bayramı qeyd etdiklərini söyləyiblər: "Şuşanın alınması günü", "Qələbə günü" və "Qarabağ ordusu günü".

Şərhçi "İndi isə növbəti ölkənin təmsilçisi "Skeletons" mahnısı ilə çıxış edir" sözlərini deyib.

Maraqlı olay isə mayın 11-də keçirilən yarışmanın ikinci yarımfinalı zamanı yaşanıb. Belə ki, "Eurovision" müsabiqəsinin tarixində ilk dəfə olaraq evlilik təklifi olub. Yarışma zamanı layihənin aparıcısı "Green Room"a yaxınlaşaraq Makedoniya təmsilçisi olan Yana Burçeskanı gözəl çıxışı münasibətilə təbrik edib. Daha sonra onun hamilə olduğunu qeyd edən aparıcı uşağın atasının kim olduğunu soruşub. Yana isə yanında əyləşən Aleksandrı göstərib. Aleksandr mikrofonu götürərək sevgilisinə evlilik təklifi edib: "Mən səni çox sevirəm. Mənimlə evlənərsən?" Cibindən üzük çıxararaq sənətçiyə uzadan Aleksandr sevgilisindən "hə" cavabını alıb. Aleksandrın bu addımı böyük alqışlarla qarşılanıb. Qeyd edək ki, makedoniyalı ifaçı finala vəsiqə qazana bilməyib.

❑ **Xalidə GƏRAY**

# İlhamə Quliyevanın oğulluğunun adı yenidən dələduzluq ittihamında

## **Vüqar Bəkirov:** "Orxan pulumu qaytarmasa, özümü yandıracam"



**Mərhum xalq artisti İlhamə Quliyevanın oğlu Orxan Nadirovun barəsində yenidən dələduzluq ittihamı ortaya çıxıb. Bu dəfə ittiham yenicə azadlığa çıxan dostu Vüqar Bəkirov tərəfindən gəlib. Lent.az saytına müsahibə verən V. Bəkirov qeyd edib ki, Orxan Nadirov ona 75 min manat pul borclu olduğunu deyib. O, qeyd edib ki, Orxan ona həmin borcu qaytarmadığı təqdirdə bütün sirlərin üstünü açacaq: "Orxan Nadirov mənimlə iş qurmaq istədi. Mənə bir tədbirdə iştirak etmək üçün rusiyalı müğənni Ani Lorakı gətirmək tapşırıldı. Mən isə buna imkanım olmadığını bildirdim. Sonra isə Orxan məni özünü "Merac Holding"in rəhbəri kimi tanıdan Səbuhi Əmrə ilə tanış etdi. Sonra isə məlum oldu ki, həmin şəxs Beyləqandan imiş. Həmin şəxs sonradan həbs olundu.**

Orxan və dostu Orxan Xəlilov məndən birinci 24 min, sonra isə 35 min manat pul aldılar. Onlar vəzifəli şəxslər, onların qohumları ilə əlbirdirlər. Özlərini müəyyən məmurların qohumu adlandırıb camaatdan pul yığırlar".

V.Bəkirov bildirib ki, hazırda Binəqədi rayon polis şöbəsində iş gedir. Amma buna baxmayaraq əsl cinayətkarlar azadlıqda gəzir: "1 il 2 ay həbsdə qaldım, bu iş araşdırılmır, çünki burda hansısa vəzifəli şəxsin adı hallanır. Özümü yandıracam. Çünki məni yenidən həbsə göndərmək istəyirlər. Bütün faktlar, əlimdəki səsyazmalar, hamısı gizlədilir. Həyatım təhlükədədir".

Barəsində səslənən ittihamlarla bağlı Orxan Nadirovla dəfələrlə əlaqə saxlamağa çalışsaq da, çoxsaylı zənglərimiz cavabsız qaldı. Zamanında həm mərhum xalq artistinin, həm də Orxan Nadirov və Vüqar Bəkirova vəkillik edən Elmira Məmmədova isə qalmaqalla bağlı ilginc açıqlamalar verdi:

"Vüqar da, Orxan da bu günə qədər çox yaxın dost olublar, bunu danmaq olmaz. Amma indi bilmirəm onların münasibətləri necədir. Vüqarı 75 minə görə polisə çağırırlar, borclu olduğu şəxslər öz borclarının geri qaytarılmasını istəyir. Bununla bağlı zamanında Vüqar həbsdə olan istintaq açılmışdı. Lakin bilmirəm, niyə bu məsələ dayandırıldı. Bildiyimə görə həmin məsələdə bir çox güc strukturlarının adları hallanırdı. Eşitdiyimə görə onlar bu məsələni saxladılar.

Artıq nə Orxan mənimlə, nə də mən onunla əlaqə saxlamırıq. Hətta Vüqar həbsdən çıxanda mən ona zəng etdim ki, "Orxan, Vüqar türmədən çıxıb". Hər halda dost idilər. Bircə onların gecə yatmaqları ayrı olub. Qalan bütün günü həmişə bir yerdə olublar... Daha ondan sonra biz əlaqə saxlamadıq. Amma Vüqarla əlaqə saxlayırıq. Mən istəyərdim ki, mərhum xalq artistinin ruhu xətrinə onlar yenə də dost olsunlar".

**Xatırladaq ki, Vüqar Bəkirov ötən il dələduzluqda ittiham olunaraq 4 il azadlıqdan məhrum edilmişdi. Lakin bu günlərdə Bakı Apelyasiya Məhkəməsinin qərarı ilə barəsində bərət hökmü çıxarılıb və azadlığa buraxılıb.**

❑ **Xalidə GƏRAY**

YENİ MÜSAVAT

Son səhifə

N 101 (6715) 13 may 2017



## Uşaq atasından sevgi görsə...

Atalarından həmişə sevgi görən uşaqlar özləriylə daha barışıqdılar. Bundan başqa, ata ilə uşağın sağlam ünsiyyətin məktəbdə də müvəffəqiyyətli olmasını təmin edir. Atalar uşaqlarını yetişdirmədə danlamaq, qışqırmaq, təhdid, ağır bir şəkildə cəzalandırma və qorxutma yolundan istifadə etməməlidir. Uşaq xoşbəxt ola bilmək üçün ata sevgisini içdən hiss etməlidir. Psixoloqlar müəyyən ediblər ki, sağlam ünsiyyət üçün atalar uşaqlarına vaxt ayırmalıdır. Atalarından davamlı sevgi, maraq görən və sağlam dialoq quran uşaqlar özləriylə daha barışıq və özünə inamı yüksək olur. Ata sevgisi yüksək olan uşaq məktəbdə dərslərində daha müvəffəqiyyətli və yoldaşlarıyla daha uyğun olur. Liderlik strukturları daha inkişaf edir. Atalar uşaqlarına zaman ayırmalı və danışmalıdırlar. Birlikdə kitab oxumalı, bir hadisə haqqında onun nə düşündüyünü soruşmalıdırlar. Uşaqla söhbət və atanın sevgisinin göstərməsi zəka inkişafına müsbət təsir edir.

Alman pedaqoq Petra Otmann da uşaq inkişafında ana və ata rollarının ayrı-ayrı olduğunu söyləyib. Qız uşaqlarının özünə anasını rol model aldığını, oğlan uşaqlarının isə atanı rol model aldığını ifadə edən Otmann, uşaqlarda ata sevgisi, maraq və şəfqətinin özünə öz etibarlarını yüksək tutaraq qarşılarına çıxan bir problemi rahat bir şəkildə həll edə biləcəklərini qeyd edib.

# Sosial şəbəkədə izləyici satın almaq mümkündür

Çində yerləşən "tık" fabriki müəyyən məbləğ qarşılığında təqibçi və "layk" satışı həyata keçirir. İHA-nın xəbərinə görə, 10 minə yaxın telefonun eyni anda bəyənmə və təqib funksiyasını icra etdiyi "tıklama fabrikində təqibçi sayı saniyələr içində minlərə qədər arta bilər. Çindəki bu fabvrikdən çəkilən görüntülərdə bütün sosial media hesabları müəyyən məbləğ qarşılığında bəyənilir və ya təqib edilir. Bununla da kifayətlənəyən fabrik istəyə uyğun olaraq mobil tətbiqetməni bəyənir və bununla da onu axtarış siyahılarında üst sıralara çıxarır. "Tık fabrikinin" müştəriləri arasında məşhurlar da var, böyük texnologiya şirkətləri də. Onlarla işçi bu fabrikdə telefonlara nəzarət edir. İndi isə qiymətlərə keçək. 1000 instaqram təqibçisi 12 dollara, min Twitter təqibçisi isə 10 dollara satılır.



# Yumurtanı soyuducunun səhv yerində saxlayırıq



Britaniyalı ekspertlər müəyyənləşdiriblər ki, soyuducularda yumurta saxlamaq üçün ən uyğunsuz yer qapının üstündəki yerdir. Belə ki, qapı hər dəfə açılıb-örtüləndə yumurta silkələnir və bu, onun keyfiyyətinə mənfi təsir edir. Bundan başqa, həmin yerdə saxlanan digər məhsulların qoxusu, aromatı da ona mənfi təsir edir. Ən doğru seçim yumurtaları soyuducunun orta rəfində, daimi temperaturun mühafizə olunduğu yerdə saxlamaqdır. "Daily Mail"də yayımlanan məqaləyə görə, problem öncə qaynar müzakirələrə səbəb olub, daha sonra isə ortaq qənaətə gəliblər. "Good Housekeeping" jurnalının mütəxəssisləri deyirlər ki, yumurtaları orijinal qablarında, orta rəflərdə saxlayarsızsa, hər dəfə soyuducunun qapısı açıb-bağlananda bu, onun ümumi temperaturuna təsir etməyəcək. Britaniyanın Yumurtalarla bağlı informasiya xidmət mərkəzindən isə evdar qadınlara məsləhət görülüb ki, yumurtaları öz qabında, 20 dərəcədən aşağı olmamaq şərtilə, vahid temperaturda saxlamaq lazımdır. Ümumiyyətlə, yumurtanı tez-tez isti və soyuq temperaturlar arasında dəyişdirmək olmaz. Ən yaxşısı onları soyuducuda saxlamaqdır. Orada temperatur daimidir və buna görə də yumurtalar daim təzə, təravətli qalacaq.

Bəzi kulinarlar isə deyirlər ki, yumurtanı bişirmədən öncə bir müddət bayırda saxlasaz, bu, onun dadını yaxşılaşdıracaq. Financial Times qəzetinin restoran tənqidçisi Tim Heyvard isə əmindir ki, yumurta minimum bir həftə hətta otaq temperaturunda da yaxşı saxlanılır.




**QOÇ** - Bu təqvimdə ümumi gərginlik sizi müşayiət etsə də, çılğınlıq etməsəniz, günü sakit tərzdə başa vuracaqsınız. Nahardan sonra sizi səbəbsiz münaqişələrə cəlb etmək istəyəcəklər - aldanmayın.

**BUĞA** - Yeni əlaqələr qurmaq istəyirsinizsə, bu təqvimdən maksimum yararlanmağa çalışın. Nüfuzlu adamların köməyindən istifadə edin. Gəlişixoş sözlər işlətməyin. Onsuz da buna heç kim inanmayacaq.

**ƏKİZLƏR** - Ulduzların düzümü maddi çətinliklərinizdən xəbər verir. Çalışın ki, büdcənizdə olan vəsaiti boş məsrəflərə xərcləməyəsiniz. Ailə üzvlərinizin problemlərinə laqeyd yanaşmayın.

**XƏRÇƏNG** - Olduqca səmərəli bir gün yaşayacaqsınız. Cərəyan edən proseslər bütünlüklə zövqünüzə uyğun olacaq. Amma daxili orqanlarınızı da qorumalısınız. Mümkün qədər ağır fiziki işlərə ara verin.

**ŞİR** - Astroloji göstəricilər potensial imkanlarınızın genişlənəcəyini göstərir. Əgər gücünüzə inanırsınızsa, boş dayanmağa lüzum yoxdur. Axşam saatlarında rəqiblərinizdən qorunmağa çalışın.

**QIZ** - Nə qədər güclü olsanız da, təkbaşına hansısa vəzifənin öhdəsindən gələcəyinizi düşünməyin. Çünki bu təqvimdə sizə dəstək verən olmasa, uğurlu olaylardan uzaq düşə bilərsiniz. Bəxtinizdə pul var.

**TƏRƏZİ** - Göy qübbəsi gün ərzində sizi bir neçə dəfə sınaqdan keçirməyə çalışacaq. Buna hazır olun və hər hansı məişət problemini özünüzə dərd etməyin. Şəxsi işlərinizdə dönüş yaranmaqdadır.

**ƏQRƏB** - İxtiyarınızda olan bu təqvim bürcünüz üçün ən perspektivli zamana çevriləcək. Sizə qarşı hiyləgər mövqedə duranlara əl-qol açmağa macal verməyin. Lazımi məqamlarda sərtlik də göstərin.

**OXATAN** - Səhər saatlarında həmkarlarınızla, eləcə də yaxın münasibətdə olduğunuz bəzi kəslərlə mübahisələriniz mümkündür. Dünəndən bəri bürcünüzdə olan Ay sizdən mülayimlik tələb edir.

**OĞLAQ** - Özünüzü nə qədər təmkinli aparsanız, işləriniz də bir o qədər uğurlu gedəcək. Hansısa xırdaçılığa görə hisslərinizi kandara çıxarmayın. Axşama yaxın maraqlı hadisələr gözlənilir.

**SUTÖKƏN** - Böyük dəyişiklər astanasındasınız. Hətta lazımi məqamda düzgün qərar çıxarsanız, ayın sonuna qədər ovqatınız xoş olacaq. Tərəddüd etdiyiniz bütün məsələləri isə təxirə salmalısınız.

**BALIQLAR** - Adi bir gün yaşayacaqsınız. Hansısa böyük bir iş görəcəyiniz və ya qanqaraçılığı ilə rastlaşacağınız ağlabatan deyil. Bu gün riskdən, eləcə də yeni sövdələşmələrdən uzaq olmalısınız.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Depressiyaya düşməmək üçün balıq yemək lazımdır



Aparılan araşdırmalar tez-tez balıq yeyənlərin depressiyaya düşmədiyini sübut edib. 150 mindən çox insanın iştirak etdiyi 26 müxtəlif araşdırmanın nəticələri balığın depressiyaya düşmək riskini təxminən 17 faiz azaltdığını göstərib. Tədqiqatçılar bunu balığın tərkibindəki yağ turşuları ilə əlaqələndirirlər. Belə ki, balığın ehtiva etdiyi omeqa3 yağ turşuları dopamin ve serotonin hormonlarının daha aktiv olmasını təmin edir. Bu da insanın özünü daha xoşbəxt hiss etməsinə və depressiyadan uzaqlaşmasına səbəb olur. Ancaq araşdırmaçılar depressiyaya qarşı hansı balıq növünün daha təsirli olduğunu müəyyənləşdirə bilməyiblər. Tədqiqatlar davam edir.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.100

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.